Ərəstun Mehdiyev

# Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə

"Altay" nəşriyyatı
Bakı - 2000

Elmi redaktoru: Əməkdar elm xadimi, professor **Süleyman Əliyarlı**

Rə'yçilər: tarix elmləri doktoru, professor **Elmira Muradəliyeva**
tarix elmləri namizədi, dosent **Mehman Abdullayev**

*Azərbaycan Respublikası təhsil nazirinin 05.05.2000-ci il tarixli 430 saylı əmri ilə ali məktəb tələbələri üçün dərs vəsaiti kimi tövsiyə edilmişdir.*

**Ə.B.Mehdiyev**
**Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə.** Dərs vəsaiti. - Bakı: "Altay" nəşriyyatı, 2000. - 128 səh.

*Kitabda XIX yüzilin son rübündə Azərbaycan neft sənayesinin təşəkkülü və inkişafı, kapital qoyuluşunun mənbələri, Qərb kapitalının neft sənayesinə cəlb edilməsi sahəsində Rusiya hökumətinin tədbirləri, Azərbaycanın milli burjuaziyasına qarşı çarizmin ayrı-seçkilik siyasəti, Qərb və Rusiya kapitalının, o cümlədən Azərbaycan milli kapitalının xüsusi çəkisi və neft sənayesinin inkişafında rolu məsələləri tədqiq edilir. Əsərdə, həmçinin, neft sənayesində inhisarlaşma prosesi, ilk inhisar birliklərində müxtəlif mənşəli kapitalın mövqeyi və s. məsələlər də öyrənilir.*

*Dərs vəsaiti tarix fakültəsinin tələbə və aspirantları, müəllimləri və eləcə də Azərbaycan tarixi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.*

© "Altay", 2000

## Mündəricat

**Giriş** 4

**I FƏSİL**
**Çağdaş neft sənayesinin təşəkkülü (XIX yüzilin 70-80-ci illərin ortaları)** 15

§1. Neft sənayesinə kapital qoyuluşunun mənbələri 15
§2. İltizam sisteminin ləğv edilməsindən sonra neft sənayesinin inkişafı (1872-1880-ci illərin ortaları) 26

**II FƏSİL**
**Azərbaycan neft sənayesinin inhisara alınması uğrunda mübarizənin başlanması** 46

§1. Xarici kapitalın cəlb edilməsi məsələsi Rusiyanın hakim dairələrində 46
§2. Neft sənayesində inhisarlaşma prosesinin başlanması 57
§3. İlk neft inhisarı - "Bakı ağ neft zavodu sahiblərinin ittifaqı". Qərb kapitalı tə'sirinin güclənməsi 81

**Nəticə** 102

**Əlavə** 107
**Резюме** 109
**Summary** 113
**İstifadə olunmuş ədəbiyyat** 116

## Giriş

XX əsrin sonunda dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan öz tarixinin yeni mərhələsinə qədəm qoymuşdur. Ölkədə dərin sosial-iqtisadi və siyasi dəyişikliklər baş vermiş, dünya təcrübəsində sınaqdan keçmiş bazar iqtisadiyyatına əsaslanan demokratik, hüquqi dövlət quruculuğu yolunda mühüm addımlar atılmışdır. Yeni vəzifələrin həlli sahəsində mürəkkəb problemlərlə üzləşən Azərbaycan Respublikasının həyatında "neft amili" yenidən ön plana çıxmışdır.

Azərbaycanın bütün iqtisadi potensialının hərəkətə gətirilməsində iqtisadiyyatda aparıcı yer tutan neft sənayesinə mühüm rol ayrılır. Təsadüfi deyil ki, Azərbaycan dövləti qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə söykənən "açıq qapı" siyasəti yeridərək, özünün neft yataqlarının işlənməsində xarici kapitalın iştirakına geniş şərait yaradır. 1994-cü il sentyabrın 20-də xarici neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan neft sənayesinə xarici investisiya qoyuluşuna güclü təkan verdi. Sonrakı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında bağlanmış müqavilələr neft sənayesinin inkişafı və Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası üçün əlverişli imkanlar açır.

Müasir dövrdə Azərbaycan neft sənayesinə kapital qoyuluşunun bir sıra siyasi və iqtisadi cəhətlərinin aydınlaşdırılması baxımından tarixi təcrübənin öyrənilməsi mühüm elmi və praktiki əhəmiyyətə malikdir.

Azərbaycan neft sənayesi hələ XIX yüzilin 70-ci illərindən təşəkkül etməyə başlamış, yeni texnologiya əsasında iri kapitalist (fabrik-zavod) inkişafı yolu ilə yüksəliş dövrünə qədəm qoymuşdur. Məhz həmin vaxtdan Azərbaycan nefti tədriclə qlobal siyasi və iqtisadi maraqlar dairəsinə daxil olmuş və sonrakı dövrdə bölgədə cərəyan edən proseslərin tənzimlənməsində xüsusi əhəmiyyət kəsb edən əsas amillərdən birinə çevrilmişdir.

XIX əsrin son rübündə Rusiya imperiyasında neft məhsullarına tələbatın artması Bakıda neft hasilatının yüksəlməsinə və neft e'malı sənayesinin inkişafına təkan verirdi. Azərbaycanda neft sənayesinin yüksəlişi isə öz növbəsində 1880-ci illərin əvvəllərində Rusiya iqtisadiyyatını Amerika ağ neftinin (kerosin) asılılığından azad edərək, onun inkişafına güclü tə'sir göstərmişdi. Rusiyada ağ neftin istehlakı artmış, zavod və fabriklərdə, dəmir yolunda ucuz neft qalıqlarının yanacaq kimi işlənməsi geniş vüs'ət almışdı. XIX yüzilin sonu - XX yüzilin əvvəlində dünyanın əsas neft mərkəzlərindən birinə çevrilmiş Azərbaycan neft sənayesi Rusiya imperiyası iqtisadiyyatının dünya miqyasında çox mühüm rol oynayan yeganə sahəsi idi.

XIX əsrin son rübündə Azərbaycan neft sənayesinin təşəkkülü tarixinin öyrənilməsi, bu prosesdə Avropa, Rusiya və o cümlədən Azərbaycan milli kapitalının rolunun təhlil edilməsi bütövlükdə Rusiya kapitalizminin xarakteri və xüsusiyyətləri haqqında təsəvvürləri genişləndirməklə yanaşı, həm də Azərbaycan neft sənayesinin hansı baza üzərində formalaşıb inkişaf etdiyini, digər sənaye sahələri ilə qarşılıqlı əlaqələrini və çarizmin Rusiya imperiyasının müstəmləkə ucqarlarından biri olan Azərbaycanda həyata keçirdiyi siyasətin xüsusiyyəti və sosial-iqtisadi inkişafın səviyyəsi ilə bağlı məsələləri işıqlandırmağa kömək edir. Eyni zamanda, bu mövzunun tədqiqi Rusiya imperiyasının iqtisadi həyatında və xarici iqtisadi əlaqələrində Azərbaycan neftinin oynadığı rolu daha dərindən əks etdirmək baxımından mühüm əhəmiyyətə malikdir.

Mövzu ilə əlaqədar bir sıra məsələlərin öyrənilməsi hələ o dövrün tədqiqatçıları tərəfindən başlanmışdır. Qafqaz dağmə'dən idarəsinin materiallarını, rəsmi statistik mə'lumatları və digər mənbələri tədqiqata cəlb edən müəlliflər problemi ümumi şəkildə nəzərdən keçirərək, neft sənayesinin tarixinə dair bə'zi məsələləri işıqlandırmışlar. Azərbaycan neft sənayesinin inkişaf dinamikasını təsvir edən həmin müəlliflər qərb sənayeçilərinin fəaliyyətinə daha çox diqqət yetirməklə yanaşı, çoxmilli geniş tərkibə malik Rusiya kapitalı nümayəndələrinin də fəaliyyətinə müəyyən aydınlıq gətirmişlər.

V.İ.Raqozin Azərbaycan neft sənayesinin tarixinə həsr olunmuş əsərində Qafqaz dağ-mə'dən idarəsinin ma-

teriallarına əsaslanaraq XIX əsrdə Azərbaycanda neft hasilatının inkişaf dinamikasını əks etdirmiş və 1872-ci ildə iltizam sisteminin ləğv edilməsini müsbət qiymətləndirmişdir.[1]

Quruluşuna və konsepsiyasına görə V.Raqozinin əsərindən ciddi şəkildə fərqlənməyən V.Simonoviçin kitabında XIX yüzilin son rübündə neft sənayesinin inkişafından bəhs olunur və göstərilir ki, Nobel qardaşları bu sahədə "qısa müddət ərzində əsl inqilab etdilər".[2]

Mövzunun öyrənilməsinə həsr olunmuş S.İ.Qulişambarovun əsərində Azərbaycan neft sənayesinin tarixinin araşdırılması 1813-cü ildən 1888-ci ilədək olan dövrü əhatə edir.[3] Neft hasilatı və e`malı sənayesinin vəziyyətini işıqlandırmaqla yanaşı, müəllif bu sahədə işləyən fəhlələrin həyat şəraitinə dair bə`zi məsələlərə də toxunur.

1901-ci ildə işıq üzü görmüş kollektiv əsərin müəllifləri ümumən Qafqazda dağ-mə`dən sənayesinin inkişafını əks etdirmiş və neft sənayesinin tarixinə xüsusi diqqət yetirmişlər.[4] Rəsmi sənədlər əsasında yazılmış bu əsər Gürcüstanın Rusiya tərkibinə qatılması yubileyi münasibəti ilə çap edilmiş və icmal xarakteri daşıyır.

Q.Y.Starsevin əsəri statistik materialın zənginliyi ilə diqqəti cəlb edir.[5] Müəllif əsas mənbə kimi neft sənayesinin illik xülasəsini, neft sənayeçiləri qurultaylarının materiallarını, vergi idarəsinin rəsmi mə`lumatlarını və s. istifadə etmişdir. XIX əsrdə neft sənayesinin tarixini nəzərdən keçirmiş Q.Y.Starsev Azərbaycanda neft hasilatı, e`malı və neft məhsullarının ticarəti məsələlərini araşdırmışdır.

S. və L.Perşkelərin 1913-cü ildə nəşr etdikləri əsəri xüsusi qeyd etmək lazımdır.[6] Müəlliflərdən biri - L.Perşke XIX əsrin 90-cı illərində Zaqafqaziya vilayəti aksiz vergisi idarəsinin rəisi işləmiş və neft sənayesi məsələləri ilə yaxından tanış olmuşdur. Bu əsərdə Zaqafqaziya aksiz idarəsinin arxivindən və digər mənbələrdən toplanmış zəngin statistik mə`lumatlar və s. materiallar öz əksini tapmışdır.

V.S.Zivin əsərində neft sənayesində qərb kapitalının rolu problemi işıqlandırılır.[7] Müəllif Rusiya imperializminin "törəmə" mənşəyi haqqında tezisə əsaslanaraq, neft sənayesinin inkişafında qərb kapitalına aparıcı rol ayırmışdır.



Xarici kapitalın həlledici rolunu qəbul edən Rusiya kapitalizminin "törəmə" mənşəyi haqqında konsepsiya sovet tarix elmində də möhkəmlənmiş və 1960-cı illərin əvvəlinə qədər hakim mövqe tutmuşdur.[8] P.V.Ol və L.Y.Eventovun 1920-30-cu illərdə çap olunmuş əsərlərində Rusiya neft sənayesinin tarixi həmin konsepsiya əsasında işıqlandırılmışdır.[9]

Lakin 1960-cı illərin əvvəlindən başlayaraq tarixi ədəbiyyatda belə bir fikir möhkəmlənmişdir ki, xarici kapitalın mühüm rol oynamasına baxmayaraq, o, Rusiyanın iqtisadi inkişafında həlledici amil olmamışdır. Bu dövrdən e`tibarən tədqiqatçılar "rus və xarici kapitalın sıx ittifaqı haqqında danışmağı üstün tuturlar".[10]

B.Y.Axundovun hələ 1959-cu ildə nəşr edilmiş Azərbaycan neft sənayesində inhisarçı kapitalın rolu məsələlərinə dair əsərində "inkişafın ilk dövründə" bəhs edilən sahədə Rusiya kapitalının mühüm rol oynadığı qeyd olunur. Azərbaycan neft sənayesində imperializmin əsas əlamətlərinin təzahürü problemini tədqiq edən müəllif həmin sənaye sahəsinin meydana gəlməsini Rusiya kapitalının fəaliyyəti ilə əlaqələndirir və göstərir ki, sonralar maliyyə vəsaitinin çatışmaması qapıları xarici kapitalın üzünə geniş açmağa vadar etdi.[11]

Azərbaycan neft sənayesində inhisarlaşma prosesinin erkən dövrünü araşdıran V.A.Nardovanın əsərləri problemin öyrənilməsi üçün böyük əhəmiyyət kəsb edir.[12] Müəllif çoxsaylı arxiv sənədlərini, statistik məcmuələri və dövri mətbuatı təhlil edərək, ilk dəfə olaraq neft sənayesində Nobel və Rotşild şirkətlərinin rəhbərliyi ilə inhisarların meydana çıxması prosesini ətraflı işıqlandırmışdır. Xronoloji baxımdan 1880-1893-cü illəri əhatə edən bu əsərlərdə Azərbaycan neft sənayesinin təşəkkül tapmağa başladığı XIX əsrin 70-ci illəri tədqiqat obyektinə çevrilməmişdir.

A.A.Fursenkonun XIX əsrin 90-cı illərində neft sənayesinin inhisara alınması və dünyanın neft bazarları uğ-

runda mübarizə məsələlərinin tədqiqinə həsr olunmuş əsərlərini xüsusi qeyd etmək lazımdır.[13] Müəllif müxtəlif arxiv sənədləri və dərc olunmuş mənbələr əsasında Nobel və Rotşild ilə yanaşı H.Z.Tağıyev, A.İ.Mantaşev, "Xəzər cəmiyyəti" və s. şirkətlərin də fəal iştirak etdiyi iri neft sənayesi firmalarının rəqabətini işıqlandırmışdır.

Tarixi ədəbiyyatda mübahisə doğuran "Nobel qardaşları" şirkətinin milli mənsubiyyəti məsələsinə toxunan A.A.Fursenko onun Qərb şirkəti kimi qiymətləndirilməsi ilə razılaşmayaraq qeyd edir ki, "Nobel qardaşları" cəmiyyətinə qoyulmuş vəsaitin xeyli hissəsini xarici kapital deyil, Nobel ailəsinin Rusiyada qazandığı pul təşkil etdiyini" nəzərə alaraq, bu şirkəti "təmiz rus mənşəli olmasa da, hər halda qarışıq xarakterli" firma hesab etmək lazımdır".[14]

Ə.S.Sumbatzadənin 1964-cü ildə çap olunmuş əsəri XIX əsrdə Azərbaycan sənayesinin problemlərinə həsr edilmişdir. Müəllif digər sahələrə nisbətən neft sənayesi tarixinin geniş öyrənildiyini qeyd edərək, bu sahənin inkişafını ümumi şəkildə nəzərdən keçirməklə kifayətlənmişdir. Eyni zamanda, o, göstərmişdir ki, neft sənayesi tarixinin bir sıra məsələləri, o cümlədən "müxtəlif mənşəli kapitalın xüsusi çəkisi və nisbəti məsələsi" hələ tədqiqatçılar tərəfinədən araşdırılmamışdır.[15]

R.M.Sadıqzadənin əsərində XIX əsrin sonu-XX əsrin əvvəlində ingilis kapitalının Azərbaycan neft sənayesinə nüfuz etməsinin ilkin şərtləri, forma və metodları işıqlandırılır, ingilis kapitalının axını ilə əlaqədar çarizmin iqtisadi siyasəti nəzərdən keçirilir.[16]

1960-cı illərdə nəşr olunmuş əsərlərdən V.İ.Bovıkinin tədqiqat işini qeyd etmək lazımdır. Əsərin XIX əsrdə neft sənayesinin tarixinə həsr olunmuş bölməsində kapital qoyuluşunun iki əsas mənbəyi (sənaye və ticarət) qeyd edilməklə yanaşı göstərilir ki, "Rusiya neft sənayesinin təşəkkül tapdığı dövrdə kapital qoyuluşunun mənşəyi kifayət qədər öyrənilməmişdir".[17] V.İ.Bovıkin öz monoqrafiyasında qarşıya qoyduğu vəzifələrə uyğun olaraq bu məsələlərin üzərində dayanmır və neft sənayesində



inhisarlaşma prosesinin özünəməxsus cəhətlərini və formalarını araşdırır.

Mövzu ilə bağlı bir sıra məsələlər M.A.Musayevin də əsərində öz əksini tapmışdır.[18] Əsərdə XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlində Bakı şəhəri ticarətinin inkişafı neft sənayesinin yüksəlişi ilə sıx əlaqədə nəzərdən keçirilir. Müəllif neft məhsullarının Bakının ümumi ticarətində aparıcı yer tutduğunu, Nobel, Rotşild, Tağıyev, Mantaşev və başqa şirkətlərin bu sahədə hakim mövqe qazanmaq uğrunda gərgin mübarizə apardıqlarını göstərir.

İ.A.Dyakonovanın Nobel şirkətinin tarixinə həsr olunmuş əsəri problemin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Müəllif ilk dəfə olaraq yeni arxiv sənədlərini-Nobel qardaşlarının şəxsi məktublarını elmi dövriyyəyə daxil etmiş və iri neft sənayesi şirkətinin tarixini yarandığı vaxtdan fəaliyyətinin son dövrünədək izləmişdir. Əsərdə "Nobel qardaşları" cəmiyyəti kapitalının milli xarakteri məsələsinə xüsusi diqqət yetirilir. Müəllif qeyd edir ki, şirkət tə`sis edilərkən onun nizamnamə kapitalında xarici vəsait yalnız Alfred Nobelin 115 min rubl məbləğində olan payından ibarət idi.[19] Buna görə də onun fikrincə, Nobel şirkəti "banilərin İsveç mənşəyinə baxmayaraq, həqiqətən də rus neft korporasiyalarından biri hesab edilə bilər".[20] Şirkətin "kapitalını russuzlaşdırma" üzrə A.E.Nobelin planının uğur qazanmadığını qeyd etməklə, müəllif "Nobel qardaşları" cəmiyyətinin vəsaitini rus mənşəli kapital kimi qiymətləndirir.[21]

Lakin Lüdviq və Robert Nobel qardaşlarının kapitalını yalnız rus mənşəli hesab etmək olmaz. Çünki, bu vəsaitin Rusiyada toplanmasına baxmayaraq, onun əsasında xarici kapital dururdu. Bununla yanaşı, L.Nobel Rusiyada yaşasa da, ömrünün sonuna qədər (1888-ci il) İsveç təbəəliyindən çıxmamışdı, R.Nobel isə şirkətin yaradılmasından bir il sonra İsveçə qayıtdı. Beləliklə, Nobel qardaşlarının kapitalı özünün "Rusiya mənşəyinə" baxmayaraq, xarici ölkənin təbəələrinə məxsus idi və onun gətirdiyi gəlirin bir hissəsi müntəzəm olaraq Avropaya axırdı.

Məhz bu amilləri əsas tutaraq, Nobel qardaşları kapitalının heç olmasa qarışıq xarakteri haqqında fikir yürütmək olar. Eyni zamanda, şirkətin tə`sis edildiyi vaxt səhmdarlar sırasında rus təbəələri P.A.Bilderlinq (930 min rubl) və M.Y.Belyaminin (25 min rubl), bir qədər sonra isə isveçli Şeqren və digər xarici sahibkarların[22] olduğunu nəzərə alaraq "Nobel qardaşları" cəmiyyətini qarışıq kapitala malik şirkətlər sırasına aid etmək lazımdır.

Azərbaycan neft sənayesi tarixinin öyrənilməsində S.S.Əliyarovun neft inhisarlarının tarixinə həsr olunmuş əsəri və M.C.İbrahimovun Rusiya çarizminin və iri kompaniyaların "iqtisadi siyasətinin Azərbaycan neft sənayesinin inkişafına" tə`sirini işıqlandıran monoqrafiyası böyük maraq doğurur.[23] Bu əsərlərin xronoloji çərçivəsi sonrakı tarixi dövrü - XX əsrin başlanğıcını əhatə etsə də, bütövlükdə problemin bir sıra nəzəri məsələlərinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edirlər.

M.İsmayılov ilə M.İbrahimovun 1991-ci ildə çap etdirdikləri monoqrafiyada Azərbaycan neft sənayesinin XIX əsrdən 1917-ci ilə qədər keçdiyi tarixi yol tədqiq edilir.[24] Müəlliflər iltizam sisteminin mahiyyətinə, onun ləğv edilməsindən sonra neft sənayesində baş verən köklü dəyişikliklərə, kapital probleminə, inhisarların yaranması və s. məsələlərə xüsusi diqqət yetirirlər.

Həmin müəlliflərin 1994-cü ildə birgə nəşr etdirdikləri digər əsərdə isə görkəmli Azərbaycan sahibkarı H.Z.Tağıyevin həyatı və çoxşaxəli fəaliyyəti işıqlandırılmışdır.[25] Əsərdə müxtəlif mənbələr əsasında H.Z.Tağıyevin neft sənayesində məqsədyönlü fəaliyyəti təhlil edilir, iqtisadiyyatın digər sahələrində, maarif və mədəniyyətin inkişafında silinməz xidmətləri nəzərdən keçirilir.

Rusiya imperiyası iqtisadiyyatının, o cümlədən Azərbaycan neft sənayesi tarixinin öyrənilməsi qərb tədqiqatçılarının da diqqət mərkəzində durur. Bu sahədə amerikalı tədqiqatçılar C.Makkey və R.Tolfun əsərlərini xüsusi qeyd etmək lazımdır.

C.Makkeyin "Mənfəət pionerləri. Xarici sahibkarlıq və rus sənayeləşməsi. 1885-1913" adlı əsərində qərb sahibkarlarının Rusiya sənayesində iştirak formaları, xarici kapitalın Rusiyanın iqtisadi inkişafına tə`siri, çar hökumətinin iqtisadi siyasəti, qərb ölkələri ilə Rusiya arasında qarşılıqlı əlaqələrin xarakteri və s. məsələlər araşdırılır.



Avropa kapitalının Rusiya iqtisadiyyatına böyük tə`sir göstərdiyini qeyd edən müəllif xarici kapital üzərində nəzarətin tə`min edilməsində və onun fəaliyyəti üçün zəruri şəraitin yaradılmasında ölkənin siyasi müstəqilliyinin həlledici amil olduğunu vurğulayır.[26] Eyni zamanda, o, Rusiyanın bir sıra mühüm sənaye sahələrində qabaqcıl texnologiyanın tətbiq edilməsini yalnız qərb kapitalının fəaliyyətinin nəticəsi kimi qiymətləndirir. Beləliklə, C.Makkey Rusiya iqtisadiyyatının inkişafında xarici kapitalın həlledici rol oynaması haqqında tezisi əsaslandıraraq qeyd edir ki, "XIX əsrin sonunda inadkar xarici sahibkarlar iqtisadiyyatın sür"ətli inkişafına dair rus dövlətinin ümidlərini həyata keçirdilər".[27]

1984-cü ildə C.Makkeyin Cənubi Qafqaz neft kəmərinin çəkilişi məsələlərinə həsr olunmuş məqaləsi nəşr edilmişdir. Məqalədə dövlətin neft sənayesinə müdaxiləsi problemi öyrənilir. Müəllif qeyd edir ki, neft sənayesində "dövlət müdaxiləsinin aydın təzahürləri" özünü yalnız 1883-cü ildən sonra, Cənubi Qafqaz dəmir yolunun işə salınması ilə əlaqədar xarici daşımaların əhəmiyyətinin artması nəticəsində göstərir. Lakin dövlətin bu sahədə fəaliyyəti ardıcıl olmayıb, ehtiyatlı addımların atılması ilə səciyyələnirdi. Bunun səbəbi, müəllifin fikrincə, maliyyə çətinlikləri, bürokratik qrupların mübarizəsi və hökumət dairələrinə müəyyən təzyiqlər göstərən neft sənayeçiləri arasındakı çəkişmələrlə bağlı idi.

C.Makkey tədqiqatına yekun vuraraq göstərir ki, bütün bu çətinliklərə baxmayaraq, neft məhsullarının xaricə daşınması üzərində dövlət inhisarı bərqərar olmuşdu.[28]

Digər amerikalı tarixçi R.Tolf "Rusiya Rokfellerləri. Nobel ailəsi və Rusiya neft sənayesi haqqında saqa" adlı əsərində ABŞ, Fransa, İsveç, SSRİ və başqa Avropa ölkələrinin zəngin arxiv materialları əsasında "Nobel qardaşları" şirkətinin yaranması və inkişafı tarixini dolğun

şəkildə işıqlandırmışdır. Müəllif Nobel şirkətinin yüksəlişini, Rotşild və amerikalılarla mübarizəsini təsvir edərək yazır ki, "...Bakının iki yüz neft baronlarından yalnız on nəfəri həqiqi idi: Nobel, bir nəfər erməni və səkkiz nəfər azərbaycanlı. Amma Nobel həm də kral, hakim qüvvə idi..."[29] R.Tolf öz əsərində H.Z.Tağıyev, A.Mantaşev və başqa iri neft sənayeçilərindən də bəhs edir. O, eyni zamanda, H.Z.Tağıyevin maarif və mədəniyyət sahəsindəki xeyriyyəçilik fəaliyyətini yüksək qiymətləndirir.

Bununla yanaşı, müəllifin bə`zi müddəaları obyektiv reallığı əks etdirmir. Belə ki, L.Nobelin 1876-cı ildə Bakıya gəlişi müəllif tərəfindən "inqilabın, Rusiya neft sənayesinin həqiqi inkişafının başlanğıcı" kimi qiymətləndirilir.[30] Eyni zamanda, Nobelin fəaliyyətinin çiçəklənmə dövrü kitabda 1876-cı ilə aid edilir. Lakin mə`lumdur ki, "Nobel qardaşları" şirkəti 1879-cu ildə tə`sis edilmiş və yalnız 1880-ci illərin əvvəlində öz fəaliyyətini genişləndirmişdir.

Beləliklə, neft sənayesi tarixinin elmi ədəbiyyatda geniş surətdə öyrənilməsinə baxmayaraq, Azərbaycan neft sənayesinin inkişafında Rusiya kapitalının, o cümlədən Azərbaycan milli kapitalının rolu və Qərb kapitalı ilə qarşılıqlı əlaqəsi məsələsi xüsusi tədqiqat obyekti olmamışdır. XIX əsrin 70-ci-80-ci illərin əvvəli - Azərbaycanda iri kapitalist neft sənayesinin meydana gəldiyi ilk on illik dövr, demək olar ki, tədqiqatçıların diqqətindən kənarda qalmışdır. Azərbaycan neft sənayesinin təşəkkül tapdığı dövrdə kapital qoyuluşunun mənbələri, onun müxtəlif sahələrdə (neft hasilatı, e`malı, ticarət) yerləşməsi və təşkilatlanma formaları, müxtəlif milli mənşəli kapitalın xüsusi çəkisi və qarşılıqlı fəaliyyəti, Qərb kapitalının cəlb edilməsi sahəsində Rusiya hökumətinin siyasəti, çarizmin Azərbaycanın milli kapitalına münasibəti və s. məsələlər tarixi ədəbiyyatda öyrənilməmişdir.

Qeyd etmək lazımdır ki, kitabda "Rusiya kapitalı" termini ilə milli mənsubiyyətindən asılı olmayaraq, öz



mənşəyi e`tibarilə Rusiya imperiyası məkanında formalaşmış və dövlətin bütün təbəələrinə, o cümlədən azərbaycanlı sahibkarlara məxsus kapital nəzərdə tutulur.

Problemin tədqiqi geniş mənbəşünaslıq bazasına söykənir. Mənbələrin xeyli hissəsi müxtəlif illərdə nəşr edilmişdir. Arxiv sənədlərinin müəyyən hissəsi 1959-cu ildə işıq üzü görmüş məcmuəyə daxil olmuşdur.[31] Bu kitabda Rusiya Federasiyası Sankt-Peterburq Mərkəzi Dövlət Tarix Arxivində saxlanılan və XIX əsrin 90-cı illərində iri neft şirkətlərinin neft sənayesini inhisara almaq uğrunda apardıqları gərgin mübarizəni əks etdirən bir sıra mühüm sənədlər toplanmışdır.

1961-ci ildə özünün zəngin məzmununa görə fərqlənən yeni arxiv sənədləri toplusu çapdan çıxmışdır.[32] Əsasən Leninqrad (Sankt-Peterburq) və Bakı şəhərlərinin mərkəzi arxivlərindən toplanan sənədlər inhisar birliklərinin yaranması prosesini, neft sənayesinin ümumi vəziyyətini, çarizmin iqtisadi siyasətini, xarici kapitalın axınını və s. məsələləri işıqlandırır. Səhmdar cəmiyyətlərindən fərqli olaraq XIX əsrin son rübündə Azərbaycan neft sənayesi üçün səciyyəvi olan fərdi müəssisələrin və ticarət evlərinin arxiv fondları, demək olar ki, qalmamışdır. Buna görə də həmin müəssisələrin fəaliyyəti haqqında müəyyən mə`lumat əldə etməyə imkan verən sənədlərin də toplandığı bu toplu mühüm əhəmiyyətə malikdir.

Bununla yanaşı, nəşr olunmuş mənbələr sırasında 1875-ci ildən başlayaraq neft şirkətlərinin istehsal fəaliyyətini əks etdirən statistik məcmuələri də qeyd etmək lazımdır.[33] Bu mə`lumatlar neft hasilatı və e`malının inkişaf dinamikasını həm ölkə, həm də ayrı-ayrı şirkətlər üzrə izləməyə imkan verir.

Eyni zamanda, elmi dövriyyəyə daxil edilmiş yeni arxiv sənədləri nəşr olunmuş mənbələrin mə`lumatını xeyli dərəcədə tamamlamağa və problemin bir sıra məsələlərini daha dolğun işıqlandırmağa imkan verir. Bu baxımdan Sankt-Peterburqdakı Rusiya Federasiyası Mərkəzi Dövlət Tarix Arxivi (RF MDTA) və Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivinin (AR MDTA)

lələrini daha dolğun işıqlandırmağa imkan verir. Bu baxımdan Sankt-Peterburqdakı Rusiya Federasiyası Mərkəzi Dövlət Tarix Arxivi (RF MDTA) və Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivinin (AR MDTA) fondlarında saxlanılan sənədlər mühüm əhəmiyyət kəsb edir.

RF MDTA-da toplanmış bir sıra dövlət idarələrinin, o cümlədən Ticarət və Sənaye Nazirliyi (f.23), Mə`dən Departamenti (f.37), Dövlət Bankı (f.587) və s. fondlarında neft şirkətlərinin fəaliyyətini, hökumətin bu sahədəki siyasətini, kapital qoyuluşunun mənbələrini və başqa məsələləri ətraflı öyrənməyə kömək edən müxtəlif xarakterli sənədlər saxlanılır.

AR MDTA-nın fondlarının (Qafqaz Mə`dən idarəsi - f.92, Dövlət Bankının Bakı şö"bəsi - f.229, "Nobel qardaşları" cəmiyyətinin Bakı şö"bəsi - f.798 və s.) materialları neftli torpaq sahələrinin satılması, səhmdar cəmiyyətlərin və ticarət evlərinin meydana gəlməsi və fəaliyyəti, neft sənayesinin ümumi vəziyyəti və s. məsələlər haqqında geniş mə`lumat verir.

Bakı arxivində aşkar edilmiş H.Z.Tağıyevin və M.Nağıyevin xidmət siyahıları, "Yeddi şirkət ittifaqı"nın yaradılması haqqında müqavilənin surəti bə`zi məsələləri daha dərindən təhlil etməyə imkan yaradır.

Qeyd olunan mənbələrlə yanaşı XIX əsrin sonu - XX əsrin əvvəlində nəşr edilən dövri mətbuat - "Kaspi", "Baku", "Neftyanoe delo", "Əkinçi" qəzetləri, "Qornıy jurnal", "Vestnik finansov, promışlennosti i torqovli" jurnallarının materialları da problemin işıqlandırılmasında mühüm əhəmiyyət kəsb edir.

Əsərin xronoloji çərçivəsi XIX yuzilin son rübünü, yə`ni Azərbaycan neft sənayesinin iri kapitalist inkişaf yoluna (fabrik-zavod mərhələsinə) qədəm qoyduğu vaxtdan (1872-ci il) Rusiya imperiyasının iqtisadiyyatında dərin keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan ümumi iqtisadi böhranın başlandığı 1900-cü ilə qədər olan dövrü əhatə edir.



# I FƏSİL

## ÇAĞDAŞ NEFT SƏNAYESİNİN TƏŞƏKKÜLÜ
### (XIX əsrin 70-80-ci illərin ortaları)



### §1. Neft sənayesinə kapital qoyuluşunun mənbələri

XIX əsrin 60-cı illərində təhkimçilik hüququnun ləğvi və digər burjua islahatlarının həyata keçirilməsi Rusiya tarixində yüksək sosial-iqtisadi inkişaf sür'əti ilə səciyyələnən yeni dövrün başlanğıcını qoydu. Ölkənin iqtisadi həyatında köklü dəyişikliklər baş verdi, kapitalist münasibətləri hakim mövqe tutdu. İslahatdan sonrakı dövrdə Rusiyada maşınqayırma, kömür, neftçıxarma və s. yeni sənaye sahələri meydana gəldi. Dəmir yolu və çay nəqliyyatının inkişafı sənayenin yüksəlişinə müsbət tə'sir

məsinə, daxili və xarici ticarətin inkişafına əlverişli şərait yaradırdı.

Sənayenin və nəqliyyatın kömürə, neft və neft məhsullarına, metala olan tələbatı, öz növbəsində, yeni sənaye rayonlarının, o cümlədən Bakı neft rayonunun ümumrusiya və dünya bazarına cəlb olunmasını şərtləndirirdi.

1860-cı ildə əsasən sənaye və ticarət müəssisələrinin kreditlə tə'min olunması sahəsində üstün hüquqlar almış Dövlət Bankının tə'sis edilməsi və yeni maliyyə sisteminin yaradılması ölkənin sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edirdi. Sağlam rəqabətə maneçilik törədən iltizam sistemi tədricən ləğv edilirdi. 1863-cü il yanvarın 1-dən e'tibarən şərab iltizamını ləğv edərək, aksiz sisteminin tətbiqini nəzərdə tutan 1860-cı il qanunu bu istiqamətdə atılmış ilk addım oldu.

Həyata keçirilən bu tədbirlər tezliklə Azərbaycan neft sənayesini də əhatə etdi. 1864-cü ildə neft mə'dənlərində quyulara təhkim edilmiş Balaxanı kəndlilərinin icbari əməyinin ləğv edilməsi bu sahədə iltizam sisteminin aradan qaldırılması və kapitalist sənayesinin inkişafı üçün yol açırdı. Lakin hələlik mövcud olan iltizam sistemi neft sənayesinin inkişafını ləngidir və Rusiya imperiyasının özünün neft məhsullarına olan tələbatının ödənilməsinə mane olurdu.

Azərbaycanda neftin qədim zamanlardan çıxarılmasına baxmayaraq, neft sənayesinin tərəqqisi üçün geniş perspektivlər açan iri kapitalist (fabrik-zavod) inkişaf yolunun başlanğıcı 1872-ci ildə iltizam sisteminin ləğv edilməsi ilə bağlıdır. Azərbaycanın neft yataqları Rusiya işğalının ilk illərindən başlayaraq, daha doğrusu hələ işğal başa çatmamış (1807-ci ildən!) çar hökuməti tərəfindən müxtəlif şəxslərə 4 il müddətinə müqavilə (iltizam) əsasında icarəyə verilirdi.[2] Neft çıxarılması və satışına inhisarçı hüquqları qazanan iltizamçılar çar xəzinəsinə illik iltizam haqqı ödəməli idilər. Çarizmin həyata keçirdiyi milli-müstəmləkəçilik siyasəti burada da özünü göstərirdi. Qafqaz siyasətində həmişə ermənilərə arxalanan Rusiya,



Azərbaycan iqtisadiyyatının gəlirli sahələrindən olan neft quyularını da, bir qayda olaraq, onlara (Tarumov, Ter-Qukasov, Mirzoyev və b.) icarəyə verirdi. Təsadüfi deyil ki, iltizam sisteminin mövcud olduğu son on ildə (1863-1872) Bakı neft quyularının iltizamçısı ancaq Mirzoyev olmuşdur.[3]

İltizamın qısa müddəti (4 il) neft mə'dənlərinin kəskin ehtiyac duyduğu əlavə kapital qoyuluşuna və texniki yeniliklərin tətbiqinə stimul yaratmırdı. İltizam sisteminin mövcud olduğu son illərdə neftçıxarma sənayesinin vəziyyətini aşağıdakı cədvəl əks etdirir:[4]




Cədvəldən göründüyü kimi, hasilatın səviyyəsi 1870-ci ildə ən yüksək nöqtəyə çataraq, sonrakı iki ildə aşağı düşmüşdür. Neft e'malı sənayesində də eynilə aşağı səviyyə müşahidə edilirdi. 50-ci illərin sonu - 60-cı illərin əvvəlindən e'tibarən bir-birinin ardınca V.Kokorevin, C.Məlikovun və başqalarının zavodları fəaliyyətə başlamışdır. Lakin iltizamçılardan asılılıq onlara öz fəaliyyətlərini geniş şəkildə təşkil etməyə imkan vermirdi və 1872-ci ildə Bakı zavodlarında cəmi 500 min pud ağ neft istehsal olunmuşdu.[5]

Azərbaycanda ağ neft istehsalının ilk pionerlərindən biri Cavad Məlikov idi. O, heç bir təhsil almasa da neft işini yaxşı bilirdi. Şəxsi mənafeyi haqqında düşünmədən özünün ideyalarını həyata keçirməyə sə'y göstərməsi onu fərqləndirən əsas xüsusiyyətlərdən biri idi. Mineral sürtkü yağının ixtiraçısı V.İ.Raqozin öz əsərində C.Məlikov haqqında yazmışdır: "Biz texniki istehsalın inkişafında tez-tez belə qəribə insanlarla üzləşirik ki, onlar istehsala təkan verir, onu irəli aparır, amma özləri yoxsulluqda və namə'lumluqda qalır, həmin insanlara gülən və inanmayan kütlə isə onların zəhməti ilə yaradılmış var-dövlətə sahib olur. C.Məlikovun da taleyi belə oldu".[6] O, İ.M.Mirzoyevin sifarişi ilə ağ neft zavodu tikdi, lakin sonra yenə də işsiz qalaraq, "yoxsulluqda və namə'lumluqda" vəfat etdi.

Neft sənayesinin problemləri ilə yaxından məşğul olan D.İ.Mendeleyev onun geriyə qalma səbəblərini göstərərək 1867-ci ildə yazırdı ki, neft yataqlarının istismarı forması bu sahənin inkişafına mane olur. Çünki, iltizamçılar onlara verilmiş qısa müddət ərzində axtarış və kəşfiyyat işlərinin aparılmasına və işlərin geniş şəkildə təşkilinə kapital sərf etməyə ehtiyat edirlər. Onun fikrincə, bu onunla bağlı idi ki, bütün xərcləri ödəyə biləcək məhsuldar quyunun qazılması "iltizamın başa çatdığı vaxta təsadüf edə bilər... Buna görə də neft üzərində iltizamı ləğv edərək, bütün neftli sahələri şəxsi əllərə verməк, yə'ni satmaq, özü də inhisara yol verməmək və rəqabət yaratmaq məqsədilə xırda hissələrlə satmaq lazımdır... Qafqazda neft işinin nəinki Pensilvaniyadakı, ola bilər ki, hətta geniş miqyasda inkişaf edə bilməsini təsdiq etmək üçün çox əsas var".[7]

Göstərilən sə'ylər nəticəsində hökumət öz diqqətini neft sənayesinin vəziyyətinə yönəltdi. 1867-ci ildə neft mə'dənlərinin vəziyyətini öyrənmək üçün Tiflisdə yaradılmış komissiya belə qərara gəldi ki, "iltizam sistemi neft sənayesini iltizamçının şəxsi gəlirlərini tə'min etmək üçün ona verilmiş imtiyazlar nəticəsində başqa heç kimin təşəbbüskarlığının, sərbəst rəqabətin nüfuz edə bilmədiyi qapalı dairəyə salır".[8]



Nəhayət, rus hökuməti iltizam sistemini ləğv etməyi qərara aldı.

1 fevral 1872-ci il Əsasnaməsi köhnə sistemi ləğv edərək, neft sənayesinə kapital axınına və onun sür'ətli inkişafına imkan yaradırdı. Qanuna görə, "ayrı-ayrı şəxslərin və cəmiyyətlərin tam mülkiyyətini təşkil edən, eləcə də onların istifadəsində və ya posession zavodlara bitişik olan torpaqlarda neft axtarışı və hasilatı hüququ sahiblərə verilir; digər şəxslərə isə yalnız sahiblərlə könüllü müqavilə əsasında...

Azad dövlət torpaqlarında isə neft axtarışı və hasilatına vətəndaşlıq hüquqlarından istifadə edən bütün şəxslərə, həm rus təbəələrinə, həm də xaricilərə icazə verilir".[9]

Əsasnaməni tamamlayan 17 fevral 1872-ci il qanununa görə isə bütün "aşkar neftli" dövlət torpaqları yalnız hərrac vasitəsilə icarəyə verilməli idi.[10]

Bu qanunların həyata keçirilməsi ilə neft mə'dənlərində qısa müddət ərzində dərin dəyişikliklər baş verdi, manufakturadan maşın sənayesinə keçid başa çatdı.[11]

1872-ci ilin dekabr ayında keçirilən neftli sahələrin ilk hərracı güclü rəqabət olduğunu göstərdi. Qiymətlərin kəskin şəkildə qalxması nəticəsində çar xəzinəsi hərracdan əvvəlcədən müəyyən edilmiş 552.221 rubl əvəzinə 2.980.307 rubl əldə etdi.[12]

İlk hərracda Azərbaycan da daxil olmaqla Rusiya imperiyasının Cənubi Qafqaz, həmçinin bir sıra mərkəzi quberniyalarının nümayəndələri iştirak etdilər. Eyni hüquqlar almalarına baxmayaraq, xarici kapitalistlər perspektivi haqqında o zaman hələ heç bir tə'minat olmayan Azərbaycanın neft sənayesinə kapital qoymağa cəsarət etmirdilər. Təsadüfi deyil ki, 1878-ci ildə Bakıya gəlmiş "moskvalı milyonçu S.M.Şibayev yalnız kiçik ölçülü sulfat turşusu zavodu tikməyə risk etdi".[13]

Vəziyyətin belə şəkil almasına həm də akademik Abixin 60-cı illərdə apardığı tədqiqatların nəticəsi tə'sir göstərmişdi. Abixin tədqiqatlarına görə, neft məhdud ərazidə, yalnız Balaxanı kəndi ətrafında mövcud idi və

Abşeron şəraitində buruq üsulu ilə qazma məqsədəuyğun deyildi.

Hərrac üçün hər birinin ölçüsü 10 des. olan 48 qrup müəyyən edilmişdi. Bir sıra şəxslər 5 və 16 №-li qruplara iddia irəli sürdüklərinə görə, onlar hərracdan çıxarılmışdı. 42-48 №-li qruplar isə Tiflis quberniyasında yerləşirdi.[14] Bakı quberniyasında hərracın nəticələrini 1№-li cədvəl əks etdirir. (Əlavə)

Azərbaycanda milli burjuaziyanın formalaşmasına yol vermək istəməyən və Bakının neft yataqlarını tamamilə öz inhisarına keçirməyə çalışan rus kapitalı yerli-azərbaycanlı sahibkarları müxtəlif yollarla sıxışdırır, neft sənayesinə yaxın buraxmamağa çalışırdı. Rus kapitalı bu məsələdə erməni sahibkarları ilə əlbir hərəkət edirdi. Məhz bunun nəticəsidir ki, 1872-ci ildə hərrac yolu ilə icarəyə verilən ilk neftli torpaqlar əsasən rus və erməni kapitalistlərinin əlində cəmlənmişdi. Neft e'malı zavodunun sahibləri V.A.Kokorev, P.İ.Qubonin və keçmiş iltizamçı İ.M.Mirzoyev daha çox torpaq sahəsi ələ keçirmişdilər. İlk hərracın yekunlarına görə azərbaycanlı sahibkarlardan yalnız iki nəfər - H.Z.Tağıyev və A.Səlimxanov icarədarlar sırasına daxil olmuşdular. Onlar ayrılıqda hərəsi ancaq bir neftli torpaq sahəsi icarəyə götürə bilmişdilər. Bununla yanaşı, H.Z.Tağıyevin də tə'sisçilərindən biri olduğu "Şəriklər" cəmiyyəti daha iki torpaq sahəsi əldə etmişdi.[15]

Neftli torpaqların hərrac yolu ilə icarəyə verilməsi dövlətə 3 mln. rubla yaxın qazanc gətirdi. İllik büdcəsi 700 mln. rubl olan Rusiya dövləti üçün bu gəlir ciddi maliyyə mənbəyi sayıla bilməzdi. Ancaq yenicə inkişaf yoluna qədəm qoyan neft sənayesində kapitala böyük ehtiyac olduğu üçün onun hərrac vasitəsilə xəzinəyə cəlb edilməsi ilk addımlarını atan neft sənayesinin möhkəm bünövrə üzərində qurulmasına ağır zərbə vurdu. Təsadüfi deyil ki, 1875-ci ildə Bakıda baş vermiş neft böhranının əsas səbəblərindən birini mütəxəssislər məhz neftli torpaq sahələrinin hərracla icarəyə verilməsi nəticəsində təşəkkül tapmaqda olan kapitalist neft sənayesinin zəruri sərmayədən məhrum edilməsində görürdülər.[16] Məhz kifayət qədər sərbəst kapitalın olmaması neft sənayeçilərinin, xüsusilə azərbaycanlı sahibkarların yaratdığı şirkətlərin işinin səmərəli şəkildə təşkil edilməsinə mane olurdu. İlk hərracda daha çox neftli torpaq sahələrini icarəyə götürmüş İ.M.Mirzoyev, V.A.Kokorev və P.İ.Qubonin təxminən 2,6 mln. rubl sərf etmişdilər ki, bu da xəzinənin hərracda əldə etdiyi qazancın 85,4 faizi demək idi.[17] Belə ki, xəzinəyə daxil olmuş 2.980 min rubldan 1.222 min rubl İ.M.Mirzoyevin, 1.323 min rubl V.A.Kokorev və P.A.Quboninin payına düşürdü.

Beləliklə, əsas maliyyə vəsaitlərini hərracda torpaq sahələrinin icarəyə götürülməsinə yönəltmiş Rusiya burjuaziyası (o cümlədən azərbaycanlı sahibkarlar) öz şirkətlərinin fəaliyyətini sistemli şəkildə təşkil etmək üçün əlavə kapital qoyuluşu imkanlarına malik olmadıqlarına görə sonrakı dövrdə Azərbaycan neft sənayesində aparıcı mövqe tuta bilmədilər. Amma hərracda iştirak etməmiş bir sıra sahibkarlar, o cümlədən Nobel qardaşları bir neçə ildən sonra illik icarə haqqı ödəməklə çox ucuz qiymətə (1 desyatin torpaq üçün 10 rubl) neftli torpaq sahələri ələ keçirib, bütün sə'ylərini texnika, anbar və nəqletmə vasitələrinin əldə edilməsinə, işin əsaslı surətdə təkmilləşdirilməsinə yönəltdilər.[18]

1 fevral 1872-ci il Əsasnaməsinə görə kəndlilər öz icma torpaqlarında neft çıxarmaq və ya onları həmin məqsədlə başqa şəxslərə icarəyə vermək hüququ alırdılar. M.Y.Qefterin fikrincə, bu qanun Abşeronda həyata keçirilmədiyi üçün kəndlilər öz hüquqlarından istifadə edə bilmədilər.[19] V.A.Nardovanın tədqiqatı göstərdi ki, bu fikir həqiqətə tam uyğun deyil. Belə ki, arxiv sənədlərinin öyrənilməsi 1870-ci illərdə - 1880-ci illərin əvvəllərində kəndlilərin və neft sənayeçilərinin neftli sahələrin icarəyə verilməsi hüququndan istifadə etdiklərini təsdiq edir.[20] Bununla yanaşı, dövri mətbuatın materialları kəndlilərin nəinki öz torpaqlarını icarəyə vermələri, həm də bilavasitə öz pay torpaqlarında neft çıxarılması ilə məşğul olmaları

haqqında fikir söyləməyə imkan verir. "Kaspi" qəzetinin mə'lumatına görə, Bakı qubernatoru general-leytenant D.S.Staroselski 1872-ci il Əsasnaməsinin dərc edilməsindən bir qədər sonra Abşeronun bütün kəndlərinə bu qanunun kəndlilərə verdiyi hüquqları izah edən xüsusi məktublar göndərmişdi. Lakin məktubda şərh edilən müddəalar kəndlilər tərəfindən geniş şəkildə tətbiq olunmadı. Çünki, qazma işi ilə tanış olmayan kəndlilər, həm də öz torpaq sahələrinin neftlə zənginliyi haqqında mə'lumata və neft hasilatı üçün zəruri kapitala malik deyildilər. Buna görə də onlar əsasən əl üsulu ilə qazılan quyularla kifayətlənməli oldular.

Kəndlilərin bu qanundan məhdud və ləng surətdə istifadə etmələri həm də akademik Abixin neftin yalnız Balaxanı kəndində, köhnə xan quyuları ətrafında toplanması haqqında fikirlərinin tə'siri ilə formalaşmış baxışlarla bağlı idi. Buna görə də yalnız Balaxanı kəndliləri onlara verilmiş hüquqlardan istifadə edərək, əl üsulu ilə quyular qazmağa başladılar. Qazılmış 26 quyudan hər gün 622 pud neft çıxarılırdı və o vaxt mövcud olan yüksək qiymətlərə görə bu, yaxşı gəlir gətirirdi.[21] Lakin Qafqaz canişininə gələn şikayətlərdə göstərilirdi ki, kəndlilər quyuları öz icma torpaqlarında deyil, neft çıxarılmasına dövlətdən başqa heç kimin hüququ olmadığı "qoruq sahəsi" adlanan yerdə qazırlar. Bakı qubernatoru canişinin sorğusuna göndərdiyi cavabda öz səhvini e'tiraf etməklə yanaşı, "hakimiyyətin nüfuzunu qorumaq məqsədilə" kəndlilərə qazılmış quyulardan 1874-cü il yanvarın 1-dək neft çıxarmağa icazə verilməsini xahiş etdi. Canişin qubernatorun xahişinə razılıq verdi.[22]

Beləliklə, kəndlilərin neft hasilatı ilə məşğul olmaq imkanları xeyli məhdudlaşdı. Digər tərəfdən, kəndlilər üçün əlçatmaz olan bahalı və təkmil texnikanı mənimsəməklə sür'ətlə inkişaf edən neft sənayesi ilə yanaşı, əl üsuluna əsaslanan quyular tədricən rəqabətə davam gətirməyərək öz əhəmiyyətini itirirdi. Bununla da kəndli sahibkarlığı inkişaf imkanlarından tamamilə məhrum olaraq, öz beşiyində məhv oldu.



Vaxt keçdikcə "qoruq sahəsi"ndən kənardakı torpaqlarda da neft çıxarmağın mümkün olduğu aydınlaşırdı. Dövlət mə'muru P.Zaporojçenko qubernator D.Staroselskinin məktubundan istifadə edərək, 1876-cı ildə Şıx kəndi icması ilə müqavilə əsasında 10 des. torpaq icarəyə götürdü. Bunun ardınca ştabs-kapitan K.Zubalov, Bakı şəhər başçısı, kollej müşaviri S.Cakeli və başqaları da torpaq sahələri icarə etdilər.[23] Müqavilənin şərtinə görə, 24 il müddətinə icarəyə götürülmüş torpaqların illik icarə haqqı hər desyatin üçün 10 rubl idi.

Bütün torpaqların sərhədlərinin qeydiyyatı sona çatdıqdan, kəndli pay torpaqlarının planı tərtib edildikdən və neftli sahələr müəyyənləşdikdən sonra kəndlilərin neft çıxarmaq hüququ 1880-ci il 3 dekabr tarixli sərəncamla təsdiq olundu.[24] Qafqaz canişini kəndlilərin neft hasilatı ilə məşğul olmasına şərait yaratmaq məqsədilə neftli torpaqların müəyyən hissəsini kəndli pay sahələrinin tərkibində saxladı.

Bununla da kənd icmalarında torpaqların neft hasilatı üçün icarəyə verilməsinin yeni mərhələsi başlandı. O zamankı Bakı qubernatoru V.M.Pozen bu işin həyata keçirilməsinə böyük sə'y göstərirdi. Yalnız Balaxanı kəndində torpaqların icarəyə verilməsinə dair 16 müqavilə imzalanmışdı. Lakin əvvəlki dövrdən fərqli olaraq, indi torpaqlar fərdi şəxslərlə torpaq sahəsinin sahibi olan kəndlinin şərikliyi prinsipi əsasında icarəyə verilirdi.[25] İşlərini sərbəst şəkildə təşkil etmək üçün zəruri kapitala malik olmayan kəndlilər öz torpaqlarını kənd icmasına icarə haqqı ödəməyə və torpaqdan onun sahibi ilə birlikdə payçı hüququ əsasında istifadə etməyə razı olan şəxslərə təklif edirdilər. Beləliklə, müqavilə kənd icması ilə icarəçi və kəndli arasında imzalanırdı. Bu isə kəndlilərin mənafeyini əks etdirir və onlara əldə olan gəlirdən pay almaq hüququ verirdi.

Lakin neftli torpaqların qiymətinin tezliklə aşağı düşməsi bir sıra neftli sahələrin nüfuzlu sahiblərinin narazılığına səbəb oldu. Digər tərəfdən, dövlət gəlirlərinin mənbəyini təşkil edən neftli torpaq ehtiyatının azalması höku-

məti neftli sahələrin satılmasını məhdudlaşdıran bə'zi tədbirlər həyata keçirməyə sövq etdi. 1884-cü ildə Abşeronda xəzinə torpaqlarının fərdi şəxslərə verilməsi dayandırıldı. 1890-cı ilin fevral ayında isə Abşeronun dövlət kəndlilərinin öz torpaqlarından köçürülməsi haqqında qanun qəbul edildi. Bu qanun 1892-ci ildə qəbul olunmuş " Neft mə'dəni haqqında yeni qaydalara" daxil edildi. Həmin qaydalar isə öz növbəsində, dövlət kəndlilərinə xəzinə-icmə torpaqlarında neft çıxarılmasını ümumiyyətlə qadağan etdi.[26] Beləliklə, kəndlilərin neft sənayesində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanları, demək olar ki, tamamilə aradan qaldırıldı.

Nəhayət, neftli torpaq sahələrinə malik olan şəxslərin daha bir qrupu xüsusi xidmətlərinə görə əlahəzrət bəxşişi formasında pay almış yüksək səviyyəli dövlət və hərbi mə'murlardan ibarət idi. Bu qrupu əsasən ali çar əsilzadələri və hərbçilər - keçmiş Qafqaz canişini knyaz A.İ.Baryatinski, Bakı qubernatorları D.S.Staroselski və V.M.Pozen, general-adyutant D.A.Çavçavadze və b. təşkil edirdilər.[27] Həmin şəxslərdən yalnız bə'ziləri və ancaq ilk dövrlərdə öz işlərini təşkil edərək neft hasilatı ilə məşğul oldular. Ümumiyyətlə isə bu qəbildən olan bütün torpaqlar başqa neft sənayeçilərinə icarəyə verilirdi. Belə ki, D.S.Staroselskinin sahələri bir neçə ildən sonra "Xəzər cəmiyyəti"nə, D.A.Çavçavadze, Voronsov-Daşkov və general Qaqarinin torpaqları "Nobel qardaşları" şirkətinə, general-adyutant L.İ.Məlikovun torpaq sahələri isə "Qafqaz cəmiyyəti"nə icarəyə verilmişdi.[28]

Beləliklə, XIX əsrin II yarısında Rusiya imperiyasında kapitalizmin inkişafı prosesi Azərbaycan neft sənayesinin vəziyyətinə bilavasitə tə'sir göstərdi. İltizam sisteminin ləğv edilməsindən sonra neft sənayesinə kapital axını gücləndi və Azərbaycanın neft yataqlarının istismarı intensiv xarakter aldı. Kapital qoyuluşunun mənbələri müxtəlif sahələri əhatə edirdi. Neft sənayesində fəaliyyətə başlamış sahibkarlar sırasında tacir, sənayeçi, dövlət aparatının mə'murları, kəndlilər və başqa təbəqələrin



nümayəndələri təmsil olunmuşdular. Lakin mənbələrin öyrənilməsi göstərir ki, Azərbaycan neft sənayesinin təşəkkül tapdığı dövrdə kapital qoyuluşunun üç əsas mənbəyi var idi: ticarət və sənaye kapitalı, eləcə də hərbçi və dövlət aparatı mə'murlarının vəsaiti. İlk illərdə kəndlilərin fəaliyyəti müəyyən qədər canlansa da, müxtəlif səbəblərə, əsasən zəruri kapitalın olmamasına görə tənəzzülə uğrayaraq, neft sənayesinin inkişafına nəzərəçarpacaq tə'sir göstərə bilmədi.

Ticarət kapitalının neft sənayesində nümayəndələri H.Z.Tağıyev, A.İ.Mantaşev, M.Nağıyev, Məlikov qardaşları, A.E.Xudaverdiyev və b. xırda sahibkarlardan ibarət idi.[29] Sənaye kapitalını isə S.M.Şibayev, V.A.Kokorev, P.İ.Qubonin və İ.M.Mirzoyev təmsil edirdilər. Nəhayət, kapital qoyuluşunun nisbətən məhdud olan üçüncü mənbəyinin nümayəndələrini ştabs-kapitan K.Zubalov, iste'fada olan ştabs-kapitan, knyaz N.Bektabekov, dövlət mə'muru kollej müşaviri P.Zaporojçenko, dağ-mə'dən mühəndisi P.Semyannikov, polkovnik N.Saparov və b. təşkil edirdilər.

Qeyd etmək lazımdır ki, neft sənayesinin təşəkkülü dövründə çar hökumətinin həyata keçirdiyi iqtisadi siyasət yeni sənaye sahəsinin inkişafı tələblərinə uyğun gəlmirdi. Neftli sahələrin hərrac yolu ilə icarəyə verilməsi neft sənayesinin dirçəlişi üçün zəruri olan kapitalı dövlət xəzinəsinə yönəldərək, iqtisadiyyatın təşəkkül tapmaqda olan sahəsinin əsaslarını xeyli zəiflətdi.



## § 2. İltizam sisteminin ləğv edilməsindən sonra Azərbaycan neft sənayesinin inkişafı (1872-1880-ci illərin ortaları)

XIX əsrin 70-80-ci illərində neft sənayesinin səciyyəvi xüsusiyyətlərindən biri ondan ibarət idi ki, neft hasilatının və e`malının ucuz olması xırda və orta müəssisələrin fəaliyyəti üçün geniş imkanlar açırdı. Ayrı-ayrı şəxslərə məxsus olan və ya kiçik payçı cəmiyyətləri (ticarət evləri) formasında fəaliyyət göstərən müəssisələrlə yanaşı, elə ilk illərdə daha böyük ticarət evləri və səhmdar cəmiyyətləri meydana gəlirdi. Bakıda ilk ticarət evləri XIX əsrin 70-ci illərində yaranmışdır.[30] Onların müəyyən hissəsi həm də istehsal fəaliyyəti ilə məşğul olurdu. Azərbaycan neft sənayesində belə ticarət evlərinin tə`sis edilməsi də XIX əsrin 70-ci illərinə təsadüf edir.

İlk payçı müəssisələrindən biri 1872-ci il avqustun 19-da yaradılmış "Şəriklər" cəmiyyəti idi. Cəmiyyət polkovnik A.A.Fon-Burmeyster, kapitan V.V.Kleyqels, H.Z.Tağıyev, M.İ.Sultanov, İ.Q.Tumayev, A.S.Saturov, A.İ.Orbelov, B.Q.Sarkisov və b. tərəfindən tə`sis edilmişdi. İştirakçıların hər biri nizamnamə kapitalının formalaşması məqsədilə 2 min rubl ödəməli idilər.[31] 1899-cu ildə şirkət öz təşkilat



formasını təkmilləşdirərək, nizamnamə kapitalı 2 milyon rubldan ibarət olan səhmdar cəmiyyətə çevrildi.[32]

1877-ci ildə "H.Z.Tağıyev və Sarkisov qardaşları" adlı daha bir ticarət evi yaradıldı. 1886-cı ildə H.Z.Tağıyev bu müəssisəyə məxsus bütün əmlakı alaraq özünün yeni şirkətini yaratdı.[33]

Sadə çəkməçi ailəsində anadan olmuş H.Z.Tağıyev (1823-1924) gərgin əməyi və qabiliyyəti sayəsində qeyri-bərabər xarici rəqabətə qarşı məqsədyönlü mübarizə apararaq, qısa müddət ərzində böyük uğur qazanmış, öz dövrünün zəngin sərmayəçisinə, tanınmış və nüfuzlu şəxsiyyətlərindən birinə çevrilmişdir. Onun 1911-ci ildə tərtib olunmuş xidməti siyahısında qeyd edilir ki, " heç bir təhsil almamış, lakin təbiətin dərin zəka bəxş etdiyi H.Z.Tağıyev fəaliyyətə bənnalıqla başlamışdır. Köhnə tacir kimi H.Z.Tağıyevin göstərişləri ticarət və sənayenin, demək olar ki, bütün sahələri üzrə çox qiymətlidir".[34]

Neft sənayesinə gəlişinə qədər o, ticarət və podrat işlərilə məşğul olmuş və müəyyən kapital toplayaraq 1872-ci ildə keçirilən ilk hərracda neftli sahə əldə etmişdir. Öz işlərini səmərəli təşkil edən H.Z.Tağıyev qısa müddət ərzində iri sənayeçilər sırasına çıxmışdır. Müfəttiş N.Boyanovski 1907-ci ildə öz hesabatında yazırdı: "...keçmiş fəhlə (bənna), hazırda isə həqiqi mülki müşavir Hacı Zeynalabdin Tağıyev indi birinci kapitalistdir və onun mülkiyyətinin dəyəri 16 milyon rubla bərabərdir".[35]

Mütərəqqi dünyagörüşlü şəxsiyyət kimi, H.Z.Tağıyev elm və mədəniyyətin cəmiyyətdəki əhəmiyyətini yüksək qiymətləndirir və onların inkişafı üçün əlverişli şəraitin yaradılmasına xüsusi qayğı göstərirdi. Təsadüfi deyil ki, Bakıda ilk teatr binası 1883-cü ildə onun vəsaiti hesabına tikilmişdir. O, Azərbaycan yazıçılarının əsərlərinin çap olunmasını maliyyələşdirir, məktəblərin tikintisinə və Rusiyada təhsil alan azərbaycanlı tələbələrə maddi yardım göstərirdi.[36] Onların sırasında M.Əzizbəyov, S.Mehmandarov[37], N.Nərimanov və başqaları var idi.

1896-cı ildə Bakıda H.Z.Tağıyev tərəfindən inşa edilmiş bağçılıq məktəbinin açılışı oldu. Bu məktəbin tikintisinə o, 300 min rubl ayırmışdı.[38]

1901-ci ildə isə Bakıda onun vəsaiti hesabına tikilmiş qızlar məktəbi fəaliyyətə başladı.[39] Burada əhalinin ən yoxsul təbəqələrinin uşaqları da təhsil ala bilərdilər.

H.Z.Tağıyev Bakının həyati əhəmiyyətə malik bütün tədbirlərində yaxından iştirak edirdi. Məhz sahibkarın xeyriyyəçilik fəaliyyətini yuksək qiymətləndirən hökumət 1874-cü ildə onu "Bakıda öz vəsaiti hesabına su kəməri çəkməsi ilə əlaqədar üzərində "Sə`yinə görə" sözləri həkk edilmiş və Stanislav lentindən asılmış gümüş medal ilə" təltif etmişdi.[40]

Bakının suya olan kəskin ehtiyacı H.Z.Tağıyevi sonralar da narahat etmiş və o, bu problemin həll edilməsinə qayğı ilə yanaşaraq təşəbbüskarlıq göstərmişdi. 1887-ci il dekabrın 16-da "Kaspi" qəzeti yazırdı ki, "yaxın günlərdə H.Z.Tağıyevin kontorunda bir neçə sahibkarın iştirakı ilə şəhərimizə su çəkilməsi məsələsinə dair yığıncaq keçirilmişdir".[41]

Bu ideyanın həyata keçirilməsi bir sıra çətinliklərlə üzləşmişdi. Məsələnin müzakirəsi və aparılan axtarışlar XX əsrin əvvələrinə qədər uzanmışdı. Nəhayət, 1901-ci ildə şəhər Duması mühəndis Lindley tərəfindən Şahdağın ətəyində aşkar edilmiş yeraltı su mənbəyinin kifayət qədər ehtiyatı olmasına şübhə ilə yanaşaraq layihəni rədd etdikdə, H.Z.Tağıyev yenidən məs"uliyyəti öz üzərinə götürməkdən çəkinməmişdi. O, şəhər idarəsinə ərizə yazaraq, Lindleyin layihəsi üzrə işlərin dərhal başlanması üçün 25 min rubl pul ayırdığını bildirmiş və təklif etmişdi ki, Şahdağ ətəyində kifayət qədər su ehtiyatı aşkar edilərsə, onun pulu qaytarılsın. Lakin şəhər Duması bu təklifi yalnız sentyabr ayında müzakirəyə çıxaracağına görə işlərin gedişi ləngiyə bilərdi. Buna görə H.Z.Tağıyev gözləmədən onun vəsaiti hesabına qazma işlərini başlamağı zəruri hesab etmiş və Dumanın sentyabrda öz iclasında şəhər idarəsi və su təchizatı üzrə komissiyanın bu tədbirlərini bəyənməyəcəyi halda verdiyi puldan imtina edəcəyini bildirmişdi.



Şəhərin su təchizatının təmizliyi qayğısına qalan H.Z.Tağıyev ərizədə qeyd edirdi ki, Kür və Samur çaylarının suyu ilə müqayisədə üstünlüyü Şahdağ ətəyindən çəkiləcək Şollar suyuna vermək lazımdır. O, inamla bildirirdi ki, "yeraltı sulardan çəkilmiş su kəməri Şahdağ və onun daimi buzlaqları kimi əbədi olacaqdır".[42]

H.Z.Tağıyevin nəcib əməlinin bəhrəsi olan Şollar su kəməri müxtəlif maneələri dəf edərək, nəhayət, 1917-ci ilin yanvar ayında Bakını su ilə təchiz etməyə başladı.

1914-cü ildə H.Z.Tağıyev Azərbaycanın digər görkəmli neft sənayeçisi M.Nağıyev ilə birlikdə Bakı tacir bankını tə`sis etdi.[43]

Sovet hakimiyyəti illərində bütün mülkiyyətinin müsadirə olunmasına baxmayaraq, H.Z.Tağıyev öz vətənini tərk etmədi. O, 1924-cü ildə vəfat etmiş və Mərdəkanda dəfn olunmuşdur.[44]

Onun ailəsinin taleyi acınacaqlı olmuşdur. Ailə üzvləri tə`qiblərə mə`ruz qalmış və vətəndən didərgin düşmüşlər. Onun həyat yoldaşı isə öz ömrünü 1930-cu illərdə Bakıda yoxsulluqda başa vurmuşdur.

Bakının me`marlıq abidələrindən biri olan H.Z.Tağıyevin evində hazırda Azərbaycan Tarixi Muzeyi yerləşir.

Azərbaycan neft sənayesində istehsalın və kapitalın təmərküzləşməsi prosesi həm də səhmdar cəmiyyətlərin yaradılması yolu ilə baş verirdi. Bu sahədə ilk addım 1874-cü ildə "Bakı neft cəmiyyəti" səhmdar şirkətinin tə`sis edilməsi ilə atılmışdı. Neft sənayesinin iri kapitalist inkişaf yoluna qədəm qoyduğu ilk dövrdə səhmdar cəmiyyətlərinin sayı çox deyildi.

"Bakı neft cəmiyyəti" P.İ.Qubonin və V.A.Kokorev tərəfindən tə`sis edilmişdi. Şirkətin nizamnamə kapitalı 7.500 min rubl müəyyən olunsa da[45], buraxılmış səhmlərin satılmaması ilə əlaqədar azaldılmış və 1877-ci ildə 4 milyon rubl təşkil etmişdir. Lakin cəmiyyətin səhmləri başqa şəxslər tərəfindən alınmadığı üçün bu vəsaitin də 9/10 hissəsi V.Kokorevin özündə qaldı.[46]

1872-ci ildə neftli sahələrin əldə olunmasına böyük kapital sərf etmiş tə`sisçilər şirkətin işini təşkil edib genişləndirmək üçün maliyyə vəsaitinə kəskin ehtiyac duyurdular. Maliyyə problemini həll etmək məqsədilə V.Kokorev 1876-cı ildə Dövlət Bankından "üç il müddətinə 2 milyon rubl borc" verilməsini xahiş etdi. O, bank vəsaitinə "Dövlət Bankına 1.250 min rubl məbləğində səhm almaq hüququ verilməsi ilə yanaşı, "Bakı neft cəmiyyəti"-nin 1.875 min rubl məbləğində səhmi ilə tə`minat verirdi". Maliyyə Nazirliyi onun xahişini yerinə yetirdi.[47]

"Bakı neft cəmiyyəti" sonrakı illərdə də maliyyə çətinliklərini dəf edə bilmədi. V.Kokorev 1882-ci ildə "3.270 min rubl borcun faizsiz 30 il müddətinə" uzadılması xahişi ilə Dövlət Bankına müraciət etdi.[48] Qeyd etmək lazımdır ki, maliyyə problemləri məngənəsində sıxılan "Bakı neft cəmiyyəti" iri şirkətlər sırasında yer tutsa da, neft sənayesində aparıcı rol oynaya bilmədi.

Şirkətin tə`sisçisi V.Kokorev təşəbbüskarlığı və gərgin əməyi sayəsində Rusiyanın sənaye və ticarət sahələrində, ictimai həyatında böyük nüfuz qazanmışdı. Əmək fəaliyyətinə şərab iltizamçısı kimi başlayan V.Kokorev kapital toplayaraq Bakıya gəlmiş və 1859-cu ildə Suraxanıda ağ neft zavodu tikərək, hələ iltizam sisteminin mövcud olduğu dövrdə neft sənayesində ilk addımlarını atmışdır.[49] Vəsait sərf olunmadan yerdən təbii şəkildə öz axarı ilə çıxan qazlardan yanacaq kimi istifadə edilməsi, zavodun dənizdən uzaqda yerləşməsinə baxmayaraq, V.Kokorevə koks və daha bahalı yanacaqla işləyən sahildəki zavodlarla rəqabət aparmaq imkanı verirdi. V.Kokorev zavodun işini təkmilləşdirmək üçün 1863-cü ildə D.Mendeleyevi Bakıya də`vət etdi. Tanınmış kimyaçı alim mə`dən, zavod və limanı birləşdirən boru kəmərinin çəkilməsini, neftdaşıyan tankerlərin tikilməsini və Nijni Novqorodda neft e`malı zavodunun inşa edilməsini məsləhət gördü. V.Kokorev zavodun yenidən qurulmasına dair təklifi həyata keçirsə də, Nijni Novqorodda yeni zavod inşa edə bilmədi.[50]



V.Kokorevin fəaliyyət dairəsi geniş idi. O, Volqa-Kama ticarət bankı yaratmış, Rusiya və İran arasında ticarət əlaqələrinin qurulmasında iştirak etmişdi.

O, XIX əsrin 60-cı illərində publisist və jurnalist kimi mətbuat səhifələrində fəal çıxış etmişdi. Bu dövrdə Moskvada yaşayan V.Kokorev liberal ziyalılarla yaxın əlaqə saxlayır, ədəbi dərnəklərdə iştirak edir, jurnalist kimi 60-cı illərin burjua islahatlarının müzakirəsində fəallıq göstərirdi.[51]

V.Kokorev kənd təsərrüfatı sahəsində də gücünü sınayır, İlmen gölü sahilindəki malikanəsində arıçılıqla məşğul olurdu. O, burada torpaq sahəsi alaraq, Rəssamlıq Akademiyasının üzvləri üçün istirahət evi tikməyi qərara almışdı. Məsələ Akademiya ilə razılışdırıldıqdan sonra həmin yerdə gözəl bina inşa edildi.[52]

1880-cı illərin sonunda V.Kokorev neft sənayesini və Orta Asiya vilayətlərində həyata keçiriləcək işləri maliyyələşdirmək məqsədilə Xəzər ticarət bankının yaradılmasını qərara almışdı. Bankın 2,5 milyon rubl həcmində müəyyən edilmiş əsas kapitalı Moskva kapitalistləri tərəfindən ödənilmişdi. Sür`ətlə həyata keçirilən işlər 1889-cu ildə V.Kokorevin ölümü ilə yarımçıq qaldı.[53] Onun bütün əmlakı, o cümlədən Dövlət Bankındakı borcları, "Bakı neft cəmiyyəti"nin və Volqa-Kama bankının səhmləri vəsiyyətnaməyə əsasən həyat yoldaşına keçdi.[54]

Quruluşuna, fəaliyyət formasına, hüquqi və iqtisadi vəziyyətinə görə ticarət evləri ilə səhmdar cəmiyyətləri arasında ciddi fərqlər var idi. Əsas fərq ondan ibarət idi ki, "ticarət evinin tə`sisçiləri (yoldaşları) şirkətin fəaliyyətinə görə özlərinin bütün əmlakları ilə məs`uliyyət daşıyırdılarsa, səhmdar cəmiyyətində səhmdarlar müəssisənin əsas kapitalındakı paylarına müvafiq surətdə məhdud məs`uliyyətlə iştirak edirdilər".[55] Yə`ni ticarət evinin müflisləşəcəyi halda tə`sisçilər (yoldaşlar) yanlız müəssisəyə qoyduqları kapitalı deyil, həm də bütün əmlaklarını itirə bilərdilər. Bundan fərqli olaraq, ticarət evinin sıravi payçıları isə yalnız öz payları həcmində maddi məs`uliyyət

daşıyırdılar. Lakin onlar ticarət evinin idarə olunmasında iştirak etməyərək, yalnız sərəncamverici - yoldaşın tapşırıqlarını yerinə yetirmək və sənədlərlə tanış olmaq hüququna malik idilər. Buna görə də belə müəssisələrin üzvlərinin sayı və iqtisadi imkanları, əsasən, məhdud olurdu.

Səhmdarların sayı isə çox geniş ola bilərdi. Bu isə "Səhmdar cəmiyyətlərin öz səhmdarları və üçüncü şəxslər qarşısında ödəmə qabiliyyətinə tə`minat kimi əsas kapitalın həcminin qanunvericilik yolu ilə təsdiq edilməsini" şərtləndirirdi.[56]

Ticarət evlərinin hüquqi cəhətdən təsdiq olunması prosesi mürəkkəb deyildi. Müəssisənin üzvləri arasında imzalanmış müqavilə notariat kontorunda qeydiyyatdan keçdikdən sonra, onun surəti ticarət evlərinin yaradılması prosesində sonuncu mərhələ olan şəhər idarəsinə təqdim edilirdi.[57]

Səhmdar cəmiyyətlərin nizamnaməsinin layihəsi Maliyyə Nazirliyində və Nazirlər Komitəsində baxıldıqdan sonra imperatorun icazəsi ilə Senat tərəfindən təsdiq edilirdi. Hökumətin razılığı olmadan cəmiyyətin nizamnaməsində heç bir dəyişiklik edilə bilməzdi. Səhmdar cəmiyyətin bütün işləri ümumi yığıncaqda seçilmiş idarə hey"əti tərəfindən tənzimlənirdi. Nizamnamə ilə müəyyən olunmuş sayda səhmlərin sahibləri ümumi yığıncaqda həlledici səsə malik idilər. Ümumi yığıncaq cəmiyyətin hesabatını, balansını və növbəti il üçün iş planını təsdiq edirdi. Cəmiyyətin fəaliyyətinin yekunlarını əks etdirən hesabat və balans hər il nəşr olunur və Maliyyə Nazirliyinə göndərilirdi.

Səhmdar cəmiyyəti sahibkarlığın təşkilatlanma formasının yüksək mərhələsidir. Məhz belə şirkətlər digər şəxslərə məxsus vəsaiti cəlb etməklə, iri kapital nümayəndələrinə ondan öz mənafeyi naminə istifadə etmək üçün geniş imkanlar açırdı.

Yalnız yüksək iqtisadi potensiala malik olan iri şirkətlər neft sənayesinin bütün sahələrini (neftçıxarma, e`mal, nəqletmə və satış) bir əldə birləşdirməyə qadir idi. Çoxsaylı xırda və orta müəssisələr yalnız bir və ya iki sahədə



fəaliyyət göstərə bilirdilər. Neft sənayesi inkişaf etdikcə istehsalın yüksəliş dinamikasını tə`min etmək üçün əlavə kapital qoyuluşu tələb olunurdu. Belə imkanlar isə yalnız iltizam sisteminin ləğvindən sonra yarandı.

İltizamçıların inhisarının ləğv olunması Azərbaycan neft sənayesində işlərin kəskin şəkildə canlanmasına və neft hasilatının sür"ətlə artmasına təkan verdi. Aşağıdakı rəqəmlər bu fikri aydın şəkildə təsdiq edir.[58]




**Neft hasilatı, pud**

Neft sənayesinin sərbəst işkişaf yoluna qədəm qoyduğu ilk ildə V.Kokorev və P.Quboninin firması (1,2 mln.pud neft hasil etmişdi) və İ.Mirzoyevin müəssisəsi (1,4 mln.pud) öz məhsuldarlığına görə fərqlənirdilər. Digər firmalar hələ ciddi nəticələr əldə etməyərək, qazma işlərini davam etdirirdilər. 1873-cü ildə qazılmış 29 quyudan 20-də işlər başa çatmamışdı.[59]

Neft e`malı sahəsində də nəzərəçarpacaq dəyişikliklər baş vermişdi. Əsas neft məhsulu olan ağ neft istehsalı ildən-ilə artırdı[60]:




Lakin müəyyən nailiyyətlərə baxmayaraq, sərbəst kapitalın çatışmaması və ağ neft üzərinə qoyulmuş aksizin ağırlığı nəticəsində neft sənayesi 1875-ci ildə bir sıra çətinliklərlə üzləşdi. Dövlət əmlakı naziri maliyyə nazirinə müraciət edərək meydana çıxan məsələlərin həllinin vacibliyini qeyd etdi. Neft sənayesində yaranmış vəziyyəti öyrənmək məqsədilə komissiya yaradıldı.[61] Eyni zamanda, 1876-cı ildə hökumətə müraciət edən neft sənayeçiləri aksizin ləğv edilməsi və idxal olunan ağ neftə gömrük rüsumunun artırılması məsələsini irəli sürdülər.[62] Hökumət təqdim olunmuş bütün materialları öyrəndikdən sonra 1877-ci ildə ölkədə istehsal edilən ağ neftdən alınan aksizi ləğv etdi və xaricdən gətirilən ağ neft üçün gömrük rüsumunu artıraraq, onun qızıl ilə ödənilməsi qaydasını müəyyənləşdirdi.[63]

Bu tədbirlər neft sənayesinin inkişafına yeni bir təkan verdi. Neft hasilatı sür"ətlə artmağa başladı[64]:



Neft hasilatı, mln. pud



Göründüyü kimi, 70-80-ci illərin ortalarında neftçıxarma sahəsində inkişaf sür"əti çox yüksək idi. 1873-1885-ci illərdə neft hasilatı 29 dəfədən çox artmışdı.

E"mal sahəsində də əhəmiyyətli dəyisikliklər baş vermişdi. Zavodların sayı artmışdı. 1873-cü ildə Bakı ətrafında zavodların yerləsdirilməsi üçün sonralar Qara şəhər adı alınıs xüsusi yer ayrıldı.[65] İlk 6 ay ərzində burada 80 zavod var idisə, 1885-ci ildə onların sayı 94-ə çatırdı.[66] Əgər 1872-ci ildə Bakı zavodlarında cəmi 500 min pud, 1879-cu ildə isə 6,8 mln. pud ağ neft istehsal edilmişdisə, 1885-ci ildə bu sahədə istehsalın ümumi səviyyəsi 33 mln. puda çatmısdı.[67]

XIX əsrin 70-ci illərində neft sənayesində fəaliyyət göstərən şirkətlər əsasən Rusiya sahibkarlarına məxsus idi. 1875-ci ildə neftçıxarma sahəsində qeydə alınmış 26 şirkət sırasında (neftçıxarma sahəsindəki şirkətlər haqqında daha dolğun mə`lumat 1875-ci ildən sonrakı dövrü əhatə edir) xarici, o cümlədən qərb kapitalını təmsil edən şirkət yox idi.[68]

Həmin ildə Bakıda kiçik torpaq sahəsi və zavod alan İsveç mənşəli Nobel qardasları yalnız 1879-cu ildə "Nobel qardaşları" səhmdar cəmiyyətini yaradaraq, neft sənayesində məqsədyönlü fəaliyyətə başladılar. 1879-cu ildə Bakıda neft hasilatı sahəsində fəaliyyət göstərən 39 şirkət sırasında Nobel qardaşları ilə yanası avstriyalı Y.Doçara məxsus müəssisə də var idi.[69]

Beləliklə, Azərbaycan neft sənayesinin geniş perspektivlərə malik olduğunu dərk edən qərb kapitalı tədriclə öz diqqətini bu sahəyə yönəldirdi. Çoxsaylı xırda sahibkarlar sırasına daxil olan Y.Docardan fərqli olaraq (o, A.Səlimxanovun neftli torpaq sahəsini icarəyə götürmüsdü), Nobel qardaşları ardıcıl fəaliyyətləri və texniki yeniliklərin genis tətbiqi sayəsində neft sənayesinin inkişafında mühüm rol oynadılar.

Qərb kapitalının tədricən Azərbaycan neft sənayesinə nüfuz etməsinə baxmayaraq, XIX əsrin 70-ci illərində və 80-ci illərin əvvələrində Rusiya sahibkarları əsas mövqeləri öz əllərində saxlayırdılar. Belə ki, 1875-ci ildə

illik hasilat gücü 1 mln. puddan çox olan 3 şirkət, 1877-ci ildə 6 şirkət və 1880-cı ildə isə 11 şirkət fəaliyyət göstərirdi. Onların hamısı yalnız Rusiya sahibkarlarına (o cümlədən milli Azərbaycan kapitalı nümayəndələrinə) məxsus idi. Həmin şirkətlər arasında "Bakı neft cəmiyyəti", "Şəriklər" cəmiyyəti, "H.Z.Tağıyev və Sarkisov qardaşları" ticarət evi, Q.M.Lianozov və s. şirkətlər var idi.[70] Göstərilən faktlar Rusiya kapitalının neft hasilatı sahəsində əsaslı şəkildə möhkəmləndiyini təsdiq edir. 1884-cü ildə bu sahədə fəaliyyət göstərən 19 iri neft şirkətinin 18-i məhz Rusiya kapitalının nümayəndələrinə məxsus idi (Şirkətlərin neftçıxarma sahəsində fəaliyyəti haqqında 1885-ci ilin mə`lumatları dolğun olmadığı üçün 1884-cü ilin göstəricilərindən istifadə olunmuşdur[71]). İri şirkətlər sırasında möhkəm yer tutmuş digər müəssisə isə getdikcə üstünlüyü ələ keçirən qarışıq kapitallı "Nobel qardaşları" cəmiyyəti idi. Ümumiyyətlə isə 1884-cü ildə Azərbaycanda hasil edilmiş 89,2 mln. pud neftin 74,6 mln.pudu, yəni 83,6%-i Rusiya şirkətlərinin (o cümlədən azərbaycanlı neft sahibkarlarının) payına düşürdü.[72]

Statistik materialların öyrənilməsi göstərir ki, neftçıxarma sahəsində Azərbaycanın milli kapitalının rolu zəif idi. Belə ki, yalnız H.Z.Tağıyevin təmsil olunduğu qarışıq kapitala malik "H.Z.Tağıyev və Sarkisov qardaşları" ticarət evi 4,5 mln.pud neft hasil edərək, iri şirkətlər sırasında yer tuturdu. 1884-cü ildə neftçıxarma sahəsində ondan başqa daha iki nəfər azərbaycanlı sahibkar-Kərbəlayi Abdulla (80 min pud neft hasil etmişdi) və Cabbar Qasım oğlu (7,2 min pud) fəaliyyət göstərirdilər.[73] Göründüyü kimi, bu müəssisələr öz hasilat gücünə görə ciddi rol oynamaq imkanına malik deyildilər.

Neft e`malı sənayesində daha kəskin rəqabət gedirdi. Qərb kapitalı bu sahədə nisbətən çox uğur qazanmışdı. 1885-ci ilin mə`lumatına görə Bakıda istehsal edilən 33 mln. pud ağ neftin 65,5 faizi Rusiya şirkətlərinin, qalan hissəsi isə Nobel və başqa qərb kapitalistlərinin payına düşürdü.[74]



"Nobel qardaşları" cəmiyyəti 10,7 mln. pud ağ neft istehsal edərək bu sahədə şəksiz liderə çevrilmişdi. Azərbaycanlı sahibkarları isə istehsal gücü 1 mln.puddan çox olan 7 iri şirkət sırasında "H.Z.Tağıyev və Sarkisov qardaşları" ticarət evi (2,4 mln.pud), Musa Nağıyev (1,5 mln. pud) və Şəmsi Əsədullayev (1,2 mln. pud) təmsil edirdilər.[75] Neftçıxarma sahəsindən fərqli olaraq, e`mal sənayesində Azərbaycanın milli kapitalının mövqeyi daha güclü idi. Belə ki, qarışıq kapitallı "H.Z.Tağıyev və Sarkisov qardaşları" ticarət evi də nəzərə alınmaqla (yuxarıda qeyd edildiyi kimi, bir il sonra, yəni 1886-cı ildə H.Z.Tağıyev bu müəssisənin şəriksiz sahibinə çevrildi) azərbaycanlı sənayeçilərə məxsus şirkətlər 1885-ci ildə 8,7 mln. pud ağ neft istehsal etmişdi ki[76], bu da ümumi istehsalın 26,3 faizini təşkil edirdi.

Neft sənayeçilərinin üzləşdiyi əsas problem neft məhsullarının Rusiya və dünya bazarlarına daşınması və satışı ilə bağlı idi. Bu məsələnin həll edilməsi neft sənayesinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Rusiyanın mərkəzi quberniyalarına neft və neft məhsullarının daşınması ilə əsasən "Bakı neft cəmiyyəti", "Qafqaz və Merkuri", "Lebed", "Drujina" cəmiyyətləri və bə`zi fərdi şəxslər məşğul olurdular. Lakin onlar inkişaf etməkdə olan neft sənayesinin tələbatını ödəyə bilmirdilər. Buna görə də "Xəzər dənizində naviqasiyanın bağlanması ərəfəsində daşınma qiymətləri iki dəfə artırdı".[77] Təsadüfi deyil ki, Nobel və 80-ci illərin sonundan isə Rotşild öz şərtlərini diktə etmək üçün məhz bu sahəni inhisara almağa ciddi sə`y göstərmişdilər.

"Nobel qardaşları" şirkəti bu istiqamətdə daha qəti addımlar atırdı. Öz qarşısında "əvvəlcə Amerika ağ neftini Rusiyadan sıxışdırıb çıxarmaq, sonra isə xaricə ağ neft ixracına başlamaq" vəzifəsini qoyan Nobel məqsədinə nail olmaq üçün şirkətin işlərini yenidən qurdu.[78] 1876-cı ilin oktyabr ayında Nobel tərəfindən Sankt-Peterburqa neft məhsullarının ilk partiyasının çatdırılması "Rusiyada Amerika neft agentlərinin fəaliyyətinin sonunun başlanğıcı"

demək idi.[79] Amerikadan idxal edilən ağ neftin tədricən azalmasına nail olan Nobel, nəhayət, 1883-cü ildə onu Rusiya bazarından tamamilə sıxışdırıb çıxardı.[80]

Satış bazarları ilə əlaqəni tənzimləmədən işlərin səmərəli şəkildə təşkil edilməsinin mümkün olmadığını dərk edən neft sənayeçiləri və gəmi sahibləri 1880-ci illərin əvvəlində tanker donanmasını genişləndirmək üçün cəhdlər göstərdilər. Bu isə Nobel şirkətilə rəqabət təhlükəsi doğurduğuna görə onun mənafeyinə cavab vermirdi. Nobel öz rəqiblərini aradan qaldırmaq üçün yerli qəzetlərdə e`lanlar verərək bildirdi ki, onun tezliklə gətirəcəyi yeni gəmilər başqa sahibkarların da neft məhsullarını əlverişli şərtlərlə Rusiya bazarlarına daşımağa imkan verəcək. Lakin yeni gəmilər alındıqdan sonra mə`lum oldu ki, digər şirkətlərin yükləri Nobel tərəfindən qəbul edilmir.

Beləliklə, Nobel digər şirkətlərin Xəzərdə tanker donanmasını genişləndirmək planlarının həyata keçirilməsini demək olar ki, iki il ləngitdi. Bununla da o, yaranmaqda olan rəqabətin qarşısını alaraq, öz məqsədinə çatdı.[81]

Neft sənayeçiləri vəziyyəti aydınlaşdırdıqdan sonra yenidən donanmanın genişləndirilməsi sahəsində sə`ylərini gücləndirdilər. Eyni zamanda, onlar hökumətə müraciət edərək, neft məhsullarının daşınması üçün Volqa çayı boyu birbaşa əlaqənin yaradılması və Zaqafqaziya dəmir yolunun yükdaşıma qabiliyyətinin artırılması sahəsində köməklik göstərilməsinə dair məsələ qaldırdılar. Hökumətin bu xahişə müsbət cavab verməsi yenə də "Nobel qardaşları" şirkətinin narahatlığına səbəb oldu. Bu planları pozmaq məqsədilə o, yeni cəhdlər göstərdi. Lakin öz məqsədinə nail olmayan Nobel daha bir layihə irəli sürdü. Bu layihə Zaqafqaziya dəmir yolunun yükdaşıma qabiliyyətinin artırılması qarşısını almaq üçün Suram aşırımından ağ neft kəməri çəkilməsini nəzərdə tuturdu.[82] Nobel bu kəmərin tikilməsinə yalnız 1889-cu ildə nail oldu. Lakin tək Nobel şirkətinin ağ neftini ötürmək üçün nəzərdə tutulan boru kəməri Zaqafqaziya dəmir yolunun yükdaşıma qabiliyyətini artırmaq əvəzinə yeni problemlər yaratdı. Buna görə də kəmər neft sənayeçilərinin təzyiqi ilə 1893-cü ildə bağlandı.[83]



Neft satışı bazarında hakim mövqe tutmaq planlarını həyata keçirməyə sə`y göstərən Nobel 1884-cü ildə bir sıra neftçıxarma şirkətləri ilə xam neftin satın alınması haqqında müqavilə imzalamışdı. Şərtə görə, Nobel 2 il ərzində həmin şirkətlərin hasil etdiyi neftin yarısını qəbul etməli idi. Eyni zamanda, Nobel ilə müqavilə imzalamış şirkətlər başqa şəxslərə neft satmaq hüququna malik deyildilər.[84]

Müqavilələr neft sənayeçilərinin fəaliyyətinə neqativ tə`sir göstərdi. Çünki, onların əksəriyyəti öz istehsalını ixtisar etməyə məcbur olmuşdu. 1884-cü ildə istehsal gücü 7 mln. puda çatan "Bakı neft cəmiyyəti" və İ.Mirzoyev isə Nobel şirkətini və öz zavodlarını eyni vaxtda kifayət qədər xam neftlə tə`min edə bilmirdilər.

Başqa şirkətlərin istehsalını azaltmağa nail olan Nobel müqavilələrin köməyi ilə əlavə olaraq 25 mln. puddan çox nefti öz əlində cəmləmişdi.[85] Müqavilələrin mənfi nəticələri tezliklə özünü büruzə verdi. Neft bazarında təklifin kəskin şəkildə azalması nəticəsində xam neftin qiyməti sür"ətlə qalxmağa başladı. Zavod sahiblərinin çoxu yeni qiymətlərlə neft ala bilmədikləri üçün fəaliyyətlərini dayandırmağa məcbur oldular.

Lakin xam neftin qiymətinin qalxması və tələbatın artması 1884-cü ilin ortalarından e`tibarən sənayeçilərin Nobel ilə imzalanmış müqavilələri pozmasına gətirib çıxardı.[86]

Beləliklə, Bakı neft sənayeçilərinin müqaviməti nəticəsində Nobelin neft sənayesini inhisara almaq cəhdləri uğur qazanmadı. Eyni zamanda, Nobelin tə`sirindən çıxmağa çalışan neft sənayeçiləri xüsusi maye tutumlu daşıma vasitələri ilə Bakı və Rusiyanın mərkəzi quberniyaları arasında birbaşa əlaqə yaratmaq haqqında qərar qəbul etdilər. Beləliklə, 1884-cü ildə neft sənayeçiləri ilə "Qafqaz və Merkuri" cəmiyyəti, "Neft" şirkəti və Qryaze-Saritsın dəmir yolu arasında neft məhsullarının Xəzər dənizi və Volqa çayı, sonra isə Qryaze-Saritsın dəmir yolu

ilə daşınması haqqında müqavilə imzalandı. Bu müqavilə neft məhsulları göndərən bütün şirkətlər, o cümlədən xırda müəssisələr üçün əlverişli idi. Eyni zamanda, neft sənayeçilərindən ağ neftin keyfiyyətini də yaxşılaşdırmaq tələb olunurdu. Çünki, müqavilə iştirakçıları nəqletmə vasitələrindən və çənlərdən birgə istifadə etdiklərinə görə ağ neftin keyfiyyətini tələb olunan ümumi standartlara uyğunlaşdırmaq zəruri idi.[87]

Nobelin dəmir barjlarından fərqli olaraq, müqavilə iştirakçıları "ağ neftin daşınması üçün eyni tutumlu, 7 dəfə ucuz qiyməti olan ağac barjlardan" istifadə edirdilər.[88]

Çətin vəziyyətlə üzləşən "Nobel qardaşları" şirkəti bu "cəhənnəm maşınlarının" tez alışıb yanan olmasını əsas göstərərək, "ağ neftin ağac barjlarda daşınmasının şərtsiz qadağan edilməsinin zəruriliyi haqqında" Nijni Novqorod qubernatoruna müraciət etdi.[89]

Lakin Nijni Novqorod birja komitəsi Nobelin niyyətini açıqlayaraq qeyd edirdi ki, "ağac barjların tezalışan olması yox, onların rəqabəti Nobel şirkətini fəryad qaldırmağa məcbur etmişdir və ictimai təhlükəsizlik bunun üçün yalnız əlverişli bəhanə rolunu oynayır".[90]

Bakı neft sənayeçiləri qurultayının Şurası da eyni mövqedə duraraq, ağac barjların qadağan olunmasına qarşı çıxış etdi.[91]

Lakin "Nobel qardaşları" şirkəti öz məqsədinə qismən nail oldu. Belə ki, Nəqliyyat Nazirliyi nəzdindəki komissiya 1885-ci ilin aprel ayında bu məsələni müzakirə edərək, "ağ neftin ağac barjlarda daşınmasına müvəqqəti olaraq, 2 il müddətinə" icazə verdi.[92]

1884-cü ildə ağac barjlarda Rusiyanın mərkəzi quberniyalarına 1 mln. puddan artıq ağ neftin daşınmasına və məhsulun öz keyfiyyətini bu barjlarda daha yaxşı saxlamasına baxmayaraq, Nobelin təzyiqi ilə onlardan imtina etmək lazım gəldi. Bu isə digər neft sənayeçilərinin vəziyyətini ağırlaşdırmaqla yanaşı, neft məhsullarının nəql edilməsi və satışı məsələlərinin Nobel tərəfindən inhisara alınmasına şərait yaradırdı. Birbaşa nəqletmə xətti ilə ildə



2,5 mln. pud neft məhsulları daşınırdı. Bu xəttin xidmətindən əsasən xırda zavod sahibləri istifadə edirdilər. İri şəhərlərdə şəxsi çənlərə malik olan BNC və H.Z.Tağıyev kimi şirkət və sahibkarlar öz ehtiyaclarını tə`min edirdilər. Bununla yanaşı, BNC hər il "Drujina" cəmiyyəti, "S.M.Şibayev və K" isə "Lebed" cəmiyyəti ilə yüklərin daşınması haqqında müqavilə imzalayırdılar.[93]

Lakin onlar şəxsi donanmaya malik olmadıqları üçün Nobel şirkəti ilə rəqabət apara bilmirdilər. 1884-cü ildə "Nobel qardaşları" şirkəti 15 mln. rubl kapitala malik iri səhmdar cəmiyyətə çevrilmişdi. Artıq 1880-ci illərin əvvələrində yeni neftli torpaqlar ələ keçirməklə neft hasilatı və e`malı sahələrində mühüm rol oynamağı başlayan "Nobel qardaşları" cəmiyyəti Rusiyanın neft bazarına hakim olmaq üçün nəqletmə vasitələrini öz əlində cəmləşdirməyi bir vəzifə olaraq ön plana çəkmişdi. 1883-cü ildə şirkət öz kapitalının 3/4 hissəsini bu vəzifənin həllinə yönəltmişdi.[94]

Əsasən ticarət evləri və fərdi müəssisələr çərçivəsində fəaliyyət göstərən Rusiyanın neft sənayeçilərinin, o cümlədən azərbaycanlı sahibkarların satış bazarları ilə bilavasitə əlaqə yaratmaq və Nobel şirkəti ilə rəqabət aparmaq imkanları məhdud idi. 1880-ci illərin əvvəlində güclü donanma yaratmış Nobel isə ağ neftin Rusiya bazarlarına çıxarılmasında liderliyi ələ almışdı. Belə ki, 1885-ci ildə Bakıdan Rusiyanın mərkəzi quberniyalarına aparılan 19,2 mln. pud ağ neftin 10 mln. pudu, yəni 52%-i "Nobel qardaşları" cəmiyyətinin payına düşürdü.[95]

Buna baxmayaraq, müqavilə əsasında satış bazarları ilə birbaşa əlaqə yaratmış digər neft sənayeçiləri tədricən öz fəaliyyət dairələrini genişləndirirdilər. Saritsın vasitəsilə bazarlara çıxışı tə`min etdikdən sonra onlar ağ neftin Zaqafqaziya dəmir yolu və Batum vasitəsilə daşınmasına dair daha bir müqavilə imzaladılar.[96]

1883-cü ildə Zaqafqaziya dəmir yolunda hərəkətin başlanması Bakı neft sənayeçilərinin Avropa bazarlarına çıxmasına imkan yaratdı. Lakin hələ kifayət qədər nəqletmə vasitələrinə malik olmayan bu yolun yükdaşıma qabiliyyəti

ilə daşınması haqqında müqavilə imzalandı. Bu müqavilə neft məhsulları göndərən bütün şirkətlər, o cümlədən xırda müəssisələr üçün əlverişli idi. Eyni zamanda, neft sənayeçilərindən ağ neftin keyfiyyətini də yaxşılaşdırmaq tələb olunurdu. Çünki, müqavilə iştirakçıları nəqletmə vasitələrindən və çənlərdən birgə istifadə etdiklərinə görə ağ neftin keyfiyyətini tələb olunan ümumi standartlara uyğunlaşdırmaq zəruri idi.[87]

Nobelin dəmir barjlarından fərqli olaraq, müqavilə iştirakçıları "ağ neftin daşınması üçün eyni tutumlu, 7 dəfə ucuz qiyməti olan ağac barjlardan" istifadə edirdilər.[88]

Çətin vəziyyətlə üzləşən "Nobel qardaşları" şirkəti bu "cəhənnəm maşınlarının" tez alışıb yanan olmasını əsas göstərərək, "ağ neftin ağac barjlarda daşınmasının şərtsiz qadağan edilməsinin zəruriliyi haqqında" Nijni Novqorod qubernatoruna müraciət etdi.[89]

Lakin Nijni Novqorod birja komitəsi Nobelin niyyətini açıqlayaraq qeyd edirdi ki, "ağac barjların tezalışan olması yox, onların rəqabəti Nobel şirkətini fəryad qaldırmağa məcbur etmişdir və ictimai təhlükəsizlik bunun üçün yalnız əlverişli bəhanə rolunu oynayır".[90]

Bakı neft sənayeçiləri qurultayının Şurası da eyni mövqedə duraraq, ağac barjların qadağan olunmasına qarşı çıxış etdi.[91]

Lakin "Nobel qardaşları" şirkəti öz məqsədinə qismən nail oldu. Belə ki, Nəqliyyat Nazirliyi nəzdindəki komissiya 1885-ci ilin aprel ayında bu məsələni müzakirə edərək, "ağ neftin ağac barjlarda daşınmasına müvəqqəti olaraq, 2 il müddətinə" icazə verdi.[92]

1884-cü ildə ağac barjlarda Rusiyanın mərkəzi quberniyalarına 1 mln. puddan artıq ağ neftin daşınmasına və məhsulun öz keyfiyyətini bu barjlarda daha yaxşı saxlamasına baxmayaraq, Nobelin təzyiqi ilə onlardan imtina etmək lazım gəldi. Bu isə digər neft sənayeçilərinin vəziyyətini ağırlaşdırmaqla yanaşı, neft məhsullarının nəql edilməsi və satışı məsələlərinin Nobel tərəfindən inhisara alınmasına şərait yaradırdı. Birbaşa nəqletmə xətti ilə ildə 2,5 mln. pud neft məhsulları daşınırdı. Bu xəttin xidmətindən əsasən xırda zavod sahibləri istifadə edirdilər. İri şəhərlərdə şəxsi çənlərə malik olan BNC və H.Z.Tağıyev kimi şirkət və sahibkarlar öz ehtiyaclarını tə`min edirdilər. Bununla yanaşı, BNC hər il "Drujina" cəmiyyəti, "S.M.Şibayev və K" isə "Lebed" cəmiyyəti ilə yüklərin daşınması haqqında müqavilə imzalayırdılar.[93]

Lakin onlar şəxsi donanmaya malik olmadıqları üçün Nobel şirkəti ilə rəqabət apara bilmirdilər. 1884-cü ildə "Nobel qardaşları" şirkəti 15 mln. rubl kapitala malik iri səhmdar cəmiyyətə çevrilmişdi. Artıq 1880-ci illərin əvvələrində yeni neftli torpaqlar ələ keçirməklə neft hasilatı və e`malı sahələrində mühüm rol oynamağı başlayan "Nobel qardaşları" cəmiyyəti Rusiyanın neft bazarına hakim olmaq üçün nəqletmə vasitələrini öz əlində cəmləşdirməyi bir vəzifə olaraq ön plana çəkmişdi. 1883-cü ildə şirkət öz kapitalının 3/4 hissəsini bu vəzifənin həllinə yönəltmişdi.[94]

Əsasən ticarət evləri və fərdi müəssisələr çərçivəsində fəaliyyət göstərən Rusiyanın neft sənayeçilərinin, o cümlədən azərbaycanlı sahibkarların satış bazarları ilə bilavasitə əlaqə yaratmaq və Nobel şirkəti ilə rəqabət aparmaq imkanları məhdud idi. 1880-ci illərin əvvəlində güclü donanma yaratmış Nobel isə ağ neftin Rusiya bazarlarına çıxarılmasında liderliyi ələ almışdı. Belə ki, 1885-ci ildə Bakıdan Rusiyanın mərkəzi quberniyalarına aparılan 19,2 mln. pud ağ neftin 10 mln. pudu, yəni 52%-i "Nobel qardaşları" cəmiyyətinin payına düşürdü.[95]

Buna baxmayaraq, müqavilə əsasında satış bazarları ilə birbaşa əlaqə yaratmış digər neft sənayeçiləri tədricən öz fəaliyyət dairələrini genişləndirirdilər. Saritsın vasitəsilə bazarlara çıxışı tə`min etdikdən sonra onlar ağ neftin Zaqafqaziya dəmir yolu və Batum vasitəsilə daşınmasına dair daha bir müqavilə imzaladılar.[96]

1883-cü ildə Zaqafqaziya dəmir yolunda hərəkətin başlanması Bakı neft sənayeçilərinin Avropa bazarlarına çıxmasına imkan yaratdı. Lakin hələ kifayət qədər nəqletmə vasitələrinə malik olmayan bu yolun yükdaşıma qabiliyyəti

məhdud olduğuna görə neft sənayeçilərinin tələbatını ödəmir və müntəzəm olaraq narazılıqlar doğururdu. Bunu nəzərə alan çar hökuməti, nəhayət, yolun yükdaşıma qabiliyyətini yüksəltmək üçün vaqon-çənlərin və parovozların sayını xeyli artırmaq haqqında qərar qəbul etdi. Eyni zamanda, neft məhsullarının Batuma, Cənubi Rusiya və Avropa bazarlarına daşınmasına daha əlverişli şərait yaratmaq məqsədilə 1885-ci ildə Zaqafqaziya dəmir yolunda bir sıra neft məhsullarının daşınma tarifi azaldıldı.[97]

Lakin Avropada Amerika neft sənayeçilərinin güclü rəqabətilə üzləşən Bakı sahibkarları Asiya ölkələrində yeni satış bazarlarına çıxmaq üçün sə`ylər göstərməyə başladılar. XIX əsrin 80-ci illərinin ortalarına qədər bu məsələ ilə əlaqədar bir neçə layihə hazırlanmışdı. 1884-cü ilin fevral ayında "Kaspi" qəzeti xəbər verirdi ki, Zaqafqaziya dəmir yolunun nümayəndələri Nikoladze və Struqovşikov Rəşt şəhərinə qədər dəmir yolu çəkilməsinə razılıq almaq məqsədilə İrana yola düşüblər. Onlara Bakı-Tehran neft kəmərinin çəkilməsi məsələsini də müzakirə etmək tapşırılmışdı. İran hökumətinin razılıq verəcəyi təqdirdə rus hökuməti Zaqafqaziya dəmir yolu cəmiyyətinin rəhbəri S.Palaşkovskiyə "hərtərəfli yardım" və`d edirdi.[98] Lakin bu layihələr həyata keçirilmədi. Elə həmin dövrdə Asiya, Afrika və Avstraliya bazarlarına çıxmaq üçün Xəzər dənizini İran körfəzi ilə birləşdirən ağ neft kəmərinin çəkilməsi ideyası da irəli sürülmüşdü. Hökumət dairələrində müzakirə edilən bu layihə siyasi mülahizələrə görə qəbul olunmadı.[99]

1880-ci illərin ortalarında "Nobel qardaşları" cəmiyyəti neft sənayesində hakim mövqe tutmaq üçün öz fəaliyyətini daha da genişləndirdi. 80-ci illərin əvvəlində neft sənayesini inhisara almaq cəhdləri uğur qazanmasa da, şirkət öz planlarından əl çəkməmişdi.

Lakin Rusiya neft sənayeçiləri hələlik daxili bazarın müəyyən hissəsinə nəzarət edərək, onun bu planlarının qarşısını alırdı. 1885-ci ildə Nobelin onlara yeni müqavilə layihəsini qəbul etdirmək sə`yi də nəticəsiz qaldı.[100]



Azərbaycandan xarici ölkələrə neft məhsullarının daşınmasında Batum limanı mühüm yer tuturdu. Ən iri ixrac müəssisəsi S.Palaşkovskinin tə`sis etdiyi "Xəzər-Qara dəniz neft sənayesi cəmiyyəti" idi. Belə ki, 1884-cü ildə ixrac edilmiş 3,8 mln. pud ağ neftin 44%-dən çoxu onun payına düşürdü. Lakin ağır maliyyə problemləri ilə üzləşən cəmiyyətin nəzarət səhm paketi 1886-cı ildə Paris bankiri Rotşild tərəfindən satın alındı.[101] Bu isə Azərbaycan neft sənayesində qərb kapitalı mövqeyinin daha da möhkəmlənməsinə səbəb oldu.

Qeyd etmək lazımdır ki, 1880-ci illərin əvvəllərində Rusiya kapitalı da tədricən daha yüksək təşkilat formasına-fəaliyyət üçün geniş imkanlar açan səhmdar cəmiyyətə keçirdi. 1885-ci ildə Azərbaycan neft sənayesində 7 səhmdar cəmiyyəti fəaliyyət göstərirdi.[102]

| | Səhmdar cəmiyyəti | Fəaliyyətə başladığı il | Əsas kapitalı |
|---|---|---|---|
| 1 | "Bakı neft cəmiyyəti" | 1874 | 2,3 mln.rubl |
| 2 | "V.İ.Roqozin və K" | 1880 | 3,5 mln.rubl |
| 3 | "S.və İ.Cakeli və K." neft sənayesi və ticarət cəmiyyəti | 1881 | 0,5 mln.rubl |
| 4 | "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti" | 1883 | 6,0 mln.rubl |
| 5 | "Neft" rus cəmiyyəti | 1884 | 3,5 mln.rubl |
| 6 | "Nobel qardaşları" cəmiyyəti | 1880 | 15,0 mln.rubl |
| 7 | "S.M.Şibayev və K" cəmiyyəti | 1884 | 6,5 mln.rubl |

Qarışıq kapitallı "Nobel qardaşları" cəmiyyəti istisna olmaqla, digər 6 şirkət yalnız Rusiya kapitalı əsasında yaradılmışdı.[103] Sonunculardan 3-ü neftçıxarma, 5-i isə e`mal

məhdud olduğuna görə neft sənayeçilərinin tələbatını ödəmir və müntəzəm olaraq narazılıqlar doğururdu. Bunu nəzərə alan çar hökuməti, nəhayət, yolun yükdaşıma qabiliyyətini yüksəltmək üçün vaqon-çənlərin və parovozların sayını xeyli artırmaq haqqında qərar qəbul etdi. Eyni zamanda, neft məhsullarının Batuma, Cənubi Rusiya və Avropa bazarlarına daşınmasına daha əlverişli şərait yaratmaq məqsədilə 1885-ci ildə Zaqafqaziya dəmir yolunda bir sıra neft məhsullarının daşınma tarifi azaldıldı.[97]

Lakin Avropada Amerika neft sənayeçilərinin güclü rəqabətilə üzləşən Bakı sahibkarları Asiya ölkələrində yeni satış bazarlarına çıxmaq üçün sə`ylər göstərməyə başladılar. XIX əsrin 80-ci illərinin ortalarına qədər bu məsələ ilə əlaqədar bir neçə layihə hazırlanmışdı. 1884-cü ilin fevral ayında "Kaspi" qəzeti xəbər verirdi ki, Zaqafqaziya dəmir yolunun nümayəndələri Nikoladze və Struqovşikov Rəşt şəhərinə qədər dəmir yolu çəkilməsinə razılıq almaq məqsədilə İrana yola düşüblər. Onlara Bakı-Tehran neft kəmərinin çəkilməsi məsələsini də müzakirə etmək tapşırılmışdı. İran hökumətinin razılıq verəcəyi təqdirdə rus hökuməti Zaqafqaziya dəmir yolu cəmiyyətinin rəhbəri S.Palaşkovskiyə "hərtərəfli yardım" və`d edirdi.[98] Lakin bu layihələr həyata keçirilmədi. Elə həmin dövrdə Asiya, Afrika və Avstraliya bazarlarına çıxmaq üçün Xəzər dənizini İran körfəzi ilə birləşdirən ağ neft kəmərinin çəkilməsi ideyası da irəli sürülmüşdü. Hökumət dairələrində müzakirə edilən bu layihə siyasi mülahizələrə görə qəbul olunmadı.[99]

1880-ci illərin ortalarında "Nobel qardaşları" cəmiyyəti neft sənayesində hakim mövqe tutmaq üçün öz fəaliyyətini daha da genişləndirdi. 80-ci illərin əvvəlində neft sənayesini inhisara almaq cəhdləri uğur qazanmasa da, şirkət öz planlarından əl çəkməmişdi.

Lakin Rusiya neft sənayeçiləri hələlik daxili bazarın müəyyən hissəsinə nəzarət edərək, onun bu planlarının qarşısını alırdı. 1885-ci ildə Nobelin onlara yeni müqavilə layihəsini qəbul etdirmək sə`yi də nəticəsiz qaldı.[100]



Azərbaycandan xarici ölkələrə neft məhsullarının daşınmasında Batum limanı mühüm yer tuturdu. Ən iri ixrac müəssisəsi S.Palaşkovskinin tə`sis etdiyi "Xəzər-Qara dəniz neft sənayesi cəmiyyəti" idi. Belə ki, 1884-cü ildə ixrac edilmiş 3,8 mln. pud ağ neftin 44%-dən çoxu onun payına düşürdü. Lakin ağır maliyyə problemləri ilə üzləşən cəmiyyətin nəzarət səhm paketi 1886-cı ildə Paris bankiri Rotşild tərəfindən satın alındı.[101] Bu isə Azərbaycan neft sənayesində qərb kapitalı mövqeyinin daha da möhkəmlənməsinə səbəb oldu.

Qeyd etmək lazımdır ki, 1880-ci illərin əvvəllərində Rusiya kapitalı da tədricən daha yüksək təşkilat formasına-fəaliyyət üçün geniş imkanlar açan səhmdar cəmiyyətə keçirdi. 1885-ci ildə Azərbaycan neft sənayesində 7 səhmdar cəmiyyəti fəaliyyət göstərirdi.[102]

| | Səhmdar cəmiyyəti | Fəaliyyətə başladığı il | Əsas kapitalı |
|---|---|---|---|
| 1 | "Bakı neft cəmiyyəti" | 1874 | 2,3 mln.rubl |
| 2 | "V.İ.Roqozin və K" | 1880 | 3,5 mln.rubl |
| 3 | "S.və İ.Cakeli və K." neft sənayesi və ticarət cəmiyyəti | 1881 | 0,5 mln.rubl |
| 4 | "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti" | 1883 | 6,0 mln.rubl |
| 5 | "Neft" rus cəmiyyəti | 1884 | 3,5 mln.rubl |
| 6 | "Nobel qardaşları" cəmiyyəti | 1880 | 15,0 mln.rubl |
| 7 | "S.M.Şibayev və K" cəmiyyəti | 1884 | 6,5 mln.rubl |

Qarışıq kapitallı "Nobel qardaşları" cəmiyyəti istisna olmaqla, digər 6 şirkət yalnız Rusiya kapitalı əsasında yaradılmışdı.[103] Sonunculardan 3-ü neftçıxarma, 5-i isə e`mal

sənayesində fəaliyyət göstərirdi. Azərbaycan neft sənayesində onların xüsusi çəkisi çox cüz"i idi. Belə ki, neftçıxarmada qeyd olunan səhmdar cəmiyyətlərin payı 1,9%, neft e`malında isə 11%-dən bir qədər artıq təşkil edirdi.[104] Göründüyü kimi, həmin dövrdə ticarət evləri və fərdi müəssisələr neft sənayesində həlledici mövqeyə malik idilər.

Beləliklə, XIX əsrin 70-ci illərində və 80-ci illərinin birinci yarısında Azərbaycan neft sənayesinin təşəkkülü prosesində Rusiya kapitalı həlledici rol oynamışdır. Əsas neft yataqlarını ələ keçirərək, Rusiya sənayeçiləri neft hasilatı (83,6%) və e`malı sahələrində (65,5%) möhkəmlənmişdilər. Azərbaycan milli kapitalının neftçıxarmadan fərqli olaraq, e`mal sənayesində nisbətən möhkəm yer tutmasına baxmayaraq, rus və erməni sahibkarları bütövlükdə neft sənayesində daha güclü mövqelərə yiyələnmişdilər. Bununla yanaşı neftli torpaqların icarəyə götürülməsinə və istehsalın təşkilinə böyük kapital sərf etmiş Rusiya sənayeçiləri satış bazarlarına çıxmaq üçün nəqletmə sistemini yarada bilmədilər. Vəziyyətin belə xarakter almasına tə`sir göstərən əsas amillərdən biri ondan ibarət idi ki, XIX əsrin ikinci yarısında ümumi iqtisadi dəyişikliklər yolu tutmuş çar hökuməti neft sənayesində konkret fəaliyyət proqramı hazırlamadan köhnə iltizam sistemini ləğv etmişdi. Neftli torpaqların hərrac yolu ilə icarəyə verilməsi və inkişafın ilk mərhələsində neft sənayesinə maliyyə yardımı göstərməyə xidmət edən nizamlanmış bank sisteminin olmaması Rusiya sənayeçilərini çətin maliyyə problemləri ilə üzləşdirir, yeni sənaye sahəsinin özülünü zəiflədirdi.

Bununla yanaşı, yeni fəaliyyət sahəsində onların kifayət qədər təcrübəyə və işgüzarlıq keyfiyyətlərinə malik olmamaları da işlərin gedişinə öz mənfi tə`sirini göstərirdi. Bütün bu amillər xarici kapitalın axını üçün əlverişli şərait yaradırdı. Məhz yüksək işgüzarlıq keyfiyyətlərinə və kifayət qədər maliyyə vəsaitinə malik olan qarışıq kapitallı



"Nobel qardaşları" cəmiyyəti 1880-ci illərin ortalarında neft sənayesində aparıcı mövqe tutmağa nail oldu.

1886-cı ildə isə Paris bankiri Rotşildin Abşeron neft yataqlarına kapital qoyması ilə Azərbaycan nefti uğrunda mübarizənin yeni mərhələsi başlandı.

Beləliklə, XIX əsrin 70-80-ci illərində Rusiya çarizminin milli-müstəmləkə siyasəti nəticəsində Bakı nefti rus-erməni və Avropa kapitalının inhisarı altına düşdü. Azərbaycan xalqı özünün ən mühüm milli sərvətindən məhrum oldu.

# II FƏSİL

## AZƏRBAYCAN NEFT SƏNAYESİNİN İNHİSARA ALINMASI UĞRUNDA MÜBARİZƏNİN BAŞLANMASI



### §1. Xarici kapitalın cəlb edilməsi məsələsi Rusiyanın hakim dairələrində

1872-ci ildə iltizam sisteminin ləğv edilməsi Azərbaycan neft sənayesinə kapital axınının başlanması üçün əlverişli şərait yaratdı. İlk dövrdə əsas sərmayəçilər Rusiyanın Zaqafqaziya və bə'zi daxili quberniyalarının nümayəndələrindən ibarət idi. 70-ci illərin ortalarından isə Qərbin işgüzar dairələri də Azərbaycan neft sənayesinə xüsusi maraq göstərməyə başlayırlar.

Qərb sərmayəçilərindən Bakıya ilk gələnlər arasında İsveç təbəələri olan Nobel qardaşları 1875-ci ildə kiçik ağ neft zavodu əldə edərək, Azərbaycan neft sənayesində fəaliyyətə başladılar. 1879-cu ildə "Nobel qardaşları" şirkəti yaradılarkən tə'sisçilər arasında Nobel qardaşları ilə yanaşı isveçli Şeqren və Nellis. Rusiya təbəələri P.Bilderlinq və M.Belyamin də var idilər[1]. 70-ci illərin sonunda A.Səlimxanovun neftli torpaqlarını icarəyə götürmüş avstriyalı Y.Docar, 80-ci illərin I yarısında isə Bakıda fəaliyyətə başlamış alman kapitalistləri O.Lens, K.Veyzer, O.Kvel və b. Azərbaycan neft sənayesinə kapital qoymuş qərb sahibkarlarının sırasını genişləndirdilər[2]. Lakin 80-ci illərin ortalarına qədər Azərbaycan neft sənayesində qərb kapitalı nümayəndələrinin sayı çox az idi və Nobel qardaşları istisna olmaqla, onlar bu sahədə nəzərəçarpacaq rol oynamırdılar.

XIX əsrin 80-ci illərinin ortalarında "Xəzər-Qara dəniz cəmiyyəti"nin nəzarət-səhm paketinin Paris bankiri Rotşild tərəfindən alınması Azərbaycan neft sənayesində qərb kapitalı nüfuzunun artması meylini daha da gücləndirdi. Neft ilə zəngin torpaq sahələrinin yalnız Bakı ətrafında məhdud ərazidə yerləşməsi buna əlverişli şərait yaradırdı. Çünki, neft kəmərinin olmaması və Zaqafqaziya dəmir yolunun yükdaşıma imkanlarının məhdudluğu Avropa bazarlarına çıxışı çətinləşdirdiyinə görə Abşerondakı neftli torpaqların dəyəri yüksək olmayıb, eyni məhsuldarlığa malik olan Amerika neft sahələrinə nisbətən 10 dəfə ucuz qiymətləndirilirdi[1]. Bu isə qərb sahibkarlarına az kapital sərf etməklə daha çox neftli sahələr ələ keçirməyə imkan verirdi.

Neft mə'dənləri haqqında 1872-ci il qanununun verdiyi hüquqlardan geniş istifadə edən qərb sahibkarlarının öz fəaliyyət dairələrini genişləndirmələri Rusiya hökuməti mə'murlarının narahatlığına səbəb olurdu. Nəhayət, bu narahatlığın ilk ciddi əlaməti kimi 1887-ci ildə Xəzər-Qara dəniz neft kəmərinin tikintisinə dair layihələrlə əlaqədar qərb sahibkarlarının neft sənayesində iştirakının məhdudlaşdırılması haqqında məsələ Rusiyanın hakim dairələrində ilk dəfə müzakirə edilməyə başladı. Torpaq və Dövlət Əmlak Nazirliyinin layihə ilə bağlı təklifini öyrənən Nazirlər Komitəsi 1887-ci il aprelin 8-də bu planın yalnız Rusiya kapitalının gücü ilə həyata keçirilməsinin qeyri-

mümkünlüyü qənaətinə gəldi. Ona görə də qərb kapitalının bu işə cəlb edilməsini nəzərdə tutan Nazirlər Komitəsi "Qafqazda neftli torpaqların əcnəbilərin mülkiyyətinə keçməsini məhdudlaşdırmağın nə qədər mümkün olmasını" aydınlaşdırmaq barədə qərar verdi[4]. Bu məsələnin öyrənilməsi torpaq və dövlət əmlak naziri M.N.Ostrovski ilə birlikdə daxili işlər və maliyyə nazirlərinə, həmçinin Qafqazda mülki işlər üzrə baş rəisə həvalə edildi.

Dağ-mə'dən departamentinin 1 may 1887-ci il tarixli məxfi məktubuna cavab olaraq, Qafqazın dağ-mə'dən işləri üzrə idarə rəisi may ayının sonunda "Sahiblərinin adı və vətəndaşlığı göstərilməklə, Qafqazda əcnəbilərə məxsus və ya onlar tərəfindən icarəyə götürülmüş neftli sahələr və neft e'malı zavodlarının sayı haqqında" mə'lumatı S.-Peterburqa göndərdi[5].

Qeyd edilən mə'lumatları əldə etdikdən sonra 1887-ci ilin iyulunda torpaq və dövlət əmlak naziri hazırladığı "Neftli torpaqların əcnəbilərin mülkiyyətinə keçməsinin məhdudlaşdırılması haqqında" layihəni rə'y üçün daxili işlər və maliyyə nazirlərinə, Qafqazda mülki işlər üzrə baş rəisə göndərdi[6].

Layihədə təklif edilirdi ki, "qanunun yol verdiyi hər hansı bir əsasla və vasitə ilə olursa-olsun" qərb sahibkarlarına və şirkətlərinə Qafqazda neftli torpaq əldə etmək, eləcə də icarə əsasında onlardan istifadə etmək tamamilə qadağan olunsun. Layihəyə görə, Qafqazdakı azad torpaqlarda kəşfiyyat işlərinin aparılması və neft hasilatı hüququ yalnız Rusiya təbəələrinə verilirdi[7].

Təklif olunan sərt tədbirlərə bəraət qazandıran torpaq və dövlət əmlak naziri M.N.Ostrovski öz mövqeyini onunla əsaslandırırdı ki, qərb sahibkarları tərəfindən neftli torpaqların ələ keçirilməsi nəinki arzuolunmaz iqtisadi nəticələri ilə təhlükə yaradar, həm də çar Rusiyasının Qafqazdakı mənafelərinə sağalmaz siyasi zərbə vura bilər. Çünki, nazirin fikrincə, "neftli torpaqlar mədəni səviyyəsi aşağı olan, rus mədəniyyətinə və dilinə yabançı əhalinin, hətta həmişə sakit olmayan özgə xalqların yaşadığı ərazidə yerləşir. Bu əhali arasında rus sənayesinin inkişaf etdirilməsi onları rus hökmranlığının faydasını qiymətləndirməyə məcbur etmək və rus maraqları ilə yaxınlaşdırmaq üçün qüvvətli dinc vasitə rolu oynaya bilərdi"[8]. Neftli torpaqların qərb sahibkarlarının əlinə keçəcəyi təqdirdə isə "tamamilə başqa proseslərin baş verəcəyini" vurğulayan torpaq və dövlət əmlak naziri M.N.Ostrovski qeyd edirdi ki, "belə halda Qafqaz kimi yeni fəth olunmuş və sakitləşdirilmiş vilayətdə vəziyyətin narahatlıq doğuracağının sübuta ehtiyacı yoxdur"[9].

Göründüyü kimi, çar mə'muru başlıca olaraq siyasi və strateji mülahizələri rəhbər tutaraq, hesab edirdi ki, qərb kapitalının neft sənayesinə nüfuz etməsi Qafqazda rus burjuaziyasının mövqelərini zəiflədəcək və ruslaşdırma siyasətinə zərbə vuracaqdır. Buna görə də Rusiyanın müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edən imperiyanın hakim dairələri onun siyasi maraqlarının tamamilə tə'min edilməsinə nail olmaq məqsədilə Azərbaycanda çarizmin iqtisadi dayaqlarının möhkəmlənməsinə sə'y göstərir və qərb kapitalının neft sənayesinə nüfuz etməsinin qarşısına sədd çəkilməsinin və rus burjuaziyasının hakim mövqe tutmasına daha əlverişli şərait yaradılmasının zəruriliyini əsaslandırmağa çalışırdılar.

Daxili işlər naziri D.A.Tolstoy göndərdiyi rə'yində artıq qərb kapitalistlərinin mülkiyyətində olan neftli torpaqlara dair məsələnin bu layihədə öz həllini tapmadığını göstərsə də, onu tamamilə müdafiə etdiyini bildirdi[10].

Torpaq və Dövlət Əmlak Nazirliyinin hazırladığı layihə Qafqazda mülki işlər üzrə baş rəis knyaz A.M.Dondukov-Korsakov tərəfindən də müsbət qiymətləndirildi. Layihənin şərtləri ilə razılaşan A.M.Dondukov-Korsakov "Xəzər-Qara dəniz cəmiyyəti" səhmlərinin Rotşild tərəfindən əldə edilməsi hadisəsinin təkrar olunmasına yol verməmək üçün əsas diqqəti neft sənayesində fəaliyyət göstərən səhmdar cəmiyyətlərin qərb kapitalının əlinə keçməsini aradan qaldıran tədbirlər görülməsinə yönəldirdi. Bununla yanaşı, o qeyd edirdi ki, yeni qanun "artıq tam mülkiyyət hüququ

əsasında neftli torpaqlara sahib olan" xarici sahibkarlara aid edilməməlidir"[11].

Beləliklə, müzakirənin gedişindən belə qənaətə gəlmək olardı ki, qərb kapitalı tə'sirinin güclənməsi qarşısını almaq üçün çar hökuməti tezliklə qəti addımlar atacaqdır. Lakin Rusiyanın maliyyə naziri İ.A.Vışneqradski ölkənin maliyyə-iqtisadi maraqlarını üstün tutaraq, 3 mart 1888-ci il tarixli məktubunda layihə ilə razı olmadığını bildirib qeyd edirdi ki, "neft sərvətlərinin düzgün və müvəffəqiyyətli istismarı üçün böyük kapital lazımdır, məhz onun azlığı hiss olunur"[12].

Maliyyə nazirinin fikrincə, təklif edilən məhdudiyyətlər nəinki iqtisadi, həm də siyasi cəhətdən özünü doğrultmurdu. Çünki, qərb kapitalının Azərbaycan neft sənayesindən sıxışdırılıb çıxarılması burada rus burjuaziyasının deyil, "yerli əhalidən olan rus təbəələrinin" möhkəmlənməsinə şərait yaradardı ki, bununla da "vilayətin ruslaşdırılması baxımından vəziyyət heç də dəyişməzdi"[13]. Digər tərəfdən, onun sözlərinə görə, "əcnəbilərin hüquqlarının Rusiyada hər cür məhdudlaşdırılması xarici birjalarda mənfi tə'sir doğurur". Təsadüfi deyil ki, İ.A. Vışneqradski qərb sahibkarlarının hüquqlarının məhdudlaşdırılması nəticəsində Rusiyanın Qərb ölkələri ilə münasibətlərinin kəskinləşəcəyindən və imperiyanın maliyyə ehtiyaclarının ödənilməsində çətinliklərin meydana çıxacağından ehtiyat edirdi. Əgər 1888-1889-cu illərdən başlayaraq çarizmin maliyyələşdirilməsində Paris bankiri Rotşildin aparıcı rol oynadığı nəzərə alınarsa[14], maliyyə nazirinin ehtiyatlı mövqeyini əsaslı hesab etmək olar.

Qeyd olunan mülahizələrdən çıxış edən maliyyə naziri təklif edirdi ki, əgər neft sənayesinin mənafeləri qərb sahibkarlarının fəaliyyəti üçün məhdudiyyətlərin qoyulmasını tələb edirsə, onları layihədəki kimi "qəti şəkildə yox", elə formada müəyyən etmək lazımdır ki, əcnəbilər tərəfindən neftli torpaqların əldə edilməsi "yalnız maliyyə və daxili işlər nazirləri, Qafqazda mülki işlər üzrə baş rəis ilə razılaşdırıldıqdan sonra Dövlət Əmlak Nazirliyinin icazəsi



əsasında" mümkün olsun[15]. Bununla belə, İ.A.Vışneqradski həmin tədbirlərin həyata keçirilməsi vaxtının hələ çatmadığını bildirir və onların "daha əlverişli məqama qədər" tə'xirə salınmasını təklif edirdi.

Maliyyə nazirinin dəlilləri digər mə'murların da mövqeyinə tə'sir etdi. Qafqazda mülki işlər üzrə baş rəis dövlət əmlak nazirinə göndərdiyi 31 may 1888-ci il tarixli məktubunda maliyyə nazirinin təklifini nəzərə alaraq, layihənin şərtlərinin yumşaldılmasını mümkün hesab edir və göstərirdi ki, ilk dövrdə qərb kapitalının neft sənayesində fəaliyyətini İ.A.Vışneqradskinin ifadə etdiyi şərtlər əsasında məhdudlaşdırmaq olar. Lakin o, "bu tədbirlərin tə'xirə salınmadan həyata keçirilməsinin" tərəfdarı idi[16].

Beləliklə, məsələnin müzakirəsi zamanı çar hökumətinin nazirləri müxtəlif mövqelərdən çıxış etdilər. Dövlət Əmlak Nazirliyi bütün təklifləri araşdırdıqdan sonra yeni layihə hazırlayıb Nazirlər Komitəsinə təqdim etdi. 24 avqust 1888-ci il tarixli bu sənəddə böyük torpaq sahələrinin artıq "Nobel və Rotşild tərəfindən inhisara alındığı" vurğulanaraq, neftli torpaqların əcnəbi sahibkarların mülkiyyətinə keçməsini məhdudlaşdıran qanunun qəbul edilməsinin tə'xirə salınması arzuedilməz hesab olunurdu[17].

Dövlət əmlak naziri M.N.Ostrovski qeyd edirdi ki, neft sənayesinin ehtiyacını ödəmək üçün zəruri kapitalın azlığı haqqında maliyyə nazirinin narahatlığına əsas yoxdur. Çünki, onun fikrincə, neft sənayesinin özünün deyil, neft məhsullarının daşınması və ticarəti ilə məşğul olan müəssisələrin kapitala ehtiyacı var idi və təklif olunan məhdudiyyətlər isə bu müəssisələrə aid edilmirdi. Bununla yanaşı o, qərb kapitalının "neft sənayesindən tamamilə sıxışdırılmasının, başlıca olaraq, siyasi cəhətdən arzuedilməz olması" haqqında maliyyə naziri İ.A.Vışneqradskinin fikri ilə razılaşırdı. Buna görə də yeni layihədə təklif edilirdi ki, bu məsələnin qəti surətdə həll olunması neft mə'dənləri haqqında qaydaların ümumi şəkildə yenidən müzakirə edilməsinədək tə'xirə salınsın və hələlik "Qafqazda neftli torpaqların qərb kapitalistləri tərəfindən satın alınmasına və

ya istifadəyə götürülməsinə yalnız Maliyyə və Daxili İşlər Nazirlikləri və Qafqazda mülki işlər üzrə baş rəis ilə razılaşdırıldıqdan sonra Dövlət Əmlak Nazirliyi tərəfindən icazə verilsin"[18].

Beləliklə, qərb kapitalının hüquqlarının məhdudlaşdırılması haqqında qanun layihəsinin ilkin variantı maliyyə nazirinin tə'siri nəticəsində ciddi dəyişikliyə mə'ruz qaldı. Amma sonrakı illərdə mə'lum olduğu kimi, təqdim edilmiş qanun layihəsi faktiki olaraq qərb kapitalının Azərbaycan neft sənayesinə nüfuz etməsini məhdudlaşdırmırdı.

Buna baxmayaraq, bu layihə hələ uzun müddət Nazirlər Komitəsində müzakirə obyektinə çevrilmədi.

Nəhayət, 1892-ci il iyunun 3-də neft mə'dənləri haqqında yeni qanun təsdiq edildi. Qanunun 5-ci maddəsində nəzərdə tutulurdu ki, qərb kapitalistləri neftli torpaqlardan istifadə etmək və ya onlar üzərində mülkiyyət hüququnu yalnız daxili işlər və maliyyə nazirləri və Qafqazda mülki işlər üzrə baş rəis ilə razılaşdırıldıqdan sonra dövlət əmlak nazirinin icazəsi ilə əldə edə bilərdilər[19]. Bu müddəalar 1893-cü il Dağ-mə'dən nizamnaməsinin 547-ci maddəsinə də əlavə edildi.

Beləliklə, qərb kapitalının Azərbaycan neft sənayesində iştirakının şərtləri haqqında məsələnin öyrənilməsi və müvafiq qərarın qəbul edilməsi uzun bir dövrü əhatə etdi (1887-1892). Beş il çəkən müzakirələrdən sonra qərb kapitalının neft sənayesinə müdaxiləsini bir qədər məhdudlaşdıran mülayim qərar qəbul edildi. Lakin tezliklə mə'lum oldu ki, qanunda edilmiş dəyişikliklər praktiki olaraq heç bir əhəmiyyət kəsb etmir və qanunvericilər tərəfindən nəzərə alınmır. Ona görə də 1894-cü ildə Torpaq və Dövlət Əmlak Nazirliyi və 1895-ci ildə Maliyyə Nazirliyi "müəyyən edilmiş məhdudiyyətlərin praktikada tətbiq edilmədiyinə və əcnəbilərə daimi maneəsiz olaraq neftli torpaqların əldə edilməsinə icazə verildiyinə" istinad edərək, bəhs olunan maddənin ləğv edilməsini təklif etdilər[20]. Qeyd etmək lazımdır ki, 1892-ci ildən maliyyə naziri vəzifəsini tutan S.Y.Vitte qərb kapitalının Rusiya sənayesinə cəlb edilməsinin fəal tərəfdarı olub, bu istiqamətdə öz sələfi İ.A.Vışneqradskinin siyasətini davam etdirirdi.

Lakin Daxili İşlər Nazirliyi həmin maddənin qüvvədə saxlanılmasına tə'kid edərək, öz mövqeyini onunla əsaslandırmağa çalışırdı ki, hökumət zəruri halda bu maddədən istifadə etməklə, xarici kapitalın neft sənayesində nüfuzunun genişlənməsinin qarşısını ala bilər. Dəyişiklik haqqında təkliflər hakimiyyət dairələrində qəbul edilməyərək, kağız üzərində qaldı.

90-cı illərin ikinci yarısında qərb kapitalının Azərbaycan neft sənayesinə axını güclənir. Tarixən Rusiya üçün xroniki hal olan sərbəst kapitalın azlığı, müəyyən tarixi dövrdə isə ümumiyyətlə olmaması xarici kapitalın Rusiya sənayesinə nüfuz etməsinə əlverişli şərait yaradırdı. Qərb kapitalistləri neft sənayesində fəaliyyət göstərmək üçün ciddi maneə ilə üzləşmədən çar nazirlərinin razılığını alırdılar. Neft sənayesinə daha çox kapital cəlb etməyə çalışan çar hökuməti, eyni zamanda, neftli torpaqların hərracı gedişində sahibkarlar arasında rəqabəti gücləndirmək yolu ilə xəzinənin gəlirini artırmağa sə'y göstərirdi. Amma hökumətin bu addımları müəyyən dairələrdə, o cümlədən Qafqaz idarəsinin mə'murları arasında narazılıq doğururdu. Təsadüfi deyil ki, Qafqazda mülki işlər üzrə baş rəis 1897-ci ilin aprelində dövlət əmlak nazirinə yazdığı məktubda qeyd edirdi ki, neft sənayesinin xarici kapitalistlərin əlinə keçməsini məhdudlaşdırmaq məqsədilə qəbul edilmiş qanun "əcnəbilərə çox tez-tez icazələrin verilməsi nəticəsində öz əhəmiyyətini itirməyə başlayır"[21]. Ona görə də bu qanunun səmərəliliyini artırmaq üçün Qafqazda mülki işlər üzrə baş rəis knyaz Qolitsın artıq fəaliyyətdə olan neft mə'dənlərinin əcnəbilər tərəfindən alınmasını qadağan etməyi və neft sənayesinin daha da inkişaf etməsinə imkan yaratmaq məqsədilə həmin kapitalın yalnız yeni neft yataqlarının kəşfiyyatına və istismarına yönəltməyi təklif edirdi[22]. İki il sonra isə Qafqazda mülki işlər üzrə baş rəis bir qədər də sərt mövqe tutaraq təklif edirdi ki, neft sənayesində fəaliyyət göstərmək istəyən səhmdar cəmiyyətlərinin yaranması-

na "onların idarə hey'ətinə yalnız xristian dininə sitayiş edən rus təbəələrinin seçilməsi şərti ilə icazə verilsin"[23].

Göründüyü kimi, Rusiyanın mühüm coğrafi-siyasi və iqtisadi əhəmiyyətə malik olan Azərbaycanda möhkəmlənməsinə çalışan çar mə'murları nəinki qərb kapitalistlərini, eləcə də yerli azərbaycanlıları ölkənin neft sərvətlərinə yaxın buraxmamağa sə'y göstərir, onları iqtisadi dayaqlardan da məhrum etmək üçün yollar arayırdılar.

Təsadüfi deyil ki, qərb kapitalının Azərbaycan neft sənayesində iştirakı məsələsi həmin dövrdə daimi olaraq hökumət dairələrinin diqqət mərkəzində dururdu. Neft sənayesini yalnız rus kapitalının nüfuz dairəsində saxlamağa çalışanların çoxu ancaq dövlətin deyil, həm də öz şəxsi mənafelərini güdürdülər.

1898-ci ilin martında böyük knyaz Aleksandr Mixayloviç imperatora məktub göndərərək, neftli torpaqların bir hissəsini hərracsız, "hökumətin icazəsi olmadan torpaqları heç kimə verməmək öhdəliyi götürmək şərti ilə öz mövqeyi, şöhrəti və s. ilə tanınmış rus təbəələrinə" verməyin zəruriliyini qeyd edirdi. Əlbəttə, o, öz mənafeyini də yaddan çıxarmır və ümumi sahəsi 25 des. artıq olan 8 neftli torpaq sahəsinin güzəştli şərtlərlə onun ixtiyarına verilməsini xahiş edirdi. Böyük knyazın fikrincə, neftli torpaqların bu qayda ilə bölüşdürülməsi neft sahələrinin əcnəbilərin əlinə keçməsinin qarşısını alardı[24].

Eyni məzmunlu çoxsaylı müraciətlərdən sonra imperatorun fərmanı ilə 1898-ci ilin mart ayında "Xüsusi müşavirə" yaradıldı. Dövlət Şurası Qanunlar departamentinin sədri, maliyyə, daxili işlər, dövlət əmlak nazirlərinin və Qafqazda mülki işlər üzrə baş rəisin daxil olduğu müşavirə qüvvədə olan 1892-ci il neft mə'dənləri haqqında qanuna yenidən baxmalı və zəruri hesab edilərsə, yeni qanunun hazırlanması barədə qərar çıxarmalı idi[25].

"Xüsusi müşavirə" torpaq və dövlət əmlak naziri A.Yermolov tərəfindən təqdim olunmuş "Bakı neft mə'dənlərinin istismar şərtləri haqqında" qeydləri müzakirə etdi. Nazir göstərirdi ki, "neft mə'dənləri haqqında 1892-ci il qanunundan əsaslı şəkildə kənara çıxmaq" neft sənayesinin mənafeyinə cavab vermir və neft sahələrinin hərracsız istifadəyə verilməsi məqsədəuyğun deyil. Bununla yanaşı, Azərbaycandakı neftli torpaqların qərb kapitalistləri tərəfindən ələ keçirilməsinin qarşısını almaq məqsədilə təklif edilirdi ki, neftli torpaqların hərracında yalnız Rusiya təbəələri iştirak etsinlər və bu torpaqlar gələcəkdə digər şəxslərin istifadəsinə "ancaq daxili işlər və maliyyə nazirləri, eləcə də Qafqazda mülki işlər üzrə baş rəis ilə razılaşdırıldıqdan sonra torpaq və dövlət əmlak nazirinin xüsusi icazəsi əsasında" verilsin. Qanunun pozulacağı təqdirdə bütün torpaqlar əvəzsiz olaraq dövlətin xeyrinə müsadirə edilməli idi[26].

Müzakirələrin gedişində qeyd edilirdi ki, neft sənayesində qərb kapitalının müstəsna tə'sirə malik olması məqsədəuyğun deyil çünki, "sənayenin bu sahəsi artıq formalaşmışdır və əcnəbi pionerlərin yardımına ehtiyacı yoxdur". Amma onların fəaliyyətinin tamamilə qadağan olunması da arzuolunmaz hesab edilirdi[27].

Qərb kapitalının neft sənayesində fəaliyyət göstərməsinə tərəfdar çıxan maliyyə naziri S.Y.Vitte isə öz mövqeyini onunla əsaslandırırdı ki, Rusiyadan neft və neft məhsulları ixracının inkişafı "əcnəbilərin fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır"[28].

Məsələnin müzakirəsinə yekun vuran "Xüsusi müşavirə" belə nəticəyə gəldi ki, qərb kapitalının neft sənayesində iştirakı onun inkişafı üçün "nəinki zərərlidir, hətta faydalı və arzuolunandır". Buna görə də 1898-ci il iyunun 3-də qərara alındı ki, "hazırda qüvvədə olan Dağ-mə'dən nizamnaməsinin neft hasil etmək üçün neftli dövlət torpaqlarının fərdi şəxslərə verilməsi və eləcə də əcnəbilərin Qafqazın neft mə'dənlərinə buraxılması qaydasına heç bir dəyişiklik edilməsin"[29].

"Xüsusi müşavirə"nin bu qərarı 1899-cu il mayın 1-də imperator tərəfindən təsdiq edildi[30].

Beləliklə, qərb kapitalının Azərbaycan neft sənayesinə kütləvi surətdə nüfuz etməsi və Rusiya kapitalı ilə çulğa-

laşması ilə səciyyələnən dövr - XIX əsrin 80-ci illərinin ikinci yarısı - 90-cı illərin sonu hakim dairələrdə qərb sahibkarlarının neft sənayesində iştirakı şərtlərinin qızğın müzakirəsi ilə müşayiət olunmuşdur. Müzakirələr zamanı Rusiyanın ayrı-ayrı hökumət qurumlarının müxtəlif fikirləri toqquşurdu. Qanunun hazırlanmasında iştirak edən hökumət mə'murları öz mövqelərini müvafiq qərarların qəbul edilməsinin mümkün iqtisadi və siyasi nəticələrinə istinad etməklə əsaslandırırdılar. Əgər səlahiyyət dairəsinə bilavasitə Azərbaycan neft sənayesinin daxil olduğu Qafqaz idarəsi və Torpaq və Dövlət Əmlak Nazirliyi fəal surətdə qərb kapitalının neft sənayesində iştirakını məhdudlaşdırmağa çalışırdılarsa, Maliyyə Nazirliyi bu təkliflərin əleyhinə çıxır və narahatlıqla qeyd edirdi ki, bu addımın atılması bir tərəfdən, Rusiyanın Avropa ölkələri ilə mövcud iqtisadi və siyasi əlaqələrinin, digər tərəfdən isə ölkə daxilində iqtisadi vəziyyətin pisləşməsinə gətirib çıxara bilər. Qərb kapitalının Azərbaycan neft sənayesinə nüfuz etməsinin tamamilə qadağan olunmasını tə'kid edən bir sıra çar mə'murlarının sə'ylərinə baxmayaraq, uzun müzakirədən sonra qərb sərmayəsinin neft sənayesinə cəlb edilməsinin tərəfdarları (müəyyən məhdudiyyətlərlə olsa da) üstünlük qazandılar. Bu isə 1890-cı illərin sonunda Azərbaycan neft sənayesinə qərb, xüsusilə ingilis kapitalı axınının güclənməsinə təkan verdi. Nəticədə XIX əsrin sonunda Azərbaycan neft sənayesində rus və Avropa kapitalının mövqeləri daha da möhkəmləndi. Bununla yanaşı, Avropa kapitalının neft sənayesində geniş iştirakı bu sahənin texniki cəhətdən yüksək inkişaf səviyyəsinə nail olmasında mühüm rol oynadı. Neft sənayesinin inkişafı digər sənaye sahələrinin də yüksəlişinə güclü tə'sir göstərdi. XX əsrin əvvəllərində Bakı iri sənaye mərkəzlərindən birinə çevrildi.





## §2 Neft sənayesində inhisarlaşma prosesinin başlanması

İltizam sisteminin buxovlarından azad olmuş Azərbaycan neft sənayesində XIX əsrin 80-ci illərinin ortalarına doğru dərin dəyişikliklər baş verdi və o, yüksək sür'ətlə inkişaf etməyə başladı. Əgər 1873-cü ildə 3,9 mln. pud neft hasil edilmişdisə, 1886-cı ildə bu rəqəm 113,2 mln. puda çatmışdı. Həmin dövr ərzində ağ neft istehsalı 1,2 mln. puddan 36,4 mln. puda yüksəlmişdi[31].

İltizam sisteminin ləğv edilməsindən sonra neft sənayesinin təşəkkül tapmasında həlledici rol oynamış Rusiya kapitalı 1880-ci illərin ortalarında neft hasilatı və e'malı sahələrində möhkəmləndi. 1886-cı ildə Azərbaycanda hasil edilmiş neftin 81.5 mln. pudu (72%-i), istehsal olunmuş ağ neftin isə 23.8 mln. pudu (65.3%-i) Rusiya kapitalının payına düşürdü. H.Z.Tağıyev və M.Nağıyevin rus-erməni kapitalının nümayəndələri ilə kəskin rəqabət şəraitində

fəaliyyət göstərərək neft sənayesində kifayət qədər möhkəm yer tutmalarına baxmayaraq, bütövlükdə Azərbaycanın milli kapitalının mövqeyi zəif idi. Belə ki, 1886-cı ildə azərbaycanlı sahibkarlar təxminən 10.7 mln. pud neft (ümumi hasilatın 9.4%-i), 9 mln. pud ağ neft (24.7%) istehsal etmişdilər[32]. Neft hasilatı sahəsində istehsal gücü 5 mln. puddan çox olan 6 şirkət arasında "Nobel qardaşları" şirkəti aparıcı mövqe tuturdu(23.9 mln. pud). Qərb, Azərbaycan, rus və erməni kapitalını təmsil edən digər 5 şirkətin isə gücünü aşağıdakı rəqəmlər əks etdirir[33]:




Göründüyü kimi, neft hasilatı sənayesində aparıcı rol oynayan şirkətlər sırasında Azərbaycan kapitalının yeganə təmsilçisi olan H.Z.Tağıyevin şirkəti, demək olar ki, digərləri ilə eyni səviyyədə dururdu.

1886-cı ildə neft e'malı sənayesində fəaliyyət göstərən 104 şirkətdən yalnız 9-u 1 mln. puddan çox ağ neft (kerosin) istehsal edirdi. "Nobel qardaşları" şirkəti 10.9 mln puda bərabər istehsal gücü ilə liderliyi əldə saxlayırdı. 1886-cı ildə Rotşildlər tərəfindən satın alınmış "Xəzər - Qara dəniz cəmiyyəti" isə 1.2 mln. pud ağ neft istehsal etmişdi. Digər 7 şirkət aşağıdakı ardıcıllıqla yerləşmişdi[34].

Ağ neft istehsalı, mln. pud






Göründüyü kimi, Azərbaycan kapitalını təmsil edən H.Z.Tağıyev və M.Nağıyev neft e'malı sənayesində iri şirkətlər qrupuna daxil olsalar da, ümumilikdə qərb, rus və erməni kapitalı bu sahədə də hakim mövqe tuturdu.

Eyni zamanda, yuxarıda qeyd edilən rəqəmlər Azərbaycan neft sənayesində istehsalın təmərküzləşmə səviyyəsini göstərir. Əgər neft hasilatı sahəsində illik hasilat gücü 5 mln. puddan çox olan 6 iri şirkətin payına (1886-cı ildə 70 şirkət neftçıxarma sahəsində fəaliyyət göstərirdi) bütün hasil olunan neftin 54.9%-i düşürdüsə, e'mal sənayesində 104 firmadan istehsal gücü 1 mln. puddan çox olan 9 iri şirkət bütün ağ neftin 65.1%-ni istehsal etmişdi[35]. Lakin qeyd etmək lazımdır ki, istehsalın təmərküzləşməsi göstərilən iri müəssisələr arasında özünü qeyri-bərabər şəkildə büruzə verirdi. Belə ki, bir qütbdə "Nobel qardaşları" şirkəti, digər qütbdə isə ümumi istehsal həcmi "Nobel qardaşları" ilə, demək olar ki, eyni səviyyədə olan digər şirkətlər dururdu.

Neft sənayesinin inkişafı yeni satış bazarlarına çıxışın tə'min olunmasını zəruri edirdi. Lakin Zaqafqaziya dəmiryolunun nəqləmə imkanlarının məhdudluğu neft sənayeçilərini öz məhsullarını xarici bazarlara ixrac etməkdən məhrum edirdi. Bu isə ağ neftin Rusiyanın daxili bazarında yığılıb qalmasına səbəb olurdu. Məhz buna görə 1886-cı ildə daxili bazarda qiymətlərin kəskin şəkildə düşməsi istehsalçılara ciddi ziyan vurdu.

"Nobel qardaşları" şirkəti Rusiyanın müxtəlif şəhərlərində böyük anbarlara və nəqliyyat vasitələrinə malik olduğuna görə lazımi vaxtda istənilən satış məntəqəsinə operativ surətdə tələb olunan qədər ağ neft göndərə bilirdi. Ondan fərqli olaraq neft sənayeçilərinin əksəriyyəti, bir neçə sahibkarı istisna etməklə, nəqletmə vasitələrinin olmamasına görə öz məhsullarını yalnız Saritsın bazarında satmaq məcburiyyətində idilər. 1886-cı ildə isə burada 1 pud ağ neftin qiyməti 26 qəpikdən yuxarı qalxmırdı ki, bu da hətta istehsal xərclərinin ödənməsinə kifayət etmirdi[36].

Qeyd olunan çətinliklərlə əlaqədar olaraq, 1887-ci ildə xarici bazarlarda ağ neftə olan tələbat 40-50 mln. puda çatdığı halda ixracın həcmi 11 mln. puddan çox deyildi. Eyni zamanda, tələbatı 20-22 mln. pud olan Rusiyanın daxili bazarında təklif yüksək olduğundan çıxarılan məhsul satılmayıb yığılıb qalırdı. Nəticədə zavod sahiblərinin çoxu öz müəssisələrini bağlamağa məcbur olurdular. Təsadüfi deyil ki, 1886-cı ilin əvvəlində 136 zavoddan yalnız 89-u fəaliyyət göstərirdi[37].

Neft sənayesində yaranmış həmin çətin vəziyyətdən çıxmaq üçün bir sıra layihələr təklif olunurdu. Belə layihələrdən biri Azərbaycanın neft sənayeçisi H.Z.Tağıyev tərəfindən irəli sürülmüşdü. 1886-cı il yanvarın 11-də İmperator Rus Texniki Cəmiyyətinin Bakı şö'bəsi üzvlərinin ümumi yığıncağında "Neft sənayesi böhranından necə çıxaq?" mövzusunda mə'ruzə edən H.Z.Tağıyev neft sənayesinin iltizam sisteminin ləğv olunması vaxtından başlayaraq keçdiyi inkişaf yolunu təhlil etmiş, böhranı doğuran iki əsas səbəbi və çıxış yollarını göstərmişdi. O, təklif edirdi ki, dünya bazarlarında amerikalılarla bərabər səviyyədə rəqabət aparmaq üçün ilk növbədə ağ neftin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində qəti tədbirlər görülsün. Bununla yanaşı, o, nəinki Rusiyada, həm də dünya bazarında möhkəmlənmək üçün vahid ticarət cəmiyyətinin yaradılmasını zəruri hesab edirdi[38].

Yaradılması nəzərdə tutulan "Bakı ticarət cəmiyyəti" ümumi yığıncaqdan və idarə hey'ətindən ibarət olmalı idi. İl ərzində cəmiyyətə təhvil verilmiş hər 500 min pud ağ neft ümumi yığıncaqda bir səs almaq hüququ verirdi. İllik istehsal gücü 500 min puddan az olan sənayeçilər birləşməklə bir səs qazana bilərdilər. Ümumi yığıncaqlarda qərar iştirakçıların 2/3 səs çoxluğu ilə qəbul edilirdi.

Beləliklə, təklif olunan layihəyə əsasən ticarət cəmiyyətində hakimiyyət bir neçə iri şirkətin əlinə keçməli idi. Çünki, məhsulun əsas hissəsini ağ neft istehsalçıları arasında aparıcı mövqe tutan kiçik qrup istehsal edirdi. 1886-cı ilin mə'lumatına görə Bakı neft rayonunda illik istehsal



gücü 500 min puddan çox olan 11 şirkət var idi[39]. Deməli, yaradılması nəzərdə tutulan sindikatda səs çoxluğu bu kiçik qrupun əlində cəmlənməli idi.

Cəmiyyət öz üzvü olan ağ neft zavodu sahiblərini istehsal üçün zəruri hesab edilən bütün xammalla tə'min etməli, hazır məhsulun daşınması və satışını həyata keçirməli idi. Sindikat üzvləri öz zavodlarının il ərzində istehsal etdiyi bütün ağ nefti cəmiyyətə təhvil verməli idilər. Cəmiyyətin ixtiyarında olan ağ neftin satış qiymətini ümumi yığıncaq müəyyən edirdi[40].

H.Z.Tağıyevin mə'ruzəsi böyük maraq doğurdu və Rus Texniki Cəmiyyətinin Bakı şö'bəsinin ümumi yığıncağında geniş müzakirə edildi. Müzakirədən sonra dağ-mə'dən mühəndisi Semyannikov "məsələnin əhəmiyyətini nəzərə alaraq mə'ruzənin çap edilməsi barədə qubernatora müraciət etməyi" və yerli qəzetlərə, habelə texniki cəmiyyətin üzvlərinə göndərməyi təklif etdi[41].

Lakin bu layihə o zaman həyata keçirilmədi[42]. Layihənin əsas ideyası yalnız bir neçə il sonra - 90-cı illərin əvvəllərində " Bakı standartı"nın yaradılması ilə reallığa çevrildi.

Beləliklə, böhranın dərinləşməsinin qarşısını almaq və vəziyyəti yaxşılaşdırmaq məqsədilə Bakı neft sənayeçilərinin göstərdikləri cəhdlər müsbət nəticə vermədi, digər tərəfdən ağ neft istehsalçılarının çoxunun məhsula tələbatın olduğu bazarlara çıxmaq üçün zəruri kapitala malik olmaması onları bir neçə iri neft sənayeçiləri ilə qeyri-bərabər müqavilələr bağlamağa məcbur edirdi.

1886-cı ilin əvvəllərində Azərbaycan neft sənayesinə qədəm qoymuş Paris bankiri Rotşild Bakı neft sənayeçilərinin üzləşdiyi çətinliklərdən istifadə edərək, öz fəaliyyət dairəsini genişləndirmək üçün qəti addımlar atmağa başladı. Yerli neft sənayeçiləri ilə müqavilələri yalnız bir ildən sonra bağlamağa başlayan Rotşild 1886-cı il ərzində zavod sahiblərindən onlar üçün sərfəli olan qiymətlə ağ neft alırdı. Qiymətlərin kəskin şəkildə aşağı düşməsi Volqaboyu istiqamətində ticarətə ziyan vururdu. Batumda isə qiymətlər

16 qəpikdən yuxarı qalxmayaraq, 1886-cı ilin mayında hətta 9 qəpiyə düşmüşdü. Belə vəziyyətdə Rotşild hər pudu 18 qəpiyə Batuma ağ neft göndərilməsi barədə yerli sənayeçilərlə razılığa gəldi[43]. Bu isə digər ixracatçıları da qiyməti qaldırmağa məcbur etdi və nəticədə qiymətlərin müəyyən qədər yüksəlməsinə səbəb oldu. Bakıda istehsal olunmuş ağ neftin bir hissəsini öz əlində cəmləmiş Rotşild şirkəti artıq 80-ci illərin sonunda neft sənayesində aparıcı rol oynayan kampaniyalar sırasına daxil oldu. O, ağ neftin xarici bazarlara ixrac olunmasında hakim mövqe qazanmaq niyyətində idi.

Maliyyə Nazirliyinin dəmir yolu departamentinin 21 sentyabr 1889-cu il tarixli mə'lumatına görə Rotşildin "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti" Bakının 50 neft şirkəti ilə imzaladığı müqavilə əsasında aldığı ağ nefti xarici bazarlara çıxarırdı. Həmin şirkətlər Zaqafqaziya dəmir yolunda zəruri olan nəqletmə vasitələrinə malik idilər[44].

Lakin elə 1889-cu ildə Bakı birjasında qiymətlərin orta hesabla 26 qəpikdən yuxarı qalxması vəziyyəti kəskin şəkildə dəyişdi. Qiymətlərin artmasına baxmayaraq Rotşild öz kontragentlərinə 21.5 qəp., yə'ni birjada digər ixracatçıların ödədiyi qiymətdən 5 qəp. az verirdi[45]. Müqaviləyə görə isə neft sahibkarları Rotşilddən başqa heç kimə neft məhsulları sata bilməzdilər[46]. Buna görə Bakı neft sənayeçilərinin çoxu Rotşilddən asılı vəziyyətə düşərək, özləri üçün əlverişli olmayan şəraitdə fəaliyyət göstərirdilər. Çünki, xarici bazarlara birbaşa çıxmaq imkanları olmayan neft şirkətləri Rotşildin xidmətlərindən istifadə etməyə məcbur idilər, əks təqdirdə onlar çıxılmaz vəziyyətə düşə bilərdilər. Zaqafqaziya vilayətinin aksiz vergiləri üzrə rəisi S.V.Markov Maliyyə Nazirliyinə göndərdiyi məktubda diqqəti bu məsələyə yönəldirdi. O, təklif edirdi ki, Rotşildin Bakı neft sənayesini inhisara almasının "iqtisadi və dövlətçilik nöqteyi-nəzərindən bu qədər əlverişsiz nəticələrinə qarşı tədbirlər görülsün"[47]. S.V.Markov hesab edirdi ki, Zaqafqaziya dəmir yolu yalnız dövlət tərəfindən istismar edilməlidir və yalnız dövlət orqanları bu magistralda hərəkəti nizamlamaq və qayda-qanunu tə'min etmək imkanına malikdir. Digər tərəfdən, S.V.Markov təklif edirdi ki, neft sənayesinin Rotşild tərəfindən inhisara alınmasını aradan qaldırmaq üçün dövlət "Rotşildin şərtlərinə nisbətən yerli neft sənayeçilərinə daha əlverişli kredit verilməsini həyata keçirməlidir. ...Fərdi təşəbbüsə bəslənən ümid isə yenə də yalnız Rotşildə və ya onun kimi digər şəxslərə müraciətlə nəticələnəcəkdir"[48].

Lakin bu təkliflər o zaman qəbul edilmədi və Maliyyə Nazirliyinin neft sənayesindəki proseslərin nizamlanmasına fəal müdaxiləsi bir neçə ildən sonra başlandı və ilk iri sindikatın - "Bakı ağ neft zavodu sahiblərinin ittifaqı"nın yaradılması ilə nəticələndi.

XIX əsrin 80-ci illərinin sonunda ağ neft ixracatı əsasən qərb şirkətləri və ya qarışıq kapitala malik kampaniyalar tərəfindən həyata keçirilirdi. 1889-cu ildə istehsal edilmiş 63.2 mln. pud ağ neftin 38.3 mln. pudu, yə'ni 62.2%-i xarici bazarlara ixrac olunmuşdu. Əsas ixrac məntəqəsi olan Batum vasitəsilə 33 mln. pud (86.2%) ağ neft ixrac edilmişdi[49]. Xarici bazarlara çıxarılan ağ neftin 43%-i neft məhsullarının xarici ticarətində aparıcı yer tutan Rotşildin "Xəzər-Qara dəniz cəmiyyəti"nə məxsus idi. Rusiyanın daxili bazarlarında hakim mövqeyə malik "Nobel qardaşları" cəmiyyəti ağ neft ixracatının 13%-nə nəzarət edirdi. Məhsulun digər hissəsi Naşauer (7%), Rixner (7%), Mantaşev (5%) və başqa xırda ixracatçılar tərəfindən (25%) göndərilmişdi[50].

Beləliklə, neft hasilatı və e'malı sahələrində əsasən möhkəm yer tutan Rusiya kapitalı (o cümlədən qismən də azərbaycanlı sənayeçilər) xarici ticarətdə çox zəif təmsil olunmuşdu. Bununla yanaşı, demək olar ki, həmin şirkətlərin heç biri xaricdə sərbəst ticarət aparmaq imkanına malik deyildi. Buna görə də onlar xaricə çıxarılan neft məhsullarını bu funksiyanı yerinə yetirən iri qərb şirkətlərinə satırdılar[51].

Bir il sonra Rotşildin xarici ticarətdəki payının azalmasına baxmayaraq, onun şirkəti yenə də Batum vasitəsilə ağ neft ixracatında mühüm rol oynayırdı. 1890-cı ildə Bakıdan Batuma aparılmış 44.2 mln. pud ağ neftin 3.9 mln. pudu Rotşild zavodunun payına düşürdü. Bununla yanaşı, Rotşild müqavilə əsasında Tağıyevin 2.1 mln. pud, "Xəzər cəmiyyəti"nin 1.4 mln. pud və başqa sahibkarların 2.9 mln. pud ağ neftini ixrac etmişdi. Əgər müqavilə ilə əldə edilmiş ağ neftə satın alınmış məhsul da əlavə edilsə, Rotşild şirkətinin ixracının ümumi həcmi 12.6 mln. puddan çox olar[52]. Bu isə Azərbaycandan ixrac edilən ağ neftin 28.4%-ni təşkil edirdi.

Lakin bununla bərabər qərb şirkətləri Rusiya kapitalistlərini, o cümlədən yerli neft sənayeçilərini xarici ticarət sahəsindən tamamilə sıxışdırıb çıxarmağa nail olmadılar. Rotşild 1891-ci ildə əvvəlki kontragentləri ilə müqavilələri bərpa etməyərək, ağ neftin satın alınmasına üstünlük verdi. O, yerli istehsalçılardan hər pudu 21-22 qəpiyə ağ neft alsa da, tezliklə bazarda qiymətin 12-14 ,qəpiyə düşməsi nəticəsində çətin vəziyyətlə üzləşdi və ziyanla işləməyə başladı[53]..

90-cı illərin əvvəlində qiymətlərin düşməsi və böhranın dərinləşməsi Bakı neft sənayeçilərinin "Bakı standartı" adlı xarici ticarət sindikatı yaratmalarına səbəb oldu. Sindikatın yaradılması haqqında müqavilə 1891-ci ilin aprel ayında imzalandı. Bu birliyə H.Z.Tağıyev, A.Saturov, Q.M.Lianozov və başqa neft sənayeçiləri daxil oldular[54]. Sindikat öz fəaliyyətinə 1891-ci ilin oktyabrında Bakıda ağ neft satışı ilə başladı. İlk əməliyyat zamanı "Rixner və K", Mantaşev və Yenqelidis firmalarına pudu 6 qəpikdən 500 vaqon ağ neft satıldı[55]. Lakin neft məhsullarının qiymətinin aşağı olması və sindikat üzvlərinin sayının məhdudluğu neft ticarətindəki vəziyyətə əsaslı tə'sir göstərməyə imkan vermirdi[56]. "Bakı standartı"nın iştirakçıları 1890-cı ildə 18 mln. pud ağ neft e'mal etmişdilər ki, bu da "Nobel qardaşları" şirkətinin istehsal gücünə bərabər idi[57]. Həmin məhsulun 12 mln. pudunu sindikat Zaqafqaziya dəmir yolu



ilə daşımışdı. Öz əlində böyük həcmdə neft məhsulları cəmləməsinə baxmayaraq, "Bakı standartı" xarici bazarlarda müstəqil surətdə fəaliyyət göstərə və amerikalılarla rəqabət apara bilmirdi. Mətbuatın verdiyi mə'lumata görə, sindikat iştirakçıları Amerika şirkətləri ilə danışıqlara başlamağa cəhd etsələr də, bu təkliflər onun "daha böyük ticarət orqanı kimi formalaşacağına qədər" məqbul sayılmamışdı[58].

Buna baxmayaraq, "Bakı standartı"nın yaranması xarici ticarətdə qərb kapitalının mövqeyini sarsıtdı. İxrac olunan ağ neftin xeyli hissəsini itirdiyinə görə Rotşild öz kontragentləri ilə birlikdə artıq əvvəlki qüvvəyə malik deyildi. Rotşild ilə kontragent müqaviləsi imzalamış 28 şirkətdən 1891-ci ilin sonuna yalnız aşağıdakı 6 şirkət qalmışdı:




**1890-ci ildə Batuma daşınmışdır, mln. pud**

Rotşild öz zavodunda istehsal etdiyi ağ neftlə birlikdə bəhs olunan dövrdə Batumda 10,3 mln. pud məhsula malik idi(59). Lakin H.Z.Tağıyev artıq "Bakı standartı"na daxil olmuşdu, digər müqavilələrin isə müddəti ilin sonunda başa çatırdı. Buna görə də Rotşildin sərəncamında orta hesabla 6-7 mln. pud ağ neft qalırdı. Beləliklə,o, 1890-cı ildə Zaqafqaziya dəmir yolu ilə yalnız özünün 7.3 mln. pud ağ neftini ixrac etmiş "Nobel qardaşları" şirkətindən də geri qalırdı[60].

Göründüyü kimi, 1890-cı ilin sonunda Azərbaycandan neft məhsulları ixrac edən 3 böyük qrup formalaşmışdı: ix-

rac imkanları 10-12 mln. pud olan "Bakı standartı", 7-8 mln. pud ağ neftə malik "Nobel qardaşları" cəmiyyəti və bazarlara 6-7 mln. pud məhsul çıxarmağa qadir olan "Xəzər-Qara dəniz cəmiyyəti". Lakin ixrac olunan 44 mln. pud ağ neftin 20 mln. pudu bu qruplara daxil olmayan 33 xırda ixracat firmasının əlində idi[61]. Bu isə, əlbəttə, ağ neft ixracatının ümumi vəziyyətinə tə'sir göstərməyə bilməzdi. Bakıdan neft məhsulları ixrac edən şirkətlərin öz aralarındakı rəqabəti onları dünya bazarında amerikalılarla mübarizədə zəiflədirdi. Bundan başqa, zəruri kapitala və müstəqil xarici ticarətin aparılmasında təcrübəyə malik olmayan "Bakı standartı" böyük çətinliklərlə üzləşdiyinə görə onları dəf etmək üçün birgə fəaliyyət göstərmək təklifi ilə Rotşildə müraciət etdi. Rotşild isə sindikatda iştirak etməyə razılıq versə də, başqaları ilə eyni hüquqlar əsasında təmsil olunmaq təklifini qəbul etməyib, xarici şirkətdə komisyonçu (müəyyən faizlə vasitəçilik etmək) və sərəncamverici kimi müstəsna hüquqlara malik olması şərtlərini irəli sürdü. "Bakı standartı" Rotşildin şərtlərini rədd etdi[62]. Bundan sonra öz fəaliyyətini gücləndirməyə çalışan sindikat Batumda bir neçə ağ neft rezervuarı aldı.

"Bakı standartı" xarici ticarət fəaliyyətində ciddi dönüş yaratmaq üçün 1891-ci ilin sonunda yeni bir cəhd göstərərək, "Nobel qardaşları" şirkəti ilə müqavilə bağlamaq qərarına gəldi. Lakin o, tezliklə bu ideyadan əl çəkdi[63].

Sərbəst şəkildə dünya bazarlarına çıxa bilməyən sindikat xarici ticarətin təşkili üçün müəyyən şəxslərin xidmətindən istifadə edirdi. Belə ki, 1892-ci ildə bu sahədə tanınmış komisyonçulardan biri olan Q.K.İzenbəylə müqavilə imzalayan "Bakı standartı" xarici bazarlarda satmaq üçün ona 3 mln. pud ağ neft vermişdi[64].

Qeyd etmək lazımdır ki, sindikat iştirakçılarının tərkibi sabit deyildi və bir sıra neft sənayeçiləri müxtəlif səbəblər üzündən onu tərk etmişdilər. Nəhayət, 1892-ci ilin aprel ayında sindikatın tərkibi formalaşdı. Sindikata H.Z.Tağıyev, Q.M.Lianozov, Budaqov qardaşları və A.İ.Mantaşev daxil oldular[65]. "Bakı standartı"nın üzvləri 1892-ci ildə 15.7 mln. pud ağ neft istehsal etmiş və onun 8.4 mln. pudunu xarici bazarlara çıxarmaq üçün Zaqafqaziya dəmir yolu ilə daşımışdılar[66]. Bakı neft sənayeçilərinin ilk sindikatının fəaliyyətini daha ətraflı öyrənmək üçün onun təşkilati sənədlərini tədqiq etmək və quruluşunu araşdırmaq lazımdır. Lakin bu sənədlər tədqiqatçılar tərəfindən aşkar edilməmişdir. O dövrün mətbuatının yazdığına görə, sindikat öz müqavilə şərtlərini gizli saxlayırdı. Buna baxmayaraq, mənbələrin, xüsusilə mətbuatın öyrənilməsi göstərir ki, sindikatda bir payın qiyməti 25 min rubl olub sahibinə 500 min pud ağ neft ixrac etmək hüququ verirdi[67]. Bu rəqəmlərə əsaslanaraq, müəyyən etmək olar ki, 1892-ci ildə "Bakı standartı"nda ümumi məbləği 420 min rubla bərabər olan 16.8 pay var idi.

Neft məhsullarının ixracında aparıcı yer tutan Nobel və Rotşild şirkətləri 1892-ci ildə Batuma müvafiq olaraq 9.6 mln. pud və 5.9 mln. pud ağ neft daşımışdılar. Göründüyü kimi, üzvlərin azalmasına baxmayaraq, "Bakı standartı" Azərbaycan neft sənayesində mühüm yer tutmağa nail olmuşdu. 1893-cü ilin sonunda "Bakı standartı" neft məhsullarının satışı haqqında ingilis şirkətinin sahibi A.Süart ilə müqavilə imzaladı[68]. Bununla yanaşı, sindikat xarici bazarlarla birbaşa əlaqə yaratmaq üçün addımlar atırdı. Kampaniyanın nümayəndəsi A.Mantaşev bu istiqamətdə qəti tədbirlər görərək, bir neçə rezervuar inşa etdi və tutumu 300 min pud ağ neft olan gəmi (tanker) aldı[69].

Bəhs olunan dövrdə Bakı zavodlarında istehsal olunan ağ neftin xeyli hissəsi Rusiya bazarlarında satılırdı. Neft sənayeçilərinin çoxu öz mallarını Volqaboyu bazarlara və digər şəhərlərə göndərirdilər. Burada Nobel ilə digər sahibkarlar arasında kəskin rəqabət gedirdi. 1888-ci ildə Rusiya bazarlarına çıxarılmış 24.6 mln. pud ağ neftin 9.4 mln. pudu, yə'ni 38%-i, 1889-cu ildə isə 27.8 mln. pud ağ neftin 12.7 mln. pudu (45%) Nobelin payına düşürdü[70]. Onun sindikat birliyi yaratmaq məqsədilə müqavilə imzalamaq cəhdləri baş tutmadı. Buna görə də Nobel başqa üsula əl ataraq, xırda şirkətlərin istehsal etdiyi ağ nefti satın almaq

yolu ilə Bakı zavodlarının məhsulunu tədricən öz əlində toplayırdı. Əgər "Nobel qardaşları" şirkəti 1889-cu ildə 600 min pud ağ neft almışdısa, 1890-cı ildə 1.730 min pud, 1891-ci ildə isə 2.286 min pud ağ neft almışdı və bu meyl ildən-ilə yüksələn xətt üzrə inkişaf edirdi[71]. Yaranmış vəziyyət onunla nəticələndi ki, Rusiyanın daxili bazarında "ağ neft ticarətinin inhisara alınması problemi Nobel tərəfindən gündəlikdən çıxarılmasa da, yaxın dövr üçün arxa plana keçdi. Digər neft sənayeçilərinin isə Nobelsiz hər hansı müqavilə imzalaması praktiki olaraq mümkün deyildi"[72].

Beləliklə, yaranmış qüvvələr nisbəti, aparıcı rol oynamasına baxmayaraq, Nobeli digər neft sahibkarlarının mənafeyini nəzərə almağa məcbur edirdi.

Göründüyü kimi, 90-cı illərin əvvəllərində "Nobel qardaşları" şirkətinin və "Xəzər-Qara dəniz cəmiyyəti"nin neft sənayesində yüksələn nüfuza malik olmasına və neft məhsullarının satışında tədricən aparıcı yer tutmasına baxmayaraq, sıralarında H.Z.Tağıyev və M.Nağıyev kimi azərbaycanlı neft sahibkarlarının da olduğu yerli sənayeçilər və Rusiya kapitalistləri qərbin iri neft sənayeçiləri ilə qeyri-bərabər rəqabət mübarizəsində öz mövqelərini qoruyub saxlaya bilmişdilər.

Sonrakı dövrdə neft sənayesinin inkişafı neft hasilatının və ağ neft istehsalının sür'ətlə artmasında özünü büruzə verdi[73]:






Beləliklə, 5 il ərzində Azərbaycanda neft hasilatı və ağ neft istehsalı 1,5 dəfədən çox artmışdı. Lakin Rusiya bazarlarının neft məhsullarına olan tələbatı təklifdən geri qalırdı. Buna görə də dünya bazarlarına çıxış Azərbaycan neft sənayesinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Təsadüfü deyil ki, Zaqafqaziya dəmir yolu ilə daşınan neft məhsullarının həcmi getdikcə artırdı[74]:

**Ağ neftin daşınması, mln. pud**




Göründüyü kimi, Batuma daşınan ağ neftin həcmi Xəzər dənizi ilə aparılan daşımalardan fərqli olaraq, yüsək sür'ətlə artırdı. Lakin Bakı neft sənayeçilərinin müxtəlif qruplarının bir-birilə rəqabət aparması xarici ticarətin uğurla həyata keçirilməsi üçün ciddi maneələr yaradırdı. Aydındır ki, yalnız "Bakı standartı"nın fəaliyyəti neft məhsulları bazarında əhəmiyyətli dəyişikliklərə gətirib çıxara bilməzdi. Bunun üçün iri şirkətləri cəlb etməklə onun fəaliyyət dairəsini genişləndirmək lazım idi. Bu sahədə tə'xirəsalınmaz tədbirlərin həyata keçirilməsini 1892-ci ildə özünü Bakı neft sənayesində tələbatın azalması, qiymətlərin aşağı düşməsi, hasilatın artma sür'ətinin azalmasında və s. büruzə verən böhran da tələb edirdi. Eyni zamanda, 1892-ci ildə Bakı rayonunu əhatə etmiş vəba epidemiyası ağır vəziyyəti daha da kəskinləşdirirdi. Xəstəliyin kütləvi şəkildə yayılması əhalini şəhəri tərk etməyə sövq etdiyinə görə neft mə'dənlərində işçi qüvvəsinə kəskin ehtiyac yaranmışdı. Gündəlik əmək haqqı 60-70 qəpikdən 1 rubla qalxmışdı[75].

1892-ci ildə neft hasilatının inkişaf sür'əti əvvəlki illərə nisbətən kəskin surətdə aşağı düşmüşdü. Əgər 1890-cı ildə neft hasilatının artımı 13,5% və 1892-ci ildə 21,6% olmuşdusa, 1892-ci ildə bu rəqəm cəmi 4,3% təşkil etmişdi[76].

Neft sənayesi şirkətlərinin ağ neft ixracının tənzimlənməsi üzrə tədbirlərin müzakirəsi üçün yaradılmış xüsusi komissiyanın sədri V.İ.Kovalevskiyə göndərdikləri mə'ruzədə qeyd edilirdi ki, "əgər 1 pud neftin normal qiyməti 3 1/4 qəp. qəbul edilərsə, orta satış qiymətlərinin 1891-ci ildə 2 3/4 qəp. və 1892-ci ildə 1 qəp. olması ilə əlaqədar neftçıxarma sənayesinin iki il ərzindəki ziyanı 8 mln. rubla çatır"[77].

Neftin qiymətinin aşağı düşməsi Abşeronda qazma işlərinin gedişinə də güclü tə'sir göstərmişdi[78]:




Göründüyü kimi, 1891-ci ilə qədər qazma işləri sür'ətlə artmışsa, 1892-ci ildə qazılan quyuların sayı kəskin surətdə azalmışdır.

Böhran neft e'malı sənayesinə də güclü zərbə vurmuşdu. Maliyyə Nazirliyinin 17 iyul 1892-ci il tarixli mə'lumatına görə neft e'malı zavodlarının çoxu bağlanmışdı. Fəaliyyətdə olan 7 zavoddan isə yalnız Nobelin zavodu tam



gücü ilə işləyirdi. Rotşildin, Mantaşevin, "Xəzər cəmiyyəti"nin, Şibayevin və Aramovun zavodları istehsalı azaltmağa məcbur olmuşdular. Q.M.Lianozovun zavodu isə öz fəaliyyətini uzun fasilədən sonra bərpa etmişdi[79]. Ümumiyyətlə, 1892-ci ildə Bakı rayonunda mövcud olan 150 zavoddan 43-ü istehsalı tamamilə dayandırmış, qalan 107 zavodun xeyli hissəsi isə yalnız fasilələrlə işləyirdi[80].

Böhranın doğurduğu çətin vəziyyət həm də dünya bazarlarında Bakı neft sənayeçilərinin qarşılıqlı rəqabəti ilə yanaşı, Amerika şirkətlərinin rəqabəti və xarici bazarlarla birbaşa əlaqənin olmaması ilə dərinləşirdi. Buna görə də Avropa bazarlarında ağ neft satışından ziyan çəkən Bakı ixracatçıları Asiya ölkələrinə üz tutaraq yeni satış bazarları axtarmaq məcburiyyətində qalırdılar.

XIX əsrin 70-ci illərinin ikinci yarısından başlayaraq Asiya ölkələrinə neft məhsulları ixrac edən Amerika şirkətlərindən fərqli olaraq, Azərbaycandan şərq bazarlarına neft məhsullarının ilk partiyası 1886-cı ilin dekabr ayında gətirilmişdi. Lakin neft məhsullarının müntəzəm daşınması yalnız yarım ildən sonra - 1887-ci ilin iyun ayından həyata keçirilməyə başlandı[81]. İlk illər Azərbaycanın ağ nefti Amerika məhsullarının geniş yayılmadığı Batuma yaxın olan limanlara göndərilirdi. 1888-ci ildə Uzaq Şərqə 4 mln. pud ağ neft ixrac edilmişdi. Bu dövrdən e'tibarən Bakı ağ neftinin ümumi ixracında Asiya bazarlarının nisbi çəkisi artmağa başlayır[82]:



Göründüyü kimi, Asiya bazarlarına daşınan ağ neftin həcmi tədricən artaraq 1893-cü ildə Bakıdan Batum limanı vasitəsilə ixrac edilən məhsulun, demək olar ki, yarısına qədərini təşkil edirdi. Qeyd etmək lazımdır ki, Asiya ölkələri ilə ticarətdə Bakı ağ neftinin bütün ixracatçıları iştirak etmirdi. Yeni satış bazarları ilə əlaqə yaradan şirkətlər sırasında yalnız "Xəzər-Qara dəniz cəmiyyəti" (Rotşild), "Burkqardt və K" və "Batum sindikatı" var idi[83]. Lakin "Burkqardt və K" 1891-ci ilin yanvarında öz fəaliyyətini dayandırdı. Elə həmin vaxt "Rixner və K", Sovyanov qardaşları, A.İ.Mantaşev və Melkonyansın daxil olduğu "Batum sindikatı"ndan sonuncu iki sahibkarın çıxması nəticəsində sindikatda yalnız "Rixner və K" və Sovyanov qardaşları qaldılar[84]. Statistik mə'lumatlar göstərir ki, ümumi ixracatda olduğu kimi, şərq ticarətində də Avropa kapitalı hakim mövqe tuturdu. 1891-ci ilin mə'lumatına görə, "Xəzər-Qara dəniz cəmiyyəti" və "Rixner və K" Batumda müvafiq olaraq 16 milyon və 4 milyon pud neft məhsulları qəbul etmişdilərsə, Sovyanov qardaşları yalnız 2.4 mln. pud ağ neft məhsullarına malik idilər[85].

Lakin yalnız Uzaq Şərq bazarlarına çıxış əldə etməklə məsələnin həllinə və böhranın dəf edilməsinə ümid bəsləmək olmazdı. Mövcud problemlərlə yanaşı, ucuz kreditin və Qara dənizdə şəxsi ticarət donanmasının olmaması, Zaqafqaziya dəmir yolunun yükdaşıma qabiliyyətinin məhdudluğu və s. amillər böhranlı vəziyyətin aradan qaldırılmasına mane olurdu.

Beləliklə, yaranmış vəziyyət böhrandan çıxmaq və neft sənayesinin inkişafına nail olmaq üçün qətiyyətli tədbirlərin həyata keçirilməsini tələb edirdi. Belə mürəkkəb şəraitdə Bakının neft sənayeçiləri yeni ixracat sindikatının yaradılması haqqında razılığa gəldilər. 1892-ci il noyabrın əvvəlində "Kaspi" qəzeti yazırdı ki, "yeddi iri şirkət ağ neft ixracını öz əllərində cəmləmək məqsədilə bu işin təşkili üsulları barədə ciddi düşünürlər... Daha əhəmiyyətlisi odur ki, bu qrupa "Bakı standartı" da qoşulur"[86]. Gözləmək olardı ki, bu cəhd bütün əsas qüvvələri səfərbər edərək



xarici bazarda möhkəmlənə biləcək iri sindikatın yaradılması yolunda atılmış ilk addım olacaqdır. Azərbaycan neft sənayesində istehsalın təmərküzləşmə səviyyəsinin yüksəlməsi bu istiqamətdə uğurlu addımların atılmasına şərait yaradırdı. 1892-ci ildə Bakıda illik hasilat gücü 10 mln. puddan çox olan 11 şirkət (ümumi hasilatın 58.9%-i onların payına düşürdü) fəaliyyət göstərirdi. Azərbaycanda istehsal olunan ağ neftin 68.9%-i isə illik hasilat gücü 2 mln. puddan çox olan 10 müəssisənin əlində cəmlənmişdi[87]. Göründüyü kimi, təmərküzləşmə səviyyəsi e'mal sahəsində daha yüksək idi. İri istehsalçıların birləşməsi nəticəsində daxili rəqabəti dəf edərək, digər xırda istehsalçıları öz mənafeyinə tabe etmək mümkün olardı. Lakin istehsalın iri şirkətlər arasında qeyri-bərabər şəkildə mərkəzləşməsi (10 iri kompaniyanın istehsal etdiyi ağ neftin 45.8%-i yalnız Nobel və Rotşildin payına düşürdü) Azərbaycan neft sənayesinin inhisara alınması prosesində onların maraq və mövqelərinin fərqlənməsində mühüm rol oynayırdı. Buna baxmayaraq, 90-cı illərin əvvəllərində baş verən böhran sindikatın yaradılması haqqında ilkin razılaşmanın əldə olunmasına gətirib çıxardı. "Kaspi" qəzetinin yazdığına görə, H.Z.Tağıyev "Xəzər cəmiyyəti"nin tə'sisçilərindən biri Qukasov, "Nobel qardaşları" şirkətinin səlahiyyətli nümayəndəsi Nikolayev və b. müqavilənin müzakirəsi və imzalanması məqsədilə 1892-ci il noyabrın 20-də "Zaqafqaziya dəmir yolunun sərnişin qatarı ilə Bakıdan Tiflisə və oradan hərbi Gürcüstan yolu ilə Rostov-Dona yola düşmüşdülər[88]. 1892-ci il dekabrın 2-də orada "Yeddi şirkət ittifaqı"nın yaradılması haqqında müqavilə imzalandı. "İttifaq"a "Nobel qardaşları" cəmiyyəti, "S.M. Şibayev və K", "Xəzər cəmiyyəti" və "Bakı standartı"nın dörd üzvü - H.Z.Tağıyev, A.İ. Mantaşev, Q.M.Lianozov və Budaqov qardaşları daxil oldular[89]. "Yeddi şirkət ittifaqı" ilə bağlı məsələlər dövri mətbuat və çap olunmuş arxiv sənədləri cəlb edilməklə V.A.Nardovanın əsərində işıqlandırılmışdır[90]. Lakin arxiv sənədlərinin araşdırılması zamanı aşkar etdiymiz "Yeddi şirkət ittifaqı"nın yaradılmasına dair müqavilənin

surəti bu sindikatın quruluşu və fəaliyyət prinsipi haqqında daha geniş mə'lumat əldə etməyə imkan verir.

"İttifaq"ın iştirakçıları müəyyən neft məhsullarına "xarici qiymətlərə uyğun surətdə eyni satış qiyməti" tə'yin etməklə xarici ticarəti tənzimləməyi əsas məqsəd kimi qarşıya qoymuşdular[91]. İstehsal olunan məhsulun eyni tərkibə məxsus olmasını tə'min etmək və keyfiyyətini yaxşılaşdırmaq qərara alınmışdı. Müqavilədə Bakıda fəaliyyət göstərən xırda sahibkarların çətin vəziyyətindən istifadə edərək, onların məhsulunu ucuz qiymətə almaqla neft sənayesinə zərbə vuran yerli möhtəkirlərə və xarici alıcılara qarşı mübarizənin aparılması nəzərdə tutulurdu.

Müqavilənin 2-ci maddəsinə görə "İttifaq"in əsas kapitalı 448 min rubl təsdiq edilmişdi. Bu məbləğin 170 min rublu "Nobel qardaşları"şirkətinin payına düşürdü. "S.M.Şibayev və K" şirkəti 57 min rubl, "A.İ.Mantaşev və K" ticarət evi 55 min rubl, H.Z.Tağıyev 46 min rubl, "Xəzər cəmiyyəti" 45 min rubl, Q.M.Lianozov 40 min rubl və Budaqov qardaşları 35 min rubl ödəmişdilər[92]. Sindikatın əsas kapitalı zəruri halda müqavilə iştirakçılarının qərarı ilə artırıla bilərdi. Bu vəsait sindikat üçün anbar və rezervuarların tikilməsinə, kontragentlərə avans verilməsinə və s. ehtiyacların ödənilməsinə sərf edilməli idi.

Hər 5 min rubl məsələlərin həlli zamanı müvafiq şirkətə bir səs almaq hüququ verirdi. Əsas kapitalın formalaşmasında 170 min rubl paya malik olmasını nəzərə alaraq, "Nobel qardaşları" şirkətinə 34 səs verilməli idi. Lakin "idarə hey'ətində böyük əksəriyyət qazanmaması üçün" ona 30 səs almaq hüququ verilmişdi[93]. Beləliklə, müqavilənin 3-cü maddəsinə əsasən sindikatın fəaliyyətinə dair məsələlərin həll edilməsi zamanı "Nobel qardaşları" şirkəti 30, "S.M.Şibayev və K" şirkəti 11, "A.İ.Mantaşev və K" ticarət evi 11, H.Z.Tağıyevin şirkəti 9, "Xəzər cəmiyyəti" 9, Q.M.Lianozov 8 və Budaqov qardaşları 7 səslə çıxış etmək hüququ qazanmışdılar. Yığıncağın səlahiyyətli olması üçün 50 səsə malik neft sahibkarının iştirakı zəruri idi. Qərarlar yığıncaq iştirakçılarının sadə səs çoxluğu ilə qəbul edilirdi[94].



Göründüyü kimi, böyük səs çoxluğuna malik olan Nobel öz planlarının həyata keçirilməsi üçün tə'minat almamışdı. Çünki, sindikatın digər üzvləri onların mənafeyinə cavab verməyən qərarların qarşısını almaq üçün zəruri sayda səsə malik idilər.

"Yeddi şirkət ittifaqı"nın yaradılması haqqında müqavilənin 7-ci maddəsində həmin sənədin 5 il müddətində, yə'ni 1898-ci il aprelin 1-nə qədər qüvvədə olması təsdiq edilmişdi[95].

Lakin sindikat iştirakçılarının münasibətləri yalnız bu müqavilə ilə məhdudlaşmırdı. Bununla yanaşı, sindikat üzvlərinin fəaliyyəti daha bir sıra sənədlərlə tənzimlənirdi. Belə ki, "Yeddi şirkət ittifaqı"nın nümayəndəsi kimi, Nobel xırda zavod sahibləri ilə saziş imzalayaraq, "zavodun illik istehsal gücünə" uyğun müvafiq ödənişlə onların zavodlarını icarəyə götürmək hüququ alırdı. Bundan sonra Nobel zavod sahibləri ilə yeni bir sənəd - "neft məhsulları istehsal etmək üçün zavodun öz sahibinə verilməsi haqqında" müqavilə imzalayırdı[96]. Bu müqaviləyə görə, Nobel zavod sahiblərini ağ neft istehsalı üçün zəruri olan bütün məhsullarla, o cümlədən xam neft ilə tə'min etməli idi.

İmzalanmış müqavilələrin şərtlərinə görə, "Yeddi şirkət ittifaqı"nın kontragentləri iki hissəyə bölünürdü. Onların bir qrupu sindikatın gəlirindən pay almaq şərtilə ona qəbul olur və istehsal etdiyi ağ neftin hər puduna görə 2.5 qəp. alırdı. Bu vəsaitin 1 qəpiyi zavodun "İttifaq" tərəfindən icarəyə götürülməsinə görə, 1.5 qəpiyi isə ikinci müqavilənin şərtinə əsasən istehsal xərclərinin ödənilməsi, inzibati aparatın saxlanması və s. görə verilirdi.

"Nobel qardaşları" şirkəti müəssisənin işinin əsas təşkilatçısı kimi illik gəlirin 30%-ni, kontragentlər isə birlikdə yerdə qalan 70%-ni alırdılar.

Kontragentlərin ikinci qrupu isə "Yeddi şirkət ittifaqı"nın fəaliyyətində onun illik gəlirindən mənfəət əldə etmək hüququna malik olmadan iştirak edirdi. Onlar müqaviləyə şərtinə uyğun olaraq, Nobeldən istehsal üçün zəruri olan bütün xammalı və "təhvil verdikləri ağ neftin hər pu-

duna görə 4 qəp." alırdılar. "Nobel qardaşları" şirkəti kontragentlərin istehsal etdikləri bütün ağ nefti və e'mal nəticəsində alınmış digər neft məhsullarını qəbul etməli idi. Müqavilənin şərtinə görə, Nobel zəruri hesab etdiyi vaxtda kontragentlərin zavodlarının illik istehsal həcmini ixtisar etmək və ya onların işini müəyyən müddətə dayandırmaq hüququna malik idi. Lakin buna baxmayaraq, "İttifaq"ın gəlirindən pay almaq hüququ olmayan kontragentlər, müqavilə ilə müəyyən edildiyi kimi, yenə də yalnız təhvil verilən ağ neftin hər puduna görə 4 qəpik, sindikatın gəlirinin bölünməsində iştirak edən kontragentlər isə 1.5 qəpik alırdılar[97].

Göründüyü kimi, Nobel öz əlində böyük səlahiyyət toplayaraq, kontragentlərə şərtlərini diqtə etmək imkanı qazanmışdı.

Qeyd etmək lazımdır ki, kontragentlərin fəaliyyəti üçün müəyyən olunmuş məhdudiyyətlər "Nobel qardaşları" şirkətinə aid edilməmişdi. Belə ki, onun orta illik istehsalı 17 mln. pud ağ neft həcmində nəzərdə tutulmuşdu. "Yeddi şirkət ittifaqı"na daxil olan kompaniyaların ümumi istehsal gücü isə 1892-ci ildə 44 mln. puddan bir az çox idi. Statistik mə'lumatlar hər bir şirkətin 1892-ci il üçün istehsal gücünü aydın əks etdirir (mln. pud)[98]:




1. **"Nobel qardaşları" 41%**
2. **"A.İ.Mantaşev və K" 14%**
3. **"S.M.Şibayev və K" 13%**
4. **"Xəzər səmiyyəti" 11%**
5. **"H.Z.Tağıyev" 9%**
6. **"Q.M.Lianozov" 8%**
7. **"Budaqov qardaşları" 5%**



Göstərilən rəqəmlərdən aydın olur ki, ağ neft istehsalı sahəsində "Nobel qardaşları" şirkətinin liderlik mövqeyi möhkəm idi. İstehsal gücünə görə eyni səviyyədə duran digər şirkətlər qrupuna isə rus və erməni neft sahibkarları ilə yanaşı H.Z.Tağıyev də daxil idi.

Rostov müqaviləsində yalnız xarici ticarətin tənzimlənməsi məsələləri öz əksini tapmışdı. Lakin neft sənayeçiləri qarşısında duran əsas vəzifələrdən biri Rusiyanın daxili bazarlarında yaranmış çətinliklərin aradan qaldırılmasından ibarət idi. Buna görə də Rostov görüşü zamanı Rusiya imperiyasının daxili bazarlarında vəziyyətin sabitləşdirilməsi məsələləri də müzakirə edildi.

"Nobel qardaşları" şirkəti istisna olmaqla, demək olar ki, bütün firmalar Rusiya bazarlarında öz ticarətini sərbəst şəkildə deyil, yalnız komisyonçular və digər alıcıların vasitəsi ilə həyata keçirirdilər. Bununla yanaşı, şirkətlər böyük maliyyə vəsaiti sərf edərək, ölkənin əsas bazarlarında öz nümayəndələrini saxlayırdılar. Bütün bu amilləri əsas götürərək, görüş iştirakçıları qərara aldılar ki, Rusiya bazarlarında ağ neft ticarətinin Nobel tərəfindən yaxşı təşkil olunmasını nəzərə alıb, həmin bazarlarda bütün ticarəti "Nobel qardaşları" şirkətinə həvalə etsinlər[99].

Beləliklə, altı iri şirkət Rusiyada ağ neft ticarətinin Nobel tərəfindən həyata keçirilməsi barədə razılığa gəldi. Sazişin şərtinə əsasən Nobel öz xidmətinə görə gəlirin 1.5%-ni alırdı. Lakin bu müddəalar Rostov müqaviləsinə daxil edilməmişdi. Əldə olunmuş razılığa görə hər firma ayrılıqda Nobel ilə yeni müqavilə imzalamışdı.

Nəhayət, "Yeddi şirkət ittifaqı"nın yaranması "Nobel qardaşları" şirkətinə Bakıda fəaliyyət göstərən neft sənayeçilərinin qüvvəsindən istifadə etməklə Rusiya bazarlarında möhkəmlənmək imkanı verdi.

Digər tərəfdən, ağ neft ixracının inhisara alınması uğrunda mübarizədə "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti" xüsusi fəallıq nümayiş etdirirdi. Cəmiyyətin Bakıdakı ağ neft zavodu sahibləri ilə 5 il müddətinə imzaladığı müqavilələrin şərtinə görə, kontragentlər Zaqaf-

qaziya dəmir yolu ilə Batuma daşıdıqları ağ nefti yalnız Rotşildə verməli idilər. Rotşild isə onlardan qəbul etdiyi məhsulu komisyonçu kimi, lakin "öz mülahizəsi əsasında" satırdı[100].

Müqaviləyə görə, əməliyyatın başlanğıcında Rotşild kontragentlərə avans və ya "kiçik faizli" kredit verirdi. Şirkət ilk bir il ərzində zavod sahiblərinə ağ neftin bir puduna görə 9 qəp. minimum qiymət üçün tə'minat verirdi. Sonrakı dövrdə isə minimum qiymət xam neft və ağ neftin mövcud qiymətlərinə uyğun surətdə müəyyən edilməli idi.

1892-ci ilin mə'lumatına görə, Rotşild öz kontragentləri ilə birlikdə 20 mln. pud ağ neft ixrac etmişdi[101]. İxrac olunan məhsulun 5.9 mln. pudu illik istehsal gücü 7.6 mln. pud ağ neft olan Rotşild şirkətinin öz payına düşürdü[102].

Meydana gəlmiş iki qrup - Rotşild qrupu və Nobel başda olmaqla "Yeddi şirkət ittifaqı" Bakıdan daşınan ağ neftin böyük hissəsini öz əllərində cəmlədi. Belə ki, 1892-ci ildə Bakıdan çıxarılmış 78.5 mln. pud ağ neftin 20 mln. pudu Rotşild qrupuna, 50 mln. pudu isə "Yeddi şirkət ittifaqı"na (yeddi iri şirkət 44 mln. pud, kontragentlər isə 6 mln. pud ağ neft daşımışdılar) məxsus idi. Göründüyü kimi, Bakıdan aparılan ağ neftin yalnız 8.5 mln. pudu bu iki qrupun tə'sir dairəsindən kənarda qalan neft sənayeçilərinin payına düşürdü[103].

Beləliklə, 90-cı illərin əvvəlində neft sənayesində dərinləşməkdə olan böhran şəraitində Bakı neft sənayeçiləri vəziyyətdən çıxış yolunu bütün ağ neft ticarətini öz nəzarətinə almış sindikat birliklərinin yaranmasında görürdülər. Sindikatların meydana gəlməsində Qərbi Avropa sahibkarları ilə yanaşı Rusiya sənayeçiləri də fəal iştirak edirdilər. Satış bazarlarına çıxarılan neft məhsullarının əsas hissəsi Rusiya sahibkarları, o cümlədən azərbaycanlı neft sənayeçiləri tərəfindən istehsal edilsə də, ticarət əməliyyatlarının həyata keçirilməsində qərb sərmayəçiləri həlledici rol oynayırdılar.

Sindikatların yaranması neft sənayesinin vəziyyətinə müsbət tə'sir göstərdi. Hökumət nümayəndələrinin verdiyi



mə'lumatlardan aydın olurdu ki, artıq 1893-cü ilin yanvar-fevral aylarında bütün neftayırma zavodları tam gücü ilə işləyirdi. Fontanla çıxarılan neftin çox olmasına baxmayaraq, xam neftin qiyməti kifayət qədər yüksək - 2.5 qəp. və daha artıq idi. Bakıda ağ neftin qiyməti də 12-13 qəpiyə qalxmışdı, ixrac olunan ağ neftin miqdarı getdikcə artırdı. Bununla yanaşı, vəziyyətin tənzimlənməsi və satış bazarlarının bölünməsi üçün Rotşild və Nobel arasında danışıqlar başlandı. Onların arasında imzalanmış müqaviləyə görə, Rusiyanın daxili bazarları "Yeddi şirkət ittifaqı"nın nümayəndəsi Nobelin nüfuz dairəsinə verilir, xarici bazarlar isə "Yeddi şirkət ittifaqı" və Rotşild qrupu arasında bölüşdürülürdü[104].

Lakin "Bakı standartı"nın üzvləri imzalanmış müqaviləni iki iri şrikətin tə'sirinin güclənməsi kimi qiymətləndirərək, bir sıra şərtin, o cümlədən sindikatın ixrac etdiyi bütün ağ neftin Nobelin adından satılması haqqında müddəanın əleyhinə çıxış etdilər və 1893-cü ilin mayında "Yeddi şirkət ittifaqı"ndan çıxdılar[105]. "Bakı standartı"nın sindikatdan çıxması nəinki Rotşild ilə, həm də artıq danışıqların aparıldığı amerikalılarla müqavilələrin imzalanmasına imkan vermədi[106].

Bu hadisə bəhs olunan dövrdə Rusiya və Azərbaycan sahibkarlarının Bakı neft sənayesində mühüm rol oynadıqlarını və proseslərin gedişinə kifayət qədər güclü tə'sir göstərmək imkanlarına malik olduqlarını nümayiş etdirirdi. Məhz onların qəti mövqeyi və öz mənafelərini qorumaq sahəsində fəal sə'yləri nəticəsində Nobel və Rotşildin 80-ci illərin ortaları - 90-cı illərin əvvəllərində Azərbaycan neft sənayesini inhisara almaq cəhdləri uğur qazanmadı.

Beləliklə, 1880-ci illərin ortalarından 1890-cı illərin əvvəllərinə qədər olan dövrdə Azərbaycan neft sənayesinin inkişafı yüksək artım sür'əti ilə xarakterizə olunur. Həmin illər ərzində istehsalın iri neft şirkətlərinin əlində təmərküzləşməsi prosesinin güclənməsi neft sənayesinin inhisara alınmasına şərait yaradırdı. Tədqiq edilən materiallar göstərir ki, bu proses qərb və Rusiya kapitalının (o cümlədən

Azərbaycan milli kapitalının) sıx qarşılıqlı əlaqəsi çərçivəsində baş verirdi. Bu qarşılıqlı əlaqənin səciyyəvi cəhəti ondan ibarət idi ki, əgər Rusiya kapitalı neft hasilatı və e'malı sahələrində hakim mövqe tutmuşdusa, qərb sahibkarları neft məhsullarının daşınması və satışı sahəsində üstünlük qazanmışdılar. Məhz bu şəraitdən istifadə edərək qərb kapitalının əsas təmsilçiləri olan Nobel və Rotşild digər şirkətlərin sərbəst ticarət fəaliyyətini məhdudlaşdırmağa çalışırdılar. Lakin araşdırmalardan aydın olduğu kimi, həmin dövrdə "inhisar birliklərin təşkilində iki qarşılıqlı istiqamətin mövcud olması Bakı neft sənayesi üçün səciyyəvi idi"[107]. Nobel və Rotşildin başqa sahibkarlara öz sindikat müqaviləsi şərtlərini qəbul etdirmək cəhdləri bir qrup neft şirkəti tərəfindən müqavimətlə qarşılandığı üçün tam uğur qazana bilmədi. Qeyd etmək lazımdır ki, qərb kapitalının hegemonluq planlarının həyata keçirilməsinə mane olan neft şirkətləri azərbaycanlı sahibkarlarla birlikdə Rusiya kapitalının digər nümayəndələrini təmsil edirdi. İlk inhisar birliklərinin yaranmasında fəal iştirak edən sonuncuların öz mənafelərini qorumağa sə'y göstərmələri həmin inhisarların kifayət qədər möhkəm olmamasını və neft sənayesinin inkişafına əhəmiyyətli tə'sir göstərə bilməməsini şərtləndirirdi. Bununla yanaşı, əsası "Bakı ağ neft zavodu sahibləri ittifaqı"nın yaradılması ilə qoyulmuş iri inhisar birliklərinin təşəkkülü prosesində ilk addımlar atıldı.





### § 3. İlk neft inhisarı - "Bakı ağ neft zavodu sahiblərinin ittifaqı". Qərb kapitalı tə'sirinin güclənməsi

Neft sənayeçilərinin sindikat birlikləri yaratmaqla 1890-cı illərin əvvəlində Azərbaycan neft sənayesini əhatə etmiş böhranı dəf etmək cəhdləri, qeyd edildiyi kimi, uğurla nəticələnmədi. 1893-cü ilin əvvəlində qısamüddətli müsbət dəyişikliklərdən sonra neft sənayesində vəziyyət yenə də ağır olaraq qalırdı. Bakı neft sənayeçiləri qurultayı şurasının dövlət əmlak nazirinə ünvanlanmış 25 may 1893-cü il tarixli müraciətində şuranın sədri mövcud çətinlikləri şərh edərək göstərirdi ki, iri şirkətlərin qiymətləri kifayət qədər yüksək səviyyədə saxlamaq cəhdləri gözlənilən nəticələri vermədi və "bu sə'ylərin nəticəsində qiymətlərin müvəqqəti yaxşılaşması hazırda elə sür'ətli aşağı düşmə ilə əvəz olunub ki, tam iflas təhlükəsi yaranmışdır". Bir pud xam neftin qiyməti 1 qəpiyə, ağ neftin qiyməti isə 5 qəpiyə qədər aşağı düşmüşdü.[108]

Belə vəziyyət istehsal olunan ağ neftin 2/3 hissəsinin ixrac edildiyi xarici bazarlarda da müşahidə olunurdu. Amerika ağ neftinin rəqabəti nəticəsində aprel ayının sonunda xarici bazarlarda qiymətlər Bakı neft sahibkarları üçün ziyanlı həddə qədər düşmüşdü.[109]

Neft məhsulları istehsalı azalmasa da, fəaliyyət göstərən neftayırma zavodlarının sayı 1892-ci ildə 107-dən 1893-cü ildə 85-ə qədər azalmışdı.[110] Yaranmış vəziyyətdən çıxış yolları axtaran neft sənayeçiləri mövcud şəraitdə xarici ticarətin davam etdirilməsinin mümkün olmaması qənaətinə gəldilər. Buna görə də Bakı neft sənayeçiləri qurultayının şurası maliyyə nazirinə göndərdiyi müraciətdə“ 1) sənayenin vəziyyətinin yerində araşdırılması və çıxış yollarının tapılması üçün hökumət komissiyasının yaradılması və 2) çətinliklə əldə edilmiş bazarların saxlanmasına kömək göstərə biləcək tədbir kimi Zaqafqaziya dəmir yolu ilə ağ neftin daşınma tariflərinin müvəqqəti olaraq aşağı salınması” məsələlərinə baxılmasını xahiş edirdi.[111]

Qurultay şurasının sədri dövlət əmlak nazirinə neft sənayeçilərinin maliyyə naziri qarşısında qaldırdıqları məsələlərin həllinə köməklik göstərilməsi xahişi ilə müraciət etdi.

Dövlət əmlak naziri A.Yermolov bu xahişə diqqətlə yanaşaraq maliyyə nazirinə göndərdiyi 26 may 1893-cü il tarixli məktubunda qeyd edirdi ki, “...fikrimcə, neft sənayeçiləri qurultayı şurasının arzusu ədalətlidir, diqqətə və müdafiə olunmağa layiqdir”.[112]

Amerikalı iş adamı Rokfellerin təklifi də hökumət qurumlarının neft sənayesi işlərinə fəal müdaxilə etməsinə təkan verirdi. Çünki, Rokfeller 1892-ci ildə dünya bazarlarının nüfuz dairəsinə bölünməsi haqqında müqavilənin imzalanması üçün əsas şərt kimi “bütün rus neft sənayeçilərinin vahid ixracat təşkilatında birləşməsini” irəli sürmüşdü.[113]

1892-ci ildə maliyyə naziri vəzifəsini tutmuş S.Y.Vitte neft sənayesi məsələlərinə xüsusi maraq göstərirdi. O, 1893-cü ilin oktyabrında meydana gəlmiş “Bakı ağ neft zavodu sahibləri ittifaqı”nın yaradılması üçün böyük əmək sərf etdi. Sindikatın yaranması və fəaliyyəti ilə bağlı məsələlərin A.A.Fursenko tərəfindən öyrənildiyini nəzərə alaraq[114], burada problemin tədqiqinə “İttifaq”ın fəaliyyətində Avropa, Rusiya və o cümlədən Azərbaycan milli kapitalının rolunun aydınlaşdırılması nöqteyi-nəzərindən yanaşılır. Bu məqsədlə məsələlərin daha geniş işıqlandırılmasına kömək edən dövri mətbuat və yeni arxiv materialları dərindən öyrənilmişdir.

Rusiya kapitalının nümayəndələri “İttifaq”ın yaradılması üçün həyata keçirilən hazırlıq işlərində fəal iştirak etdilər. “Xəzər cəmiyyəti” şirkəti idarə hey’ətinin sədri ticarət və manufaktura departamentinin direktoru V.İ.Kovalevskiyə göndərdiyi məktubda qeyd edirdi ki, neft sənayeçilərinin əksəriyyəti mövcud böhrandan çıxış yolunun hamının birləşərək ixracatın “bir əldə cəmləşməsində” olduğunu dərk etmişdir. Buna görə də səhmdar cəmiyyətin tə’sis olunması təklifi irəli sürülmüşdür. Çünki, “hüquqi şəxs kimi yalnız nizamnamə ilə müəyyən edilmiş çərçivə daxilində səlahiyyətlər daşıyıcısı olan ittifaq nə öz fəaliyyət dairəsini genişləndirmək, nə də tə’sisedilmə məqsədlərini dəyişdirmək imkanlarına malik olmayacaq. Yüksək səviyyədə təsdiq olunmuş nizamnamə və onun hökumət tərəfindən həmişəlik ədalətli və məqsədəuyğun hesab edilmiş əsas prinsipləri hər kəsi, hətta ən xırda zavod sahibini daha varlı və güclü rəqiblərin özbaşınalığından qoruyur”.[115]

Eyni zamanda, məktubda göstərilirdi ki, səhmdar cəmiyyətin uğurlu fəaliyyəti üçün Bakı zavod sahiblərinin 80 faizdən çoxunun birləşməsi zəruridir. Məktub müəllifinin fikrinə görə, cəmiyyətin mallarının daşınmasına güzəştlərin verilməsi və neft sənayeçilərinin səhmləri almasına şərait yaratmaq üçün Dövlət bankının iştirakı ilə xüsusi kreditin açılması formasında bu işlərə “hökumətin fəal müdaxiləsi” lazım idi. Çünki, uzun sürən böhran bütün sərbəst kapitalı “udmuşdu”.[116]

Neft sənayeçilərinin xahişinə cavab olaraq hökumət həmin məsələləri xüsusi müşavirədə müzakirə etdi. Səhmdar cəmiyyətin nizamnamə layihəsinin müəllifi H.Z.Tağıyev firmasının səlahiyyətli nümayəndəsi Şon idi.[117] Onun layihəsinə görə, "2 mln. rubl kapital ilə tə'sis olunan cəmiyyətin səhmləri ağ neft zavodlarının istehsal gücünə uyğun surətdə bölüşdürülürdü".[118]

Nizamnamə layihəsi zavod sahiblərinin 9 sentyabr 1893-cü ildə keçirilmiş müşavirəsində qəbul edilərək Peterburqa göndərildi. Lakin Peterburqda bu layihə Nobelin tə'kidi ilə müzakirəyə çıxarılmadı. Onun əvəzinə neft sənayeçilərinin müzakirəsinə Maliyyə Nazirliyinin iştirakı ilə Nobel və Rotşild tərəfindən hazırlanmış yeni müqavilə təklif edildi.[119] 1893-cü il oktyabrın 26-da imzalanmış müqaviləyə əsasən əvvəllər nəzərdə tutulmuş səhmdar cəmiyyət əvəzinə ixracat sindikatı yaradıldı. Sindikatda bütün hakimiyyət "İttifaq"ın ticarət agentləri olan Nobel və Rotşildin əlinə keçdi. Belə ki, şərtə görə sindikatın ümumi iclaslarında qərarlar 3/4 səs çoxluğu ilə qəbul edilirdi. Amma iki iri şirkət - Nobel və Rotşild bütün səslərin 1/4-dən çoxunu öz əllərində cəmləyərək, onların maraqlarına zidd qərarların qəbul edilməsinin qarşısını almaq imkanına malik idilər.[120] Belə vəziyyət "Bakı standartı"nı qane etmədiyi üçün müşavirədə iştirak edən və hətta "müqaviləni hazırlayan komissiyanın üzvü olan H.Z.Tağıyev şirkətinin nümayəndəsi sənədi imzalamayaraq Peterburqu tərk etdi". Nəticədə "İttifaq" bütün ağ neft zavodu sahiblərinin yalnız 63 faizini birləşdirdi.

1893-cü il noyabrın 10-da 25 nəfər neft sənayeçisi-H.Z.Tağıyev, A.İ.Mantaşev, Q.Zeynalov, Z.Rzabəyov, Y.Budaqov və b. Bakıdan Peterburqa, ticarət və manufaktura departamentinin direktoru V.İ.Kovalevskiyə teleqram göndərdilər.[121] Onlar yeni sindikatın yaradılması ilə bağlı öz e'tirazlarını bildirərək qeyd edirdilər ki, imzalanmış müqavilə "ticarət agentlərinin xaricdəki fəaliyyətinə heç bir faktiki nəzarət imkanı vermir". Neft sahibkarları müqavilənin aşağıdakı şəkildə dəyişdirilməsini zəruri hesab edirdilər:



birincisi, sindikatın xaricdəki bütün işləri "İttifaq" üzvlərinin seçdiyi 9 nəfərdən ibarət sərəncamverici komitə tərəfindən idarə olunmalıdır. Komitə isə öz növbəsində ümumi yığıncağın tə'limatları əsasında fəaliyyət göstərir. İkincisi, sindikat üzvlərindən heç kim xaricdə ticarət əməliyyatları aparmaq məqsədi ilə onun tərkibindən çıxmaq hüququna malik deyildir.

Lakin hökumət bu təklifləri qəbul etməyib, "İttifaq"ın ikinci müstəqil qrupunun yaradılmasına razılıq verdi. Bir neçə gündən sonra, 1893-cü il noyabrın 27-də "Bakı ağ neft zavodu sahibləri ittifaqı"nın ikinci qrupunun yaradılması haqqında müqavilə imzalandı.[122] Bu qrupa əsasən Rusiyanın neft sənayeçiləri (o cümlədən azərbaycanlı sahibkarlar) - H.Z.Tağıyev, A.İ.Mantaşev, İ.Budaqov, Q.M.Lianozov, Z.Rzabəyov və b. daxil idilər. Birinci qrupda isə həm Avropa sərmayəçiləri (Nobel, Rotşild), həm də Rusiya kapitalistləri, eləcə də azərbaycanlı sahibkarlar ("Şibayev və K", "Xəzər cəmiyyəti", M.Nağıyev və b.) təmsil olunmuşdular.[123]

Elmi ədəbiyyatda hökm sürən fikrə görə, 26 oktyabr və 27 noyabr müqavilələri öz mahiyyəti baxımından eyni olub yalnız onunla fərqlənirdilər ki, birinci qrupda "hakimiyyət Nobel və Rotşildin, ikinci qrupda isə Mantaşevin əlində idi".[124]

Lakin yeni mənbələrin öyrənilməsi göstərir ki, birinci qrupda hakimiyyəti ələ keçirmiş Nobel və Rotşilddən fərqli olaraq, ikinci qrupun ticarət agenti A.Mantaşev qeyri-məhdud səlahiyyətlərə malik deyildi. O, ikinci qrupun sərəncamverici komitəsinin üzvlərindən tamamilə asılı vəziyyətdə idi. Belə ki, müqavilənin 18-ci maddəsinə görə, ticarət agenti ümumi yığıncaq tərəfindən öz vəzifəsindən çıxarıldığı halda "İttifaqı" tərk etmək hüququna malik deyildi və başqa üzvlər ilə yanaşı onun işində iştirak etməli idi.[125]

"İttifaq"ın birinci qrupunda isə vəziyyət tamamilə fərqli idi. 1893-cü il 26 oktyabr müqaviləsinin 17-ci maddəsinə görə, ümumi yığıncaqda qərarların qəbul edilməsi üçün

iştirakçıların 3/4 səs çoxluğu tələb olunurdu. Nobel və Rotşildin birlikdə 15.480 paya malik olduqları (müvafiq surətdə 9.610 və 5.870) və bunun 1/4 səsdən 1337 pay çox olması nəzərə alınsa, qrupun öz ticarət agentlərindən asılılığı aydın şəkildə təsdiq olunar.[126]

Bundan başqa, 3-cü maddəyə əsasən, agentlər bütün ticarət əməliyyatlarını "İttifaq"ın hesabına, lakin "öz adlarından" həyata keçirirdilər və ikinci qrupdan fərqli olaraq, xarici ticarət üçün bütün vasitələri özləri ilə götürüb "İttifaq"dan çıxmaq hüququna malik idilər. Bu isə sindikatın digər iştirakçılarını iflasa məhkum edə bilərdi.

Beləliklə, "İttifaq"ın birinci qrupunun avropalı rəhbərləri iştirakçılara öz şərtlərini qəbul etdirərək şəxsi planlarını maneəsiz həyata keçirmək imkanı qazandılar. Məhz bu amillər neft sənayeçilərinin böyük bir hissəsinin Nobel və Rotşildin başçılıq etdiyi "İttifaqa" daxil olmaqdan imtina etməsinə və nəticədə müstəqil qrupun meydana gəlməsinə səbəb oldu. Birinci qrupun yaradılması təcrübəsini nəzərə alaraq, 1893-cü il 27 oktyabr müqaviləsinin iştirakçıları öz qruplarında ticarət agentinin qeyri-məhdud hakimiyyətinin qarşısını almaq üçün mümkün olan bütün tədbirləri gördülər.

1894-cü ilin yanvar ayında iki qrup arasında birgə fəaliyyət haqqında danışıqlar başlandı. Belə ki, Maliyyə Nazirliyi "iki qrupun birləşməsindən sonra" "İttifaqa" güzəştlər verəcəyini və Zaqafqaziya dəmir yolu ilə daşınma tariflərini aşağı salacağını və'd edirdi.[127] Lakin danışıqların gedişində müxtəlif məsələlər meydana çıxırdı. Onların həlli üçün danışıqlarda bilavasitə iştirak etməyən bütün iri şirkətlərin razılığı tələb olunurdu. İkinci qrupun adından danışıqları aparan A.Mantaşev və Q.Lianozov 1894-cü il fevralın 1-də Bakıya aşağıdakı məzmunda teleqram göndərdilər: "Hər iki qrup mövcud ola bilər... İkinci qrup Mantaşevi birinci qrupun ticarət agentlərinin malik olduğu hüquqlarla özünün ticarət agenti tə'yin edir. Bütün anlaşılmazlıqlar birinci qrupun beş və ikinci qrupun dörd sərəncamvericilərinin iştirakı ilə səs çoxluğu əsasında həll



edilməlidir. Agentlərin bilavasitə həyata keçirdikləri bütün satış əməliyyatlarında hər iki qrup onlara məxsus payın sayına proporsional şəkildə iştirak edir. Hər qrupun agentləri öz sərəncamvericiləri qarşısında hesabat verirlər".[128]

Teleqramın müəllifləri bu müddəaları bəyənir və qrupun digər iştirakçılarının razılığı təqdirində hamının adından müqavilənin imzalanması səlahiyyətini verən e'timadnamənin göndərilməsini xahiş edirdilər. Lakin bu şərtlər Bakıda narazılıqla qarşılandı. Çünki, ikinci qrupun iştirakçıları 1893-cü il 27 noyabr müqaviləsinin müddəalarını pozaraq, ticarət agentlərinin səlahiyyətlərini genişləndirmək istəmirdilər. Buna görə də H.Z.Tağıyev, İ.K.Budaqov və Y.İ.Adamov göndərdikləri teleqramda qeyd edirdilər ki, "müqavilənin əsas şərtlərinə uyğun olaraq ağ neftin ixracı və satışını yalnız özünün sərəncamvericiləri vasitəsilə həyata keçirən ikinci qrupun iştirakçıları birinci qrupun ticarət agentlərinin hüququna malik olan agent kimi "Bakı standartı" birliyindən başqa heç kimin tə'yin edilməsini mümkün hesab etmirlər... Öz müqavilələrinin birinci və on səkkizinci maddələrini birinci qrupun müqaviləsinin birinci və on üçüncü maddələrinə uyğun şəkildə dəyişməyi isə ikinci qrupun iştirakçıları qeyri-mümkün hesab edirlər".[129]

Danışıqların gedişində Nobel və Rotşild güzəştə gedərək, 13-cü maddənin dəyişdirilməsinə və beləliklə, ticarət agentlərinin öz vəzifələrindən uzaqlaşdırılacağı halda belə "İttifaq"dan çıxmaq hüququna malik olmayacaqlarına razılıq verdilər.[130] Danışıqlarda məhsulun satış qiymətlərinin müəyyən edilməsi məsələsində də fikir ayrılığı meydana çıxdı. Nobel şirkətinin nümayəndəsi Belyamin bütün məsələlərin "birinci qrupun iki və ikinci qrupun bir agentinin iştirakı ilə səs çoxluğu əsasında" həll edilməsini məqsədəuyğun sayırdı. Lakin A.Mantaşev bütün mübahisəli məsələlərin hər iki qrupun sərəncamvericiləri tərəfindən səs çoxluğu ilə həll olunması təklifi üzərində israr edirdi.[131]

1894-cü il fevralın 19-da iki qrup arasında müqavilə imzalandı. Tərəflər razılığa gəldilər ki, ağ neft və xam neftin xarici ticarəti "birgə və hər iki qrupun hesabına hə-

yata keçiriləcəkdir".[132] Lakin hər qrup öz müqaviləsinə uyğun olaraq qrup daxilində fəaliyyət sərbəstliyini tam saxlayırdı. Bununla yanaşı, Nobel və Rotşildin "İttifaq"dan çıxmaq hüququ qalırdı. Onlar bu hüquqlarından istifadə etdikləri halda ikinci qrup "qeyd olunan müqaviləni məhkəməsiz və sonrakı dövr üçün hər hansı məs'uliyyət daşımadan qüvvədən düşmüş hesab etmək hüququ" alırdı.

"İttifaq"ın ikinci qrupunun sərəncamvericiləri 1894-cü il 5 may tarixli iclasda qərara aldılar ki, 19 fevral müqaviləsinin 7-ci maddəsinin nəzərdə tutduğu məhsulların satış qiymətinin hər iki qrupun ticarət agentlərinin səs çoxluğu ilə müəyyən edilməsi prinsipinə əsaslanaraq, A.Mantaşevdən xahiş edilsin ki, qiymətlərin tə'yin olunması zamanı "Nobel və Rotşild şirkətləri arasında fikir ayrılığı olacağı halda "Nobel qardaşları" tərəfindən təklif edilən qiymətə səs versin".[133]

Bununla yanaşı, Nobel və Rotşild Mantaşev ilə dünya bazarlarının bölünməsi haqqında daha bir müqavilə imzaladılar. Müqavilənin 4-cü maddəsinə görə, Balkan ölkələrinə, Yaxın və Orta Şərqə, Afrikaya ixrac olunan məhsulun 2/3 hissəsi A.Mantaşevin, 1/3 hissəsi isə Rotşild şirkətinin payına düşməli idi.

"Nobel qardaşları" şirkəti şərq ölkələrində öz yerini A.Mantaşevə güzəştə gedərək, əvəzində Avropa bazarlarında möhkəmləndi. A.Mantaşev isə həm Uzaq Şərqə, həm də Fuimi limanına ağ neft ixracının 25 faizini aldı.[134]

Beləliklə, 90-cı illərin əvvəllərində Azərbaycan neft sənayesində inhisarlaşma prosesi vüs'ət almışdı. Ağ neft ixracının əsas hissəsini öz əlində cəmləmiş "Bakı ağ neft zavodu sahiblərinin ittifaqı" meydana gəlmişdi. Avropa sahibkarlarının böyük sə'ylərinə baxmayaraq, Rusiya kapitalının nümayəndələrini, o cümlədən Azərbaycanın yerli sənayeçilərini xarici ticarət sahəsindən sıxışdırıb çıxarmaq planları baş tutmadı. Rusiya sərmayəçiləri ilə yanaşı azərbaycanlı sahibkarlar gərgin rəqabət şəraitində xarici ticarətin müəyyən hissəsini öz əllərinə keçirərək, "İttifaq"ın ikinci qrupu vasitəsilə xarici bazarla birbaşa əlaqə yaratdılar.



Lakin 1894-cü il neft sənayesi üçün əlverişli olmadı. Neft hasilatı əvvəlki ilə nisbətən aşağı düşdü[135]:




Lakin istehsalın aşağı düşməsi təsadüfi xarakter daşıyırdı, çünki, bu əsasən fontanla çıxarılan neftin azalması hesabına baş vermişdi. 1895-ci ildə neft hasilatı kəskin şəkildə yüksələrək 381,9 mln. puda çatdı.[136] Bununla yanaşı, 1894-cü ildə hasilatın azalması xam neftin qiymətinin tədricən artmasına səbəb oldu. Bu isə neftayırma sənayesinin vəziyyətinə tə'sir etdi. Yalnız neft qalıqlarının qiymətinin yüksəlməsi Bakının neftayırma zavodlarının iş rejimini tə'min etməyə imkan yaradırdı.[137]

1894-cü ildə Bakıdan çıxarılan neft məhsullarının ümumi miqdarının artmasına baxmayaraq, ağ neft ixracının həcmi azalmışdı[138]:



Göründüyü kimi, ixracın azalması Avropa və Asiya bazarlarının payına düşürdü, Rusiyanın daxili quberniyalarına aparılan məhsulun həcmi isə artmaqda davam edirdi.

Qeyd etmək lazımdır ki, "Bakı ağ neft zavodu sahibləri ittifaqı"nın yaradılması 1895-ci ildə neft şirkətlərinin xarici bazarlarda vəziyyətlərini yaxşılaşdırmağa kömək etdi. Bu addım neftayırma sənayesinin fəaliyyətini canlandırmağa təkan verdi. Xam neftə tələbatın artması nəticəsində isə qiymətlərin demək olar ki, 100 faiz yüksəlməsi yeni neftli sahələrin istismarına və hasilatın artmasına səbəb oldu.[139]

Neft sənayesində istehsalın yüksəlməsi şəraitində "İttifaq"ın quruluşunun təkmilləşməsi prosesi gedirdi. Bu proses xırda və orta neft sənayeçilərinin güclənən təzyiqi altında baş verirdi. "Kaspi" qəzetinin mə'lumatına görə, "İttifaq"ın birinci qrupunun üzvləri Ticarət və manufaktura departamentinin direktoru V.İ.Kovalevskiyə teleqram göndərərək, ticarət agentlərinin hərəkətlərindən narazılıqlarını ifadə etmişdilər.

Qrupun payçıları ticarət əməliyyatlarının onlar üçün ziyanlı olmasından və müqavilə şərtlərinə riayət olunması sahəsində "qrup sərəncamvericilərinin fəaliyyətsizliyindən" şikayətlənirdilər. Teleqramda qeyd edilirdi ki, "Nobel qardaşları" şirkəti sindikata məxsus ağ nefti "İsveçə Saritsın vasitəsilə göndərir ki, bu da Batuma nisbətən 10-12 qəp. baha başa gəlir, amma əvəzində Nobelin gəmiləri və vaqonları qazanırlar".[140]

Xırda və orta şirkət nümayəndələri "ağ neft ixracı üçün dövlət təşkilatının" yaradılması haqqında öz layihələrini təklif etmişdilər. Lakin bu, hökumət tərəfindən müdafiə olunmadı.[141]

Hökumət və iri şirkətlər "İttifaq"ın saxlanmasında maraqlı idilər. 1895-ci ilin martında hər iki qrupun vahid sindikatda birləşməsini nəzərdə tutan yeni müqavilənin layihəsi meydana gəldi.[142] Layihəyə görə, ticarət agentlərinin səlahiyyəti tərkibi 14 nəfərə qədər genişləndirilən sərəncamverici komitə tərəfindən məhdudlaşdırılırdı. Sərəncamvericilər ticarət agentlərini tə'yin edərək, onların fəaliyyətinə nəzarəti həyata keçirirdilər.



Yeni müqavilə 1895-ci il mayın 2-də imzalandı.[143] Bu müqavilənin imzalanması ilə hər iki qrupun bütün əvvəlki müqavilələri qüvvədən düşürdü. "Q.M.Arafelov və K", "Xəzər cəmiyyəti", "Budaqov qardaşları" ticarət evi, "Xəzər-Qara dəniz cəmiyyəti", Q.M.Lianozov, "A.İ.Mantaşev və K" ticarət evi, "Y. və A. Məlikovlar" ticarət evi, M.Nağıyev, "Nobel qardaşları" şirkəti, H.Z.Tağıyev, A.S.Unanov və "S.M.Şibayev və K" cəmiyyəti genişlənmiş sərəncamverici komitənin üzvü, A.Antonov və M.Krasilnikov isə üzvlüyə namizədlər seçildilər.[144]

Beləliklə, 2 may 1895-ci il müqaviləsinin imzalanması ilə ticarət agentlərinin hakimiyyəti xeyli zəiflədi. Buna baxmayaraq, onlar hələ də sindikatda hakim mövqeləri qoruyub saxlayırdılar. İxrac əməliyyatlarında iştirak paylarının kifayət qədər olmamasından şikayətlənən "İttifaq"ın çoxsaylı üzvlərinin təzyiqi altında iri şirkətlər öz paylarının bir hissəsini onlara güzəştə getməyə məcbur oldular. Belə ki, "İttifaq"ın 2 may 1895-ci il tarixli 1№-li protokoluna əlavədə 1895-ci il aprelin 1-dən e'tibarən iri şirkətlərin sindikatın digər üzvlərinə güzəştə gedəcəkləri payın miqdarı göstərilməklə öhdəlikləri təsdiq edilmişdi[145]:

| Şirkətlər | Güzəşt olunan payın miqdarı |
|---|---|
| "Nobel qardaşları"cəmiyyəti | 660 |
| "S.M.Şibayev və K"cəmiyyəti | 106 |
| "A.İ.Mantaşev və K" | 59 |
| "Xəzər cəmiyyəti" | 53 |
| Q.M.Lianozov | 50 |
| H.Z.Tağıyev | 11 |
| "Budaqov qardaşları" | 28 |
| "Adamov qardaşları" | 14 |
| M.Nağıyev | 19 |
| "Xəzər-Qara dəniz cəmiyyəti" | 170 |

Bütün 1170 pay 26 nəfər xırda ağ neft zavodu sahibləri - Ə.Əliyev, M.Avakov, A.Antonov, İ.Dadaşov, Rzabəyov və başqaları arasında bölüşdürülürdü.

Lakin sənəddə qeyd edilirdi ki, sindikatın həmin iştirakçıları aldıqları payın sayına müvafiq olaraq ticarət əməliyyatlarında iştirak etmək hüququ qazanırlar, səsvermə hüququnu isə müqavilənin 3-cü bəndinə əsasən yenə də əvvəlki qaydada hər bir şirkət özündə saxlayırdı.[146]

Görünür, yeni müqavilənin şərtləri Nobeli qane etmirdi. Buna görə də o, itirilmiş mövqeyini bərpa etmək məqsədilə sindikat iştirakçılarına öz planını qəbul etdirməyə cəhd göstərirdi. Sərəncamverici komitənin 1895-ci il noyabrın 20-də keçirilən fövqəl'adə yığıncağında Nobelin yeni təkliflərindən ibarət məktubu oxundu. Onun layihəsi Bakıda yerləşən komitənin əvəzinə Peterburqda kommersiya şurasının yaradılmasını nəzərdə tuturdu. Üç agentdən və sərəncamverici komitənin bir neçə üzvündən ibarət yeni şuranın yaradılmasını təklif edən "Nobel qardaşları" cəmiyyətinin nümayəndəsi öz şirkətinin mövqeyini rəqabət mübarizəsində kommersiya sirlərinin qorunması zəruriliyi ilə əsaslandırırdı.[147]

Müzakirənin gedişində H.Z.Tağıyev və M.Nağıyev bu təklifin əleyhinə çıxış etdilər.

İri neft sənayeçilərindən biri olan Musa Nağıyev (1845-1919) sahibkarlıq fəaliyyətinə 1862-ci ildə manufaktura məhsullarının ticarəti ilə başlamışdı. Tədricən öz işlərini genişləndirərək o, 1873-cü ildə neft və neft məhsullarının ticarəti ilə məşğul olmağa başlayır.[148] Kifayət qədər kapital topladıqdan sonra M.Nağıyev ağ neft zavodu inşa edərək neft sənayeçisi kimi fəaliyyətini genişləndirdi. Artıq 1894-cü ildə onun zavodunda 1,2 mln. pud ağ neft istehsal edilmişdi.[149] Qısa müddət ərzində M.Nağıyev Bakının ən iri neft sənayeçiləri sırasına daxil oldu. Əgər 1879-cu ildə onun mülkiyyəti 30 min rubla qiymətləndirilirdisə, 1907-ci ildə bu rəqəm 16 mln. rubla çatırdı.[150]

M.Nağıyev neft sənayeçiləri arasında "vicdanlı və ədalətli insan şöhrəti" qazanmışdı. Bu keyfiyyətlərinə görə o,



1908-ci ildə Dövlət Bankının Bakı şö'bəsi hesabaalma-borc komitəsinin üzvü tə'yin edilmiş və 1914-cü ilə qədər bu vəzifədə fəaliyyət göstərmişdi. Həmin il H.Z.Tağıyev ilə Bakı tacir bankını yaradan M.Nağıyev öz xahişi ilə bu vəzifədən azad edilmişdi.[151]

M.Nağıyev "Bakı ağ neft zavodu sahibləri ittifaqı"nın sərəncamverici komitəsinin tərkibinə daxil idi. O, Nobel nümayəndəsinin irəli sürdüyü kommersiya sirləri haqqındakı dəlillərə e'tiraz edərək bildirirdi ki, hasil olunan neftin və istehsal edilən ağ neftin miqdarı və s. hamıya mə'lum olduğu üçün fəaliyyət planını gizli saxlamaq mümkün deyildir.

Lakin Y.Budaqov Nobelin təklifini müdafiə etdi. O, göstərirdi ki, sərəncamverici komitənin mövcud olan geniş tərkibi kommersiya sirrini saxlamağa imkan vermir.[152]

Müzakirəyə yekun vuran yığıncaq şuranın Bakıda yaradılmasına tərəfdar çıxdı. Eyni zamanda, belə bir şərt irəli sürüldü ki, "sərəncamvericilər agentlərə nisbətən çox səsə malik olmalıdırlar". Qəti qərar qəbul olunması üçün məsələ "İttifaq"ın ümumi iclasının müzakirəsinə verildi.[153]

1895-ci il dekabrın 9-da fövqəl'adə ümumi iclas məsələni müzakirə edərək səs çoxluğu ilə Nobelin təklifini rədd etdi.[154]

Beləliklə, Azərbaycanın neft sənayeçilərinin təzyiqi ilə "Nobel qardaşları" şirkətinin "İttifaq"da qeyri-məhdud hakimiyyəti ələ keçirmək üçün daha bir cəhdinin qarşısı alındı. Bununla yanaşı, sindikatda neft sənayeçilərinin müxtəlif qruplarının maraqları daha tez-tez toqquşurdu. Zavod sahiblərinin çoxu müqavilə şərtlərini pozaraq öz öhdəliklərini yerinə yetirmir və ağ nefti "İttifaq"dan kənarda satırdılar.[155] İri şirkətlər arasında ziddiyyətlərin kəskinləşməsi sindikatın gələcək mövcudluğunu şübhə altına qoyurdu. 1895-ci ilin sonunda ağ neftin Almaniya, İsveç və Norveçdə satışına dair "Nobel qardaşları" və Mantaşev şirkətləri arasında fikir ayrılığı meydana çıxdı. Belə ki, Amerikanın "Standart" şirkəti ilə uğursuz rəqabət nəticəsində həmin ölkələrdə ticarətin ziyanlı olmasına görə komitə bu region-

da satmaq üçün Nobelə mal verməkdən imtina etdi. Lakin Nobel Almaniyada və Skandinaviya ölkələrində ticarətin onun öz məs'uliyyətinə görə aparılmasına icazə verilməsini və bu məqsədlə Xəzər dənizi ilə daşınan ağ neftin onun sindikatdakı payından çıxılmasını xahiş etdi. Komitənin icazəsinə əsasən Nobel Xəzər dənizi vasitəsilə 1895-ci ilin aprelindən 1896-cı ilin aprelinə qədər ticarət əməliyyatları aparmaq hüququ aldı. A.Mantaşev komitənin bu qərarını müqavilənin pozulması kimi qiymətləndirərək, qəti e'tirazını bildirdi.[156] Bir il sonra "Nobel qardaşları" şirkəti ilə müqavilənin müddəti uzadıldıqda Mantaşev ilə birlikdə "Xəzər cəmiyyəti" və Xəzər-Qara dəniz cəmiyyəti də e'tiraz etdilər.[157]

Aydındır ki, belə şəraitdə "İttifaq" uzun müddət mövcud ola bilməzdi. 1897-ci ilin may ayına qədər "Nobel qardaşları", "A.İ.Mantaşev və K", "Qafqaz", "Kaplan və Lev", Məlik-Dadayev, Sergeyev və Avakov şirkətləri təşkilat müqaviləsini yenidən nəzərdən keçirmək haqqında ərizə ilə müraciət etdilər. Q.M.Vəzirov isə e'lan etdi ki, 1897-ci il oktyabrın 1-dən sindikatda iştirakdan imtina edir.[158]

Əlbəttə, sindikatın taleyinin qəti həll olunmasında Nobelin mövqeyi mühüm rol oynayırdı. O isə "İttifaq"dan bacardığı hər şeyi götürüb, indi hər vasitə ilə onun dağılmasına çalışırdı".[159]

İyulun 13-də fövqəl'adə ümumi iclas müqavilənin müddətinin başa çatmasından sonra, yə'ni 1897-ci il oktyabrın 1-dən "İttifaq"ın buraxılması haqqında qərar qəbul etdi.[160]

Ağ neft ixracının ümumi həcminin azalması ilə əlaqədar hökumətin sindikata bəslədiyi ümidlər özünü doğrultmadı. Lakin "İttifaq"ın fəaliyyətinin yekunları onun köməyi nəticəsində Avropa bazarlarında möhkəmlənmiş "Nobel qardaşları" şirkəti üçün uğurlu sayıla bilərdi. Çünki, ağ neft ixracında Nobelin payı 1893-cü ildəki 25,5 faizdən 1896-cı ildə 30,3 faizə qədər artmışdısa, Rotşildin payı həmin dövrdə 35,7 faizdən 32,4 faizə, Mantaşevin payı isə 12,9 faizdən 9,5 faizə qədər azalmışdı.[161]



Beləliklə, "Bakı ağ neft zavodu sahiblərinin ittifaqı" dörd illik fəaliyyətdən sonra dağıldı. Öz tərkibinə və fəaliyyət dairəsinə görə "İttifaq" 80-dən çox neft şirkətini əhatə edən ilk iri sindikat idi. Nobel və Rotşildin aparıcı rol oynamasına baxmayaraq, sindikatda sayca üstünlük təşkil edən Rusiya və Azərbaycanın yerli kapital nümayəndələri heç də passiv iştirakçı olmayıb, "İttifaq"ın yaradılmasında və fəaliyyətində mühüm rol oynayırdılar. Məhz öz sə'yləri nəticəsində onlar sindikatdakı qüvvələr nisbətinə və qərarların qəbul edilməsinə tə'sir etmək imkanları əldə etmişdilər.

Sindikatın buraxılması ilə, əsasən, nəinki daxili, həm də xarici bazarlara çıxış imkanlarını itirmiş xırda sənayeçilər çətin vəziyyətə düşdülər. Rezervuarlara və nəqletmə vasitələrinə malik olmayan xırda sahibkarlar öz mallarını yalnız Bakıda iri şirkətlərə satmaqla fəaliyyət göstərə bilərdilər. Bu isə işlərin davam etdirilməsi üçün yeni stimul yaratmırdı. 1897-ci ilin noyabrında keçirilən müşavirədə Zaqafqaziya dəmir yolu ilə ağ neft daşınması üzrə tarifin vəziyyəti haqqında məsələ müzakirə edilərkən xırda neft sənayeçiləri tarifin "ayrı-ayrı şirkətlərə deyil, müəyyən miqdarda ağ neft ixrac edən şirkətlər qrupunun göndərdiyi yüklərə" aid edilməsi təklifini irəli sürdülər.[162] Belə şəraitdə onlar müəyyən qruplarda birləşərək, iri şirkətlərin və digər vasitəçilərin köməyi olmadan xarici ticarəti həyata keçirə bilərdilər. Lakin bu təklif qəbul edilmədi.

Həmin dövrdən başlayaraq çar hökumətinin şərait yaratması nəticəsində Avropa, xüsusilə ingilis kapitalının Azərbaycan neft sənayesinə axını güclənir. Qərb sahibkarlarının köməyi ilə hökumət ağ neft ixracının vəziyyətini yaxşılaşdırmağa cəhd göstərirdi.

Qərb kapitalı üçün daha çox maraq doğuran H.Z.Tağıyevin mə'dənləri idi. Bunun əsas səbəbi həmin mə'dənlərdə zəngin neft ehtiyatlarının olması və həm də mə'dənlərin və zavodun dəniz sahilində əlverişli mövqedə yerləşməsi idi ki, nəticədə neftin və neft məhsullarının gəmilərə

yüklənməsi işi böyük texniki proseslərin köməyi olmadan həyata keçirilirdi. Hələ 1896-cı ilin dekabr ayında "Kaspi" qəzeti xəbər verirdi ki, "H.Z.Tağıyev öz mə'dənlərini, neftli torpaqlarını və neft donanmasını 4,5 mln. rubla satır".[163]

H.Z.Tağıyevin müəssisəsinə Paris bankir evi "Rotşild qardaşları" xüsusi maraq göstərirdi. O, xarici ticarətlə məşğul olan "Xəzər-Qara dəniz cəmiyyəti " ilə yanaşı Rusiya imperiyası daxilində ticarət fəaliyyətini həyata keçirməli olan yeni şirkət yaratmaq istəyirdi.[164] 1896-cı ilin dekabr ayında Rotşildin nümayəndəsi J.Aron Peterburq beynəlxalq kommersiya bankının direktoru L.Rotşteynə göndərdiyi məktubda yazırdı: "Tağıyevin layihəsi haqqında çox danışırlar, lakin bu insanın xarakterini bilənlər onun öz müəssisəsini hətta 4,5 mln. rubla satacağına şübhə edirlər... Necə olursa olsun, onun mə'dənlərinin vəziyyəti ə'ladır, və hazırki gəliri böyükdür".[165]

Lakin ingilislər Paris bankirini qabaqladılar və 1897-ci ilin dekabrında H.Z.Tağıyevin bütün müəssisəsini 5 mln. rubla alaraq, onun əsasında nizamnamə kapitalı 1,2 mln. f.st. olan "Rus nefti və maye yanacağının hasilatı" cəmiyyətini yaratdılar. H.Z.Tağıyev cəmiyyətin 165 min f.st. məbləğində səhmini öz əlində saxladı. Bu cəmiyyətin bütün kapitalının 13,7 faizini təşkil edirdi və H.Z.Tağıyevə şirkətin işlərində fəal rol oynamağa imkan verirdi.[166]

1898-ci ildə satın alınmış "S.M.Şibayev və K" şirkətinin əsasında Londonda nizamnamə kapitalı 750 min f.st. olan "Məhdud məs'uliyyətli Şibayev neft kompaniyası" səhmdar cəmiyyəti yaradıldı.[167] Elə həmin vaxt ingilis kapitalistlərinin diqqətini "Q.M.Arafelov və K", "Budaqov qardaşları", "Y. və A. Adamov qardaşları" ticarət evləri cəlb etdi. 1898-ci ilin aprelində bu müəssisələr əsas kapitalı 1,5 mln. f.st. olan "Məhdud məs'uliyyətli Bakı rus neft cəmiyyəti" adlı yeni yaradılmış şirkətin tərkibinə daxil oldular.[168] İngilislər tərəfindən alınmış yerli müəssisələrə yaxşı bələd olan H.Z.Tağıyev yeni şirkətin direktorlar hey'ətinin üzvü oldu.[169] Nəhayət, 1898-ci ildə satın alınmış



"A.Saturov və K" və "B.M. de Bur" şirkətlərinin əsasında "Avropa neft kompaniyası" yaradıldı.[170]

Q.M.Arafelov öz müəssisəsini satdıqdan sonra neft hasilatı ilə məşğul olmaq məqsədilə 1898-ci ildə keçirilən hərracda yeni torpaq sahəsi icarəyə götürdü və bir ildən sonra səhmdar cəmiyyəti təşkil etdi.[171]

90-cı illərin sonunda qərb kapitalının Azərbaycan neft sənayesinə axını neft hasilatının artması ilə müşayiət olunurdu. 1896-cı ildəki 386 mln. 264 min pud neftə qarşı 1899-cu ildə 534 mln. 200 min pud neft, yə'ni 38 faiz çox hasil edilmişdi.[172] Lakin XIX əsrin sonunda ingilis kapitalının Azərbaycan neft sənayesinə nüfuz etməsi əhəmiyyətli rol oynamadı. 1900-cü ilin yanvar ayında əkinçilik və dövlət əmlakı naziri A.Yermolov yazırdı ki, "xaricilərin əlinə keçmiş torpaqlarda hasil olunan neftin həcmi artmır, əksinə rus şirkətləri ilə müqayisədə xarici şirkətlərin hasil etdiyi neftin nisbi həcmi hətta azalır".[173] Həqiqətən də sonralar ingilis şirkətlərinin əlinə keçmiş mə'dənlərdə 1897-ci ildə 67 mln. 560 min pud neft hasil edilmişdi ki, bu da bütün hasilatın 16 faizini təşkil edirdi. 1899-cu ildə isə həmin mə'dənlərdə ingilis şirkətləri tərəfindən 62 mln. 600 min pud, yə'ni ümumi hasilatın 11,7 faizi həcmində neft hasil edilmişdi. 1899-cu ildə hasilatın kəskin artımı "Nobel qardaşları"nın mə'dənlərində baş vermişdi - 95 mln. pud (ümumi hasilatın 17,7 faizi). Cəmi iki il əvvəl isə, yə'ni 1897-ci ildə Nobellər yalnız 28 mln. pud neft hasil etmişdilər. Digər Avropa şirkəti - "Xəzər-Qara dəniz cəmiyyəti"nin mə'dənlərində isə hasilat 1897-ci ildəki 37 mln. puddan 1899-cu ildə 33 mln. puda qədər azalaraq ümumi hasilatın 6,1 faizini təşkil etmişdi.[174]

Vəziyyətin belə şəkil alması nəticəsində dövlət orqanlarının nümayəndələri, xüsusilə Qafqazda mülki işlər üzrə baş rəis knyaz Qolitsın xarici kapitalın neft sənayesində iştirakını məhdudlaşdırmaq haqqında təkliflər ilə çıxış etməyə başladı. Knyaz Qolitsın 1899-cu il fevralın 14-də əkinçilik və dövlət əmlakı nazirinə yazırdı ki, qərb sərmayəçiləri ya fəaliyyətdə olan mə'dənləri, ya da ki, aşkar

neftli torpaq sahələrini alaraq, "əcnəbilər tərəfindən yeni neft yataqlarının kəşfi və istismar edilməsi yolu ilə" neft işinin genişlənməsi haqqındakı ümidləri doğrultmurlar. O, göstərirdi ki, 1897-ci ilin ilk 11 ayı ərzində Batum vasitəsilə ixrac olunan neft məhsullarının həcmi 52 mln. pud (o cümlədən 42 mln. pud ağ neft) olduğu halda, 1898-ci ilin eyni dövrü ərzində 55 mln. pud neft məhsulları (o cümlədən 45 mln. pud ağ neft) ixrac edilmişdi və bu artım "ixracın adi illik artımından çox deyildi". Həmin fakt isə təsdiq edirdi ki, "əcnəbilərin köməyi ilə neft məhsullarının ixracının yüksəlməsi və satışının lazımi şəkildə tə'min edilməsi haqqında" ümidlər də özünü doğrultmadı.[175]

Knyaz Qolitsın e'tiraz edərək bildirirdi ki, əgər xarici ticarət ölkə büdcəsinə gəlir gətirirdisə, ingilis sahibkarları öz məhsullarını əsasən Rusiyanın daxili bazarında sataraq "qızılın təmiz gəlir şəklində "xaricə axmasına" imkan yaradırdılar.[176]

XIX əsrin 90-cı illərində neft sənayesinin inkişafı qərb kapitalının kütləvi axını ilə yanaşı, həm də istehsalın yüksək təmərgüzləşməsi və səhmdar cəmiyyətlərin yaranması ilə səciyyələnirdi. 1890-cı ildə bütün 83 şirkət 226,3 mln. pud neft hasil etmişdi. Ümumi hasilatın 147,3 mln. pudu, yə'ni 65 faizdən çoxu istehsal gücü 10 mln. pud olan 8 şirkətin payına düşürdü.[177]

Öyrənilən dövrün sonunda - 1900-cü ildə neft hasilatının 67,7 faizi illik hasilat gücü 10 mln. puddan çox olan 13 şirkətin (167 şirkət fəaliyyət göstərirdi) payına düşürdü. Onlardan 8 şirkət Rusiya kapitalistlərinə məxsus olub həmin 13 iri şirkətin hasil etdiyi neftin 51 faizini verirdi.[178] Azərbaycanın milli kapital nümayəndələrinə məxsus şirkətlər bu qrupda təmsil olunmamışdılar. Hasilat gücü 5 mln. puddan 10 mln. puda qədər olan şirkətlər qrupuna isə azərbaycanlı neft sənayeçiləri arasında aparıcı mövqe tutan yalnız iki sahibkar - Musa Nağıyev (7,5 mln. pud neft) və Şəmsi Əsədullayev (7,3 mln. pud neft) daxil idilər.[179]

Eyni proses neftayırma sənayesində də baş verirdi. 1900-cü ildə 71 zavod fəaliyyət göstərdiyi halda, bütün ağ neftin 87 faizdən çoxu illik istehsal gücü 1 mln. puddan artıq olan 32 zavodda istehsal edilirdi. Həmin iri zavodların 25-i (iri zavodların istehsal etdiyi ağ neftin 48 faizi onların payına düşürdü) Rusiya sahibkarlarına məxsus idi.[180] Onların sırasında isə azərbaycanlı sahibkarları yalnız üç nəfər - Ş.Əsədullayev (2,6 mln. pud), M.Nağıyev (2 mln. pud) və Q.Vəzirov (1,4 mln. pud) təmsil edirdilər. Göründüyü kimi, ağ neft istehsalında mühüm rol oynayan iri şirkətlər arasında azərbaycanlı kapital nümayəndələrinə məxsus iri şirkətlərin xüsusi çəkisi böyük deyildi. Bu qrupa daxil olan şirkətlərin ümumi istehsalında onların payı cəmi 5,1 faiz təşkil edirdi.[181]

Ümumiyyətlə isə, qərb kapitalına məxsus şirkətlərin sayı üstünlük təşkil etməsə də, təmərgüzləşmə səviyyəsinə görə onlar irəlidə gedirdilər.

XIX əsrin 90-cı illərində həm də neft sənayesinin səhmləşməsi prosesi vüs'ət alır. Bu prosesin dinamikasını əks etdirən cədvəldən aydın olur ki, əgər 90-cı ilin əvvəlinə qədər səhmdar cəmiyyətlərin yaranması qeyri-müntəzəm xarakter daşıyırdısa, 1893-cü ildən başlayaraq onların sayı ilbəil artırdı. (Bax: əlavə).

Səhmdar cəmiyyətləri sayca neftçıxarma sənayesində üstünlük təşkil edirdi. 1900-cü ildə bütün 48 səhmdar cəmiyyətin 27-i neftçıxarma sənayesində fəaliyyət göstərir və hasilatın 68,5 faizini əhatə edirdi. Rusiya kapitalistləri 1900-cü ildə Azərbaycanda ümumi neft hasilatının 35,8 faizini verən 21 səhmdar cəmiyyətinə nəzarət edirdilər.[182] Müqayisə üçün qeyd etmək olar ki, 1886-cı ildə neftçıxarma sənayesində Rusiya kapitalistlərinə məxsus olan 3 səhmdar cəmiyyəti fəaliyyət göstərirdi (Bakı neft cəmiyyəti, "Mirzoyev qardaşları", "S.M.Şibayev və K") və ümumi neft hasilatında onların payı 10 faiz təşkil edirdi.[183]

Beləliklə, araşdırmaya yekun vuraraq belə nəticəyə gəlmək olar ki, iltizam sisteminin ləğv edilməsindən sonra Azərbaycan neft sənayesində aparıcı mövqe tutan Rusiya kapitalı sonrakı dövrdə də onun inkişafında əhəmiyyətli rol oynamışdır. 80-ci illərin ortalarından başlayaraq neft məh-

sullarının daşınması və ticarəti sahəsində Rotşild və "Nobel qardaşları" şirkətləri üstünlüyü ələ keçirsələr də, ümumilikdə Rusiya kapitalistləri (o cümlədən azərbaycanlı sahibkarlar) neftçıxarma və neftayırma sənayesinin və neft məhsulları ticarətinin inkişafında fəal iştirak etmişdilər. Məhz onların yaxından iştirakı şəraitində-Rotşild və Nobel şirkətlərinin aparıcı rol oynamasına baxmayaraq-neft sənayesinin inhisara alınması prosesi gedirdi. Mənbələrin göstərdiyi kimi, ilk iri inhisarın-"Bakı ağ neft zavodu sahibləri ittifaqı"nın yaranması Nobel və Rotşild ilə sıralarında azərbaycanlı sahibkarların da təmsil olunduğu Rusiya kapitalistlərinin arasında liderlik uğrunda baş verən gərgin mübarizə ilə müşayiət olunmuşdur. Nəticədə sindikatda qərb və Rusiya sahibkarlarının başçılıq etdiyi iki müstəqil qrup yaranmışdı. Sonrakı dövrdə hər iki qrupun birləşməsi və "İttifaq"ın quruluşunun təkmilləşməsi ilə onun fəaliyyətində Rusiya kapitalının rolunun yüksəlməsinə baxmayaraq, məhz "İttifaq", qərb və Rusiya kapitalının bu sindikatda qarşılıqlı fəaliyyəti Nobel şirkətinin xarici ticarətdə mövqelərinin güclənməsinə və Avropa bazarlarında möhkəmlənməsinə kömək etmişdi.

XIX əsrin sonunda qərb kapitalının kütləvi axını və Rusiya neft sənayeçilərinə məxsus fəaliyyətdə olan mə`dənlərin satın alınması neft sənayesinin tərəqqisinə xüsusi tə`sir göstərmirdi. Eyni zamanda bu, Rusiya kapitalı nümayəndələrinin, yerli sahibkarların özünütəcridilə nəticələnmədi. Belə ki, onların bir hissəsi fəaliyyət formasını dəyişərək və ya yeni mə`dənlər yaradaraq, neft sənayesində öz mövqelərini qoruyub saxlayırdılar. Təsadüfi deyil ki, Maliyyə Nazirliyinin xüsusi məsələlər üzrə mə`muru S.İ.Qulişambarov 1890-cı illərin sonunda yazırdı: "Rusiyada neft işinin nə kommersiya, nə də texniki baxımdan xaricilərə ehtiyacı yoxdur".[184]

Lakin qərb kapitalının mühüm rolunu inkar etməyərək (başlıca olaraq, neft məhsullarının daşınması və satışı sahəsində), onun Azərbaycan neft sənayesinə nüfuz etməsinə zəmin yaratmış və XIX əsrin 80-90-cı illərində qərb kapitalı ilə sıx əlaqədə fəaliyyət göstərmiş Rusiya kapitalının zəruri əhəmiyyətini də qeyd etmək lazımdır. Əsrin sonunda Rusiya kapitalının xüsusi çəkisi aşağı düşsə də, neft hasilatı sahəsində onun payı 66,3%, neftayırma sənayesində isə 55,6% təşkil edirdi.[185]

Qeyd etmək lazımdır ki, Qafqaz siyasətinin həyata keçirilməsində ermənilərə aparıcı rol ayıran Rusiyanın hakim dairələri Bakı neft mə'dənlərinin istismarının ilk dövründə onlara arxalandığı kimi, sonrakı illərdə də erməni sahibkarlarının bu sahədə fəaliyyətinə hərtərəfli şərait yaradırdı. Təsadüfi deyil ki, 1900-cü ildə neftçıxarma sənayesindəki 167 şirkət sırasında erməni kapitalını təmsil edən şirkətlərin sayı 40-dan çox idi. Neft hasilatında onların xüsusi çəkisi 30%-ə çatırdı. Neft e'malı sənayesində isə 71 zavoddan 16-sı erməni şirkətlərinə məxsus idi. Onlar bütün ağ neftin 18%-ə qədərini istehsal edirdilər.[186]

Rus, erməni və Qərb kapitalı ilə gərgin rəqabət şəraitində Azərbaycan milli kapitalının da mövqeləri zəifləmişdi. 1900-cü ildə neft hasilatında onun xüsusi çəkisi 3,7%-ə , ağ neft istehsalında isə 6,2%-ə bərabər idi.[187]

İstehsalın təmərgüzləşməsində fəal iştirak etməklə yanaşı, Rusiya kapitalının təmsil etdiyi neft şirkətlərinin səhmləşmə əsasında təkamülü prosesi baş verirdi. Neft şirkətləri arasında sayca az olmasına baxmayaraq, ümumi istehsalda onların payı əhəmiyyətli yer tuturdu. Bu isə daha mütərəqqi təşkilatlanma formalarına malik kapitalın Azərbaycan neft sənayesində mühüm rol oynadığını göstərirdi.

## Nəticə

